Xalqın qəzeti!

# Xalq qəzeti

№ 90 (30784) 4 may 2025-ci il, bazar

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Azərbaycan – Rusiya: ənənəvi dəyərlər gələcək münasibətlərin təməlidir

### *Azərbaycan Prezidenti İlham Əliyev Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşüb*



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mayın 3-də Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillə görüşüblər.**

Dövlətimizin başçısı və birinci xanım qonağı qarşıladılar.

Söhbət zamanı Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin Azərbaycana səfərləri, dövlətimizin başçısı və birinci xanım ilə görüşləri məmnunluqla xatırlandı.

Ölkəmizdə hökm sürən multikultural mühitə toxunuldu, müxtəlif dinlərin nümayəndələrinin Azərbaycanda sülh və harmoniya şəraitində yaşadıqları vurğulandı.

*(ardı 2-ci səhifədə)*



## Azərbaycanın qlobal mövqeyi – nüfuzumuzun təntənəsi

### *Güclü lider amili, praqmatik siyasət və xalq–iqtidar birliyi*



**Beynəlxalq müstəvidə mürəkkəb kataklizmlərin, qlobal dəyişikliklərin getdiyi bir dövrdə sabitlik adası olan Azərbaycanın dünyadakı siyasi mövqeyi, regional aktor obrazı güclənməkdədir. Əlbəttə, bu, ilk növbədə, Prezident İlham Əliyevin bacarıqlı dövlət adamı olmasından, uzaqgörənliyindən və diplomatik səriştəsindən qaynaqlanmaqdadır. Tam əminliklə demək olar ki, dövlətimizin başçısı Vətənimizin coğrafi mövqeyindəki üstünlükdən məharətlə istifadə etməkdə, üstünlüyümüzü praktik faydalara çevirməkdədir.**

Bəli, cənab İlham Əliyevin prezidentlik fəaliyyəti Azərbaycanın geosiyasi əhəmiyyətini vurğulayır. Qeyd edək ki, dövlətimizin başçısının sayəsində ölkəmiz Avropaya alternativ enerji marşrutları üçün əsas tranzit və təchizat ölkəsidir və bu məqam özünü Cənub Qaz Dəhlizi ideyasında göstərir. Azərbaycanın logistika sahəsindəki əhəmiyyətini artıran cəhət isə Orta Dəhliz və bu dəhlizin müstəsna komponenti sayılan Zəngəzur dəhlizidir. Habelə, geosiyasi əhəmiyyətdən danışırıqsa, Azərbaycanın 44 günlük müharibədən sonra regiondakı siyasi və hərbi balansda fəal rol oynamağa başladığını vurğulamalıyıq. Bu isə Prezident İlham Əliyevin təkcə müdrik dövlət xadimi deyil, eyni zamanda, Ali Baş Komandan kimi əsl sərkərdə bacarığının göstəricisidir. Hesab edirik ki, dövlətimizin başçısı bu mənada hazırkı dünyanın öndə gedən liderlərindən biridir.

Bugünün Azərbaycanı Qərb və Rusiya, Türkiyə və İran kimi fərqli güclərlə balanslaşdırılmış siyasət aparır, İslam Əməkdaşlıq Təşkilatı, GUAM, Türk Dövlətləri Təşkilatı və digər qurumlarda fəallıq nümayişi ilə özünün siyasi baxış bucağının diapazonunu xeyli genişləndirir. Fəallıq ölkəmizi dünyanın hesablaşdığı güc mərkəzi halına gətirir. Etiraf edək ki, indiki qürur və fəxarət dolu mənzərəni müstəqilliyimizin ilk illərində, habelə sonrakı 10-15 il ərzində nəinki proqnozlaşdırmaq, heç təsəvvürə gətirərək xəyal etmək belə mümkün deyildi. Deməli, Azərbaycan həm də xəyalların gerçəkləşdiyi məkan kimi də dünyaya nümunədir. Bu nümunəviliyin memarı ulu öndər Heydər Əliyev siyasi xəttinə sadiq, həmin xətti yüksək dəqiqliklə davam etdirən və zənginləşdirən Prezident İlham Əliyevdir. Belə nümunəvilik dövlətimizin başçısının tarixi, nəsillərə miras qalacaq müstəsna xidmətidir.

**(ardı 3-cü səhifədə)**

## Balasanyandan Ayvazyanadək

### *Yaxud avantürizm naminə yalvarış və divara kəllə atmaq çağırışı*



***Ermənistanda 44 günlük müharibə rüsvayçılığından sonra yaranmış "psixoz" davam edir.***

Son gününü yaşadığımız mayın ilk həftəsində bu fəaliyyətin təzahür formaları ilə bağlı iki başlıca məqamın üzərində dayanmaq mümkündür. Bunlardan birincisi Xocalı cəlladı Vitali Balasanyanın Rusiya Prezidenti Vladimir Putinə müraciəti, digəri Ermənistanın keçmiş xarici işlər naziri Ara Ayvazyanın məqaləsidir.

**(ardı 5-ci səhifədə)**

## Dünyanın böyük yolları "Odlar yurdu"ndan keçir



**Avtomobil yolları və dəmir yolu xətlərinin beynəlxalq standartlar əsasında yenidən qurulması, paytaxtda və regionlarda beynəlxalq aeroportların, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq – Qərb və Şimal – Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynayıb, ölkəmizin tranzit potensialını daha da gücləndirib.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən il Cənub – Qərb Nəqliyyat Dəhlizi (Fars körfəzi/Hindistan–İran–Azərbaycan–Gürcüstan–Ukrayna–Avropa (və ya Türkiyə–Avropa) marşrutu ilə daşınan yüklərin həcmi 394,2 min ton (2023-cü illə müqayisədə 141,3 min ton və ya 55,9 faiz çox) təşkil edib. 2023-cü ildə isə bu nəqliyyat dəhlizi ilə daşınan yüklərin həcmi 252,9 min tona çatıb.

**(ardı 8-ci səhifədə)**

## Avropanın müdafiə arzusu: "Pleven planı"ndan Transatlantik gərginliyə uzanan yol



Səhifə ⇨ 4

## Son 3 ildə aqrar sahəyə 107 milyon manat vəsait ayrılıb



Səhifə ⇨ 8

## Bakıda ilk Beynəlxalq Xalça Festivalı




Səhifə ⇨ 11

# Azərbaycan Prezidenti İlham Əliyev Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill ilə görüşüb



*(əvvəli 1-ci səhifədə)*

Bu xüsusda ölkəmizdə pravoslav xristian icmasına göstərilən diqqət və qayğıdan bəhs edildi, həmin icmanın nümayəndələrinin də Azərbaycanın ictimai-siyasi və mədəni həyatında layiqincə təmsil olunduğu diqqətə çatdırıldı. Dini tolerantlığın təmin edilməsinin dövlət siyasətinin əsas istiqamətlərindən biri olmaqla yanaşı, xalqımızın həyat tərzi kimi uzun illərdir mövcud olduğu bildirildi.

Sonra Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirill Rus Pravoslav kilsəsinin I dərəcəli "Müqəddəs Knyaginya Olqa" ordenini Azərbaycan Respublikasının Birinci vitse-prezidenti və Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevaya təqdim etdi.

Qeyd edək ki, Azərbaycanın birinci xanımı bu ordenə cəmiyyətdə ənənəvi dəyərlərin qorunub saxlanmasına, mədəniyyətlərarası və dinlərarası dialoqun inkişafına verdiyi töhfələrə görə Moskvanın və Bütün Rusiyanın Patriarxı Kirillin fərmanına əsasən layiq görülüb.

Birinci xanım Mehriban Əliyeva göstərilən diqqətə görə minnətdarlığını bildirdi.

Sonda qarşılıqlı hədiyyələr təqdim olundu.

***AZƏRTAC***







# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Hörmətli İlham Heydər oğlu!**

Böyük Vətən müharibəsində Qələbənin 80-ci ildönümü münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu yubiley tarixini qeyd edən ölkələrimizin vətəndaşları döyüş meydanlarında və arxa cəbhədə öz güclərini və həyatlarını əsirgəmədən nasist işğalçıları üzərində qələbəni yaxınlaşdıranları lazımınca qiymətləndirirlər.

Əminəm ki, həmin ağır illərdə bərkiyən şanlı dostluq və qarşılıqlı kömək ənənələri gələcəkdə də Rusiya ilə Azərbaycan arasında dostluq, müttəfiqlik münasibətlərinin inkişafı üçün etibarlı zəmin olacaq.

Azərbaycan torpağında yaşayan bütün veteranlara səmimi minnətdarlıq, ürəkdən gələn təbrik sözlərimi, möhkəm cansağlığı, əmin-amanlıq və uzunömürlülük arzularımı çatdırmağı xahiş edirəm.

**Hörmətlə,**

***Vladimir PUTİN,***
***Rusiya Federasiyasının Prezidenti***

# Polşa Respublikasının Prezidenti Zati-aliləri cənab Andjey Dudaya

**Hörmətli cənab Prezident,**

Polşa Respublikasının milli bayramı – Konstitusiya Günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

İnanıram ki, Azərbaycan Respublikası ilə Polşa Respublikası arasındakı dostluq və əməkdaşlıq münasibətləri daim xalqlarımızın maraqlarına uyğun inkişaf edəcək və genişlənəcəkdir.

Belə bir əlamətdar gündə Sizə ən xoş arzularımı çatdırır, dost xalqınıza əmin-amanlıq və firavanlıq diləyirəm.

**Hörmətlə,**

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 30 aprel 2025-ci il**

# Azərbaycan diplomatları Nepalda və Keniyada

**Xarici işlər nazirinin müavini Elnur Məmmədovun rəhbərliyi ilə Azərbaycanın hökumət missiyası aprelin 30-dan mayın 2-dək Nepalda səfərdə olub.**



Səfər zamanı xarici işlər nazirinin müavini Elnur Məmmədov Nepal Prezidenti Ramçandra Paudel, həmçinin Baş nazir Şarma Oli tərəfindən qəbul edilib. O Nepalın xarici işlər naziri Arzu Rana Deuba ilə də görüşüb. Görüşlərdə Nepal tərəfi Azərbaycan hökumət missiyasını yüksək qiymətləndirib və hər iki tərəf üçün maraq doğuran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

Səfər çərçivəsində Azərbaycanın Xarici İşlər Nazirliyi ilə Nepal Xarici İşlər Nazirliyi arasında ilk siyasi məsləhətləşmələr keçirilib. Siyasi məsləhətləşmələrə Azərbaycan tərəfindən xarici işlər nazirinin müavini Elnur Məmmədov, qarşı tərəfdən isə Nepal xarici işlər katibi Amrit Bahadur Rai rəhbərlik ediblər.

Məsləhətləşmələr zamanı ikitərəfli və çoxtərəfli siyasi əlaqələrin inkişaf etdirilməsi, iqtisadi-ticarət, enerji, turizm, kənd təsərrüfatı, humanitar və digər sahələrdə əməkdaşlığın hazırkı vəziyyəti və perspektivləri müzakirə olunub.

Səfər çərçivəsində nazir müavini Elnur Məmmədov Nepalda fəaliyyət göstərən Asiya Diplomatiya və Beynəlxalq Münasibətlər İnstitutu (AIDIA) tərəfindən təşkil edilən, ölkənin nüfuzlu ictimai-siyasi xadimlərinin, beyin mərkəzlərinin rəhbərlərinin, müxtəlif dövlət və qeyri-hökumət qurumlarının nümayəndələrinin, ekspertlərin qatıldığı tədbirdə "Azərbaycanın xarici siyasəti: çağırışlar və imkanlar" mövzusunda mühazirə ilə çıxış edib və auditoriyanın suallarını cavablandırıb.

*

Mayın 2-də xarici işlər nazirinin müavini Yalçın Rəfiyev Keniya Respublikasına səfər edib.

Səfər çərçivəsində Nayrobi şəhərində Azərbaycan Xarici İşlər Nazirliyi və Keniya Xarici və Diaspor İşləri Nazirliyi arasında ilk siyasi məsləhətləşmələr baş tutub. Nazir müavini Yalçın Rəfiyev və Keniya xarici və diaspor işləri nazirinin müavini Abraham Korir SingOeinin rəhbərliyi ilə keçirilən iclasda ikitərəfli siyasi, iqtisadi-ticarət, humanitar və parlamentlərarası əlaqələrin müsbət dinamikası, habelə beynəlxalq platformalarda əməkdaşlıq məsələləri nəzərdən keçirilib.

Tərəflər iki ölkə arasında diplomatik əlaqələrin qurulmasından ötən 20 il ərzində formalaşan münasibətlərin gələcək inkişaf perspektivlərinə dair geniş fikir mübadiləsi aparıblar.

Səfər zamanı nazir müavini Yalçın Rəfiyev Keniya Respublikasının Baş naziri, eyni zamanda, xarici və diaspor işləri naziri Musalia Mudavadi tərəfindən qəbul edilib. İlk dəfə keçirilən siyasi məsləhətləşmələrin ikitərəfli və çoxtərəfli istiqamətdə mövcud əməkdaşlığın daha da dərinləşməsinə mühüm töhfə verəcəyi vurğulanıb.

***XQ***

# Qərbi azərbaycanlıların qayıdışı bəşəri ədalətin tələbidir

**Dünən Qərbi Azərbaycan İcmasının Qadınlar Şurası, ABŞ-ın Şimali Karolina Universitetinin Sülh və Münaqişə Araşdırmaları Departamenti və Amerika –Türkiyə Assosiasiyası Assambleyasının birgə təşkilatçılığı ilə "Dəyişən dünyada birgə və sülh şəraitində yaşamağın mümkünlüyü" mövzusunda onlayn beynəlxalq konfrans keçirilib.**

BMT tərəfindən qəbul edilmiş 16 May Beynəlxalq Dinc Yanaşı Yaşamaq Günü və 21 May Dialoq və İnkişaf Naminə Beynəlxalq Mədəni Müxtəliflik Günü ərəfəsində təşkil edilən konfransın keçirilməsində məqsəd Qərbi Azərbaycana qayıdış prosesini bir daha müxtəlif ölkələrin tanınmış xadimlərinin diqqətinə çatdırmaq, bu problemin beynəlxalq səviyyədə ictimailəşdirilməsidir.

Ondan çox xarici ölkədən 200-ə yaxın iştirakçının qatıldığı onlayn konfransda dünyanın tanınmış siyasətçiləri, vətəndaş cəmiyyəti liderləri, ABŞ, Kanada və İspaniya kimi bir sıra ölkələrin nüfuzlu universitetlərinin alim və mütəxəssisləri çıxış ediblər. Sonda konfrans iştirakçıları adından BMT-yə və digər beynəlxalq təşkilatlara Qərbi azərbaycanlıların qayıdış hüququnun təmin olunması ilə bağlı müraciətlər göndərilib.

***XQ***

(əvvəli 1-ci səhifədə)



# Azərbaycanın qlobal mövqeyi – nüfuzumuzun təntənəsi

Azərbaycanın dünyadakı hazırkı yüksək yeri və rolunu vurğulayan digər məqamlar da var. Bu baxımdan ölkəmizin sülh gündəliyindəki ardıcıllığını qeyd edə bilərik. Azərbaycan qlobal inteqrasiyanın fəal təbliğatçısı olmaqla yanaşı, regional inteqrasiyanın sülh trayektoriyasını müəyyənləşdirməkdədir. Mövcud mənada ölkəmizin irəli sürdüyü “3+3” regional məşvərət formatı üzərində dayana bilərik. Nəzərə alaq ki, bu format Azərbaycan-Ermənistan ixtilafından sonrakı Cənubi Qafqaz üçün real əməkdaşlıq platforması mahiyyəti daşımaqdadır. Cənubi Qafqazda dayanıqlı barış və əməkdaşlıq mühiti varsa, deməli, davamlı inkişaf da qaçılmazdır. Hər halda, rəsmi Bakının baxışı belədir. Prinsipiallığı, o cümlədən, sülhün təməl şərtlərinə yanaşmasındakı qətiyyəti ilə seçilən Prezident İlham Əliyevin çalışdığı budur ki, region sülhün, sözün əsl mənasında, zəfər çaldığı etibarlı düzən statusuna yiyələnsin. Belə bir statusun bütövlükdə, beynəlxalq aləm üçün vacibliyi isə ən müxtəlif faktlar və misallarla sübuta yetirilə bilər.

İnkişafa və tərəqqiyə hərtərəfli baxış bucağını ortaya qoyan Azərbaycanın dünyadakı yeri və rolunu müəyyənləşdirən daha bir mühüm faktora diqqət yetirək. Məsələ ondadır ki, ölkəmiz sülh amilinin özünə geniş yanaşması ilə seçilir. Bu yanaşmada mədəniyyət mühüm əhəmiyyətə malik komponent kimi çıxış edir. Müxtəlif din və etnik qrupların birgəyaşayışını təşviq edən nadir məmləkətlərdən olan ölkəmiz beynəlxalq multikulturalizmin qaynağı, humanitar forumların və dini tolerantlıq təşəbbüslərinin irəli sürüldüyü və bu kimi ideyaların uğurla gerçəkləşdirildiyi nəhəng mərkəzdir.

*

Əlbəttə, Azərbaycanın beynəlxalq siyasi uğurlarında strateji tərəfdaşlıq amili də başlıca mövqeyə malikdir. Bu gün Türkiyə ilə müttəfiqlik kursunu dərinləşdirən ölkəmiz dünyanın qəbul etmədiyi Rusiya ilə münasibətlərində dərin praqmatizmi əsas götürür, Çinlə yaxınlaşmanı dərinləşdirir. Ayrıca onu deyək ki, Moskvanın mühüm rol oynadığı Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatında təmsil olunmasa da, ölkəmiz Kremlin maraq və mənafeləri ilə uzlaşan təhlükəsizlik arxitekturasında da fəal oyunçudur. Habelə, zamanla əlaqələrimizin mürəkkəb məcrada olduğu İranla münasibətlər baxımından da son dərəcə ciddi balans qorunur, əməkdaşlıq xətti dərinləşdirilir. Yəqin razılaşarsınız ki, İranın Rusiya kimi dünyada mənfi qarşılandığı bir dövrdə Tehranla təmaslardakı dinamizmə sadiqlik və paralel surətdə Qərblə əməkdaşlıq xəttinin davamı adi məsələ sayıla bilməz. Bunun özü də Prezident İlham Əliyevin diplomatik bacarığının təntənəsidir.

*

Azərbaycanın dünyadakı artan nüfuzunu və hazırkı yüksək beynəlxalq mövqeyini şərtləndirən daha bir vacib məqam rəsmi Bakının hər zaman beynəlxalq hüquqa söykənməsidir. Doğrudur, Prezident İlham Əliyev çıxışlarında, bir qayda olaraq, hazırkı beynəlxalq hüquq düzəninin işləmədiyini vurğulayır, bununla əlaqədar müxtəlif məqamları qabardır, ikili standartlar siyasətinin hegemon mövqeyini əks etdirən misallar çəkir. Ancaq ölkəmiz həmişə səbrli davranaraq, güc amilindən beynəlxalq hüququ heçə saymaq naminə yararlanmayıb. Ona görə də dövlətimizin başçısı bəyan edir ki, Azərbaycan Qarabağı işğaldan azad etməklə, BMT Təhlükəsizlik Şurasının icra olunmamış 4 qətnaməsini yerinə yetirdi. Bu deyim haqq işimizin dünyanın mütərəqqi düzəninin qorunması baxımından da zəruriliyinin dolğun şəkildə vurğulanmasıdır.

Bəli, əndazəsindən çıxmış dünyanın xaos perspektivi indiyədək əldə edilmiş dəyər və prinsiplərin sıradan çıxması reallığını ortaya qoyur. İnkişafa və tərəqqiyə can atan Azərbaycan isə vəziyyətin belə şəkil almasının tərəfdarı deyil və ona görə daim beynəlxalq hüquq prinsiplərindən çıxış edir, təmsil olunduğu bütün xarici platformalarda ona riayət edilməsinin vacibliyini önə çəkir. Ölkəmizin yüksək statusunu qəbul etməyənlər, ona qısqanclıqla yanaşanlar olsa da, belə yanaşma tərzi və dəst-xət tərəfdarlarımızın sayını artırır ki, bu da Azərbaycanın liderlik ampluasını möhkəmləndirir. Nəticə etibarilə, respublikamız iqtisadi və hərbi gücün əsaslandırılmış istifadə mərkəzi kimi dünyada qazandığı rəğbəti və hörməti artırır. Mövcud xüsusda tam qətiyyətlə bir fikri də söyləyə bilərik: Prezident İlham Əliyevin yüksək səriştəsinin nəticəsidir ki, 2020-ci ildə müharibə ilə öz torpaqlarını geri qaytaran ölkəmiz savaş ritorikasının beynəlxalq ictimaiyyətin nəzərindəki ənənəvi mənfi stereotiplərdən uzaq, sülh təşəbbüskarı imicinə malik diplomatik oyunçudur.

*

Ümumiləşdirmə apararaq, bu qənaətə gələ bilərik ki, realist və praqmatik xarici siyasət yürüdən, həm regional balansda söz sahibinə çevrilmiş, həm də beynəlxalq hüquqa istinad edərək, maraqlarını qoruyan dövlət olan Azərbaycanın uğurunu şərtləndirən diplomatik çeviklikdir, qlobal güclər arasındakı aktiv neytrallıqdır. Nəzərə alaq ki, hazırda geridə qalan atların güllələndiyi dünyada yaşayırıq. Yəni, prinsip etibarilə, passivlik iflas deməkdir.

Sonda onu da deyək ki, dünyada hesablaşılan dövlət statusunun xarici siyasət faktorları olduğu kimi, daxili paradiqması da var. Bu paradiqmanı müəyyənləşdirən xalq-iqtidar vəhdətidir. Vəhdəti şərtləndirən idarəetmənin mərkəzləşdirilməsi nəticəsində əldə olunan sabitlik, asayiş, rifah və firavanlıqdır. Bütün bunlar isə Azərbaycanın xarici siyasət üzrə manevr imkanlarını artırır və deməli, həm də dünyadakı lider mövqeyinin güclənməsini şərtləndirir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Dildə, fikirdə, əməldə birlik – Türk dünyasının gələcəyi”

## *Bakıda 3 May Türkçülük Günü münasibətilə konfrans*



**Dünən Heydər Əliyev Mərkəzində 3 May Türkçülük Günü münasibətilə Türkiyə Prezidenti Administrasiyası Kommunikasiya İdarəsinin təşkilatçılığı ilə “Dildə, fikirdə, əməldə birlik – Türk dünyasının gələcəyi” mövzusunda konfrans keçirildi.**

Türk Dövlətləri Təşkilatına üzv və müşahidəçi ölkələrin nümayəndələrinin, Azərbaycanın və Türkiyənin media təmsilçilərinin iştirak etdikləri işgüzar müzakirədə Türk dünyasının ortaq dəyərləri və gələcək inkişaf istiqamətləri ilə bağlı önəmli çağırışlar və hədəflər diqqət mərkəzində oldu.







Azərbaycan və Türkiyə respublikalarının dövlət himnləri səsləndirildikdən, hər iki ölkənin şəhidlərinin xatirəsi ehtiramla anıldıqdan sonra Türk dünyasının şanlı tarixini və ortaq dəyərlərini əks etdirən videoçarx göstərildi. Türkiyənin Azərbaycandakı Səfirliyinin media müşaviri Alptekin Cihangir İşbilir mövzu ilə bağlı Türkiyə və Azərbaycanın ictimaiyyət nümayəndələrinin və media təmsilçilərinin iştirakı ilə iki dəyirmi masa keçirildiyini bildirdi.

Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin İdarə Heyətinin sədri Aygün Əliyeva Türk dünyasını təkcə ortaq tarixin deyil, həm də ümumi mənəvi dəyərlərin birləşdirdiyini vurğulayaraq dedi: “Bizim üçün hər bir türk yurdu eyni taleyi bölüşdüyümüz bir ana nəfəsi qədər doğmadır. Zaman-zaman türk xalqlarını bir-birindən ayrı salınmağa çalışsalar da, onlar tarixin bütün sınaqlarından üzüağ çıxmağı bacarıblar. Çünki biz həm qılıncı, həm qələmi, həm də könlü ilə tarix yazan millətik. Nə xoş ki, bu gün Türk dünyası artıq bir xəyal deyil, reallıqdır, tarixi missiyadır. Bu, gələcək nəsillərə ötürməli olduğumuz müqəddəs bir mirasdır. Biz hər birimiz bu mirası qoruyaraq mədəniyyətimizi, dilimizi, adət-ənənəmizi, birliyimizi və gücümüzü yaşatmalıyıq”.

Türkiyənin ölkəmizdəki səfiri Birol Akgün isə Türk Dövlətləri Təşkilatının, sadəcə, regional deyil, eyni zamanda, həmrəyliyin təzahürü, beynəlxalq aləmdə əməkdaşlığı və birliyi təşviq edən platforma olduğunu bildirdi: “Siyasi həmrəylik, enerji təhlükəsizliyi, elm və mədəni diplomatiya sahəsində ortaq əməkdaşlıq üzərində çalışırıq. Biz sülhün, qarşılıqlı etimadın bərqərar olduğu bölgə qurmağı hədəfləyirik. Elm və texnologiyadan tutmuş enerji əməkdaşlığına qədər birgə strategiyalar, proqramlar və layihələr hazırlamaq labüddür və biz bunu dəstəkləyirik. Mədəni diplomatiya sahəsində fəaliyyətlərin dərinləşdirilməsi təkcə Türk dünyasında deyil, beynəlxalq ictimaiyyətdə də müsbət türk obrazının formalaşmasına səbəb olacaq”.

“Şərq” qəzetinin baş redaktoru, Azərbaycan Mətbuat Şurası İdarə Heyətinin üzvü Akif Aşırlının moderatorluğu ilə davam edən panelə videoformatda qoşulan Türkiyə Prezidenti Administrasiyasının Kommunikasiya İdarəsinin rəhbəri Fahrettin Altun isə Türk dünyasının ortaq gələcəyi ilə bağlı fikir mübadiləsi aparmaq məqsədilə təşkil edilən iclası son dərəcə önəmli saydığını və aparılan müzakirələrin gərəkli olacağını bildirdi: “Türk Dövlətləri Təşkilatı Türk dünyasını siyasi, iqtisadi, mədəni və sosial sahələrdə bir araya gətirərək bölgəmizin ən güclü əməkdaşlıq strukturlarından birinə çevrilib. Türkiyə bu strukturu daha da gücləndirmək və ortaq dəyərlər əsasında irəliləyişini davam etdirmək üçün ilk gündən böyük səylər göstərir”.

Qardaş ölkənin media rəsmisi mərhum İsmayıl Qaspıralının irəli sürdüyü “Dildə, fikirdə, əməldə birlik” şüarının keçmişdən bugünə türkçülüyün aparıcı şüarı olduğunu xarırladaraq dedi ki, “Dildə birlik” ünsiyyət və anlaşmamızı gücləndirmək və ümumi dilin daşıyıcısı olduğu dəyərləri nəsillər boyu yaşatmaq deməkdir. Fikirdə birlik – Türk dünyasının ortaq baxışını qlobal sınaqlar və çağırışlar qarşısında ümumi strateji düşüncə ilə formalaşmaq mənası daşıyır. “Əməldə birlik” isə məqsədimizin iqtisadi inkişafdan təhsil islahatlarına, rəqəmsal transformasiyadan gənclərin bilik və bacarıqlarının inkişafına qədər hər sahədə konkret layihələrlə irəliləməkdən ibarət olduğunu ehtiva edir.

Türk dünyası ölkələri olaraq ortaq tarix və mədəniyyətimizdən aldığımız güclə bu gün əməkdaşlığımızı daha da yüksək səviyyəyə qaldırmaq məsuliyyətini daşıdığımızı vurğulayan Fahrettin Altun söylədi: “ Bu məsuliyyəti dərk edərək ümid edirəm ki, panelimiz intellektual biliklərimizi zənginləşdirməklə yanaşı, konkret addımlarla irəliləməyimizi təmin edən ilham mənbəyi olacaq. Türk dünyasının qədim mərkəzlərindən biri olan Bakıda keçirdiyimiz toplantının dəyərli natiqlərinə və tədbirin təşkilində əməyi keçən həmkarlarıma təşəkkürümü bildirirəm. Ümid edirəm ki, bu görüş Türk millətinin və Türk dünyasının gələcəyi və firavanlığı üçün faydalı olacaq”.

Panel müzakirələrində Qazaxıstan Türk Akademiyası direktorunun köməkçisi Askhat Kessikbayev, Qırğızıstanın millət vəkili Dastanbek Dzhumabekov, Özbəkistanın İnkişaf Strategiyası Mərkəzinin xarici siyasət və təhlükəsizlik sahəsindəki islahatların təhlili və monitorinqi şöbəsinin müdiri Farrukh Khakimov, Şimali Kipr Prezidentinin müşaviri Gökhan Güler, TDT Macatıstan nümayəndəliyi icra direktoru Balazs Hendrich “Dildə, fikirdə, əməldə birlik – Türk dünyasının gələcəyi” mövzusunda mülahizələrini söylədilər. Natiqlər Türk dünyası ölkələri arasında əməkdaşlığın daha da gücləndirilməsi, əlaqələrin dərinləşdirilməsi ilə bağlı təkliflərini səsləndirdilər.

Konfrans bədii hissə ilə başa çatdı.

***T.RÜSTƏMLİ***
***XQ***

# Avropanın müdafiə arzusu:

## “Pleven planı”ndan Transatlantik gərginliyə uzanan yol

**Tarix bəzən susur, bəzən isə sükut içində səslənir. Avropanın müdafiə strategiyası məsələsində isə, o, illərlə eyni sualı təkrar edir: “Niyə Avropa hələ də öz təhlükəsizliyini başqasının çiyninə yükləyir?”**

İkinci Dünya müharibəsindən çıxmış Avropa dağılmış şəhərlər və yanan sərhədlərlə üz-üzə qalmışdı. Fiziki dağıntılardan daha dərini isə inamsızlıq idi –bir-birinə, özünə və sabaha. Bu zəmində Fransanın Baş naziri Rene Pleven 1950-ci ildə ortaya radikal bir ideya atdı: “Gəlin, bir Avropa ordusu quraq!”.



Avropa İttifaqının (Aİ) müstəqil müdafiə strategiyası qurmaq cəhdləri tarix boyu bir çox siyasi, hüquqi və geosiyasi maneələrlə qarşılaşıb. Həmin səylərin təməlində isə müharibədən sonrakı Avropanın təhlükəsizlik axtarışı dayanırdı. 1950-ci illərdə “Pleven planı” ilə başlayan “Avropa ordusu” ideyası uzun illər davam edən Transatlantik əməkdaşlıq fonunda zaman-zaman dirçəlsə də, heç vaxt tam şəkildə gerçəkləşmədi. Bu gün isə ABŞ–Avropa münasibətlərinin zəifləməsi və 2024-cü ildə Donald Trampın yenidən ABŞ prezidenti seçilməsi ilə Avropa dövlətləri bir daha kollektiv müdafiə və təhlükəsizlik modelini müzakirə etməyə başlayıblar. Bəs Avropa niyə vahid müdafiə strategiyasında birləşə bilmədi? “Pleven planı” niyə uğursuz oldu? NATO–Aİ əməkdaşlığı necə yarandı və bu gün niyə zəifləyir?

Ötən əsrin ortalarında Rene Pleven tərəfindən irəli sürülən plan Avropa tarixində ilk dəfə müstəqil, ABŞ-dan və NATO-dan asılı olmayan bir müdafiə qüvvəsi yaratmaq niyyətini ortaya qoymuşdu. Avropa Müdafiə Birliyi ideyası bir tərəfdən Almaniyanın hərbi yüksəlişinə mane olmağı, digər tərəfdən isə Sovet İttifaqının təhdidlərinə qarşı ümumi müdafiə strukturu formalaşdırmağı hədəfləyirdi. Lakin bu iddialı təşəbbüs cəmi dörd il sonra – 1954-cü ildə Fransa parlamenti tərəfindən rədd edildi və tarixin tozlu səhifələrinə qovuşdu.

“Pleven planı”, əslində, o dövrün geosiyasi reallıqlarına cavab idi. Avropanın iki dünya müharibəsinin yaralarını sarımağa çalışdığı, ancaq, eyni zamanda, yeni bir ideoloji mübarizənin – soyuq müharibənin qapısında dayandığı bir dönəmdə formalaşmışdı. Siyasi analiz göstərir ki, planın arxasında duran əsas məqsəd Avropanı ABŞ-ın kölgəsindən çıxarıb daha müstəqil və vahid hərbi aktora çevirmək idi. Lakin dövlətlərarası güvən çatışmazlığı, güc balansının qeyri-bərabərliyi və hər bir dövlətin özünəməxsus milli təhlükəsizlik maraqları bu təşəbbüsün qarşısını aldı.

Siyasi baxımdan “Pleven planı” dövlətlərarası inteqrasiya və kollektiv təhlükəsizlik nəzəriyyələri çərçivəsində qiymətləndirilə bilər. Qlobal siyasətdə realist yanaşmaya əsasən, dövlətlər suverenliklərini qorumaq üçün ilk növbədə öz maraqlarını müdafiə edirlər. Bu baxımdan, “Pleven planı”nın uğursuzluğu milli suverenliyin qorunmasının dövlətlər üçün Avropa inteqrasiyasından daha önəmli olduğunu göstərdi. Realist yanaşmaya qarşı çıxan liberalist nəzəriyyələr bu cür inteqrasiyaların qarşılıqlı asılılıq əsasında sabitlik gətirəcəyini iddia etsə də, 1950-ci illərin Avropası buna hazır deyildi.

“Pleven planı” həm də federalizmlə konfederalizm arasında seçim dilemmasını ortaya qoyurdu. Plan hərbi gücün üstqurum – Avropa Müdafiə Birliyi tərəfindən idarə olunmasını təklif edirdi ki, bu da faktiki olaraq dövlətlərin hərbi suverenliyindən imtina etməsi demək idi. Bu isə yalnız dərin siyasi birliyin – federal quruluşun mümkünlüyü şəraitində ola bilərdi. Lakin Avropa dövlətləri o dövrdə belə bir siyasi dərinliyə hazır deyildilər. Hətta Avropa İqtisadi Birliyinin qurulmasından illər əvvəl bu cür hərbi federasiya ideyası siyasi elita üçün utopik görünürdü. Hüquqi baxımdan müqavilə milli parlamentlər tərəfindən ratifikasiya edilməli idi. Fransa parlamentinin müqaviləni ratifikasiya etməməsi göstərdi ki, inteqrasiyanın hüquqi legitimliyi yalnız beynəlxalq səviyyədə deyil, eyni zamanda, daxili demokratik legitimliklə də bağlıdır. Daxili siyasi qüvvələrin, xüsusilə solçuların müqaviməti hüquqi prosesi tıxadı və nəticədə plan hüquqi qüvvə qazanmadı. Buradan aydın oldu ki, hərbi inteqrasiya üçün hüquqi mexanizmlər nə qədər zəruri olsa da, siyasi iradə olmadığı halda bu mexanizmlər işlək olmur.

“Pleven planı” reallıqla toqquşmuş, kağız üzərində yaradılmış, lakin siyasi iradə və ictimai dəstək tapmamış xəyaldır. Avropa öz müdafiəsini özü formalaşdırmaq istədi, amma bir daha sübut olundu ki, tarixdə hər bir böyük ideya reallaşmaq üçün yalnız vizyona deyil, həm də konsensusa, inama və cəsarətə ehtiyac duyur. 1954-cü ilin Fransasında bu üç amildən heç biri mövcud deyildi.

Avropa tarixində hərbi və təhlükəsizlik məsələlərində ABŞ ilə Aİ arasında yaranan münasibətlərin tarixi həm əməkdaşlıq, həm də ziddiyyətlərlə doludur. “Pleven planı”nın uğursuzluğundan sonra Avropa dövlətləri hərbi müstəqillik arzularından geri çəkilərək təhlükəsizliklərini Atlantik okeanının o tayına – Vaşinqtona etibar etdilər. NATO-nun varlığı Avropanın qoruyucu çətiri oldu. Amma bu asılılıq heç də siyasi rahatlıq yaratmadı, əksinə, uzunmüddətli



strateji dilemmanın əsasını qoydu: “Avropa müdafiəsini özü təmin etməlidir, yoxsa NATO-ya bel bağlamalıdır?”

NATO-nun Avropadakı rolu tarix boyu strateji sabitliyin əsas təminatçısı olub. Xüsusilə soyuq müharibə dövründə ABŞ-ın hərbi, iqtisadi və texnoloji gücü Avropaya SSRİ təhdidinə qarşı qalxan rolunu oynadı. Amma bu, eyni zamanda, asılılıq yaradan struktura çevrildi. Avropa dövlətləri öz hərbi imkanlarını genişləndirmək əvəzinə, daha çox sosial və iqtisadi rifah layihələrinə resurs ayırmağı üstün tutdular. Siyasi analitiklər bu vəziyyəti “təhlükəsizlik sərmayəsizliyi” kimi xarakterizə edirlər.

NATO və Aİ-nin münasibətləri güc balansı və struktur funksiyaları baxımından fərqlidir. NATO hərbi ittifaqdır və “əsas oyunçusu” ABŞ-dır; halbuki Aİ siyasi və iqtisadi birlikdir və daha çox konsensus əsasında işləyir. NATO-nun “iyerarxik” quruluşu ABŞ-ı lider kimi ön plana çıxarır, Aİ isə “horizontallıq” prinsipinə əsaslanır. Bu iki fərqli sistemin təhlükəsizlik sahəsində eyni məcrada fəaliyyət göstərməsi daim koordinasiya çətinlikləri yaradıb. ABŞ-ın iradəsi ilə formalaşan müdafiə qərarları bəzən Avropa dövlətlərinin milli maraqları ilə üst-üstə düşməyib.

Realist nəzəriyyə bu vəziyyəti belə izah edir: ABŞ və Avropa dövlətləri öz maraqlarını qorumaq üçün ittifaqlara girirlər, amma bu ittifaqlar dayanıqlı deyil və güc mərkəzinin dəyişməsi ilə zəifləyə bilər. İnstitusionalist nəzəriyyələr isə Aİ-NATO əməkdaşlığını uzunmüddətli sabitliyin təməli kimi görür. Lakin Aİ daxilindəki fikir ayrılıqları, milli orduların koordinasiyasının zəifliyi və strateji vizyonun parçalanması institusionalist gözləntiləri daim təxirə salıb. Beləliklə, Avropa müdafiəsi struktur və nəzəri baxımdan “yarımçıq layihə” olaraq qalıb.

Hüquqi cəhətdən NATO və Aİ-nin təhlükəsizlik mexanizmləri bir-birini tamamlasa da, aralarında tam inteqrasiya yoxdur. NATO-nun əsasını Vaşinqton müqaviləsi (1949) təşkil edir və burada kollektiv müdafiə prinsipi (Maddə 5) hüquqi cəhətdən təsbit olunub. Aİ isə 2009-cu ildə qüvvəyə minən Lissabon müqaviləsi ilə təhlükəsizlik və müdafiə sahəsində müəyyən addımlar atmağa başladı. Amma bu addımlar NATO-nun hüquqi çərçivəsini əvəz etmir, sadəcə, onu tamamlayır. Yəni, hüquqi baxımdan da Aİ-nin hərbi sahədə tam suveren aktora çevrilməsi üçün kifayət qədər mexanizm yoxdur.

Hazırda Avropa təhlükəsizliyi dilemma qarşısındadır: Ya Vaşinqtonun kölgəsində qalmaq, ya da öz müdafiəsini formalaşdırmaq. NATO ilə Aİ arasında paralellər qurulsa da, hərbi güc, strateji liderlik və siyasi birlik məsələlərində təzadlar dərinləşməkdədir. XXI əsrin ilk onilliklərində baş verən böhranlar – Ukrayna müharibəsi, Əfqanıstandan çıxış, Transatlantik münasibətlərin zəifləməsi – göstərdi ki, təhlükəsizlik yalnız razılaşmalarla deyil, siyasi iradə ilə də təmin olunur. O iradə isə olmadığından bu gün Aİ daxilində parçalanma əngəllənir.

ABŞ tarixində Donald Tramp Administrasiyası (2017–2021) Transatlantik münasibətlər üçün dönüş nöqtəsi oldu. Trampın prezidentliyi dövründə ABŞ ilə Aİ və NATO arasında gərginliklər artdı. Ənənəvi müttəfiqlik münasibətləri yerini qarşılıqlı inamsızlığa və bəzən açıq-aşkar ittihamlara verdi. ABŞ Prezidentinin "America First" (Öncə Amerika) şüarı Avropada ABŞ-ın qlobal təhlükəsizlik öhdəliklərinə olan sadiqliyinə dair ciddi suallar doğurdu.

D.Tramp Administrasiyasının NATO-ya yönəlik ritorikası açıq və sərt idi. Prezident Tramp Aİ ölkələrini, xüsusilə Almaniyanı müdafiə xərclərini artırmamaqda və ABŞ-dan “təhlükəsizlik almaqda” ittiham edirdi. ABŞ-ın NATO-dan çıxması ilə bağlı təhdidlər, müdafiə öhdəliklərini “şərtli” etməsi və bəzi görüşlərdə NATO-nu “köhnəlmiş qurum” adlandırması Avropa siyasi dairələrində ciddi narahatlıq yaratdı və bu ritorika illərdir formalaşmış strateji etimadın sarsılmasına səbəb oldu.

Trampın siyasəti Avropada “strateji muxtariyyət” anlayışını yenidən aktuallaşdırdı. Fransa prezidenti Emmanuel Makron bu kontekstdə Avropa ordusu ideyasını bir daha gündəmə gətirdi. Politoloji baxımdan bu təşəbbüslər Avropanın NATO-dan kənarda öz təhlükəsizlik sistemini qurmağa cəhd kimi dəyərləndirilir. Amma siyasi parçalanma, maliyyə imkanlarının qeyri-bərabərliyi və Aİ daxilində birgə təhlükəsizlik vizyonunun olmaması bu cəhdləri zəiflətdi.

Trampın siyasəti klassik realizmin təzahürü idi: beynəlxalq münasibətlər güc üzərində qurulur, ittifaqlar ancaq milli maraqlara xidmət etdikdə əhəmiyyətlidir və bu yanaşma liberal nəzəriyyənin çoxpilləli əməkdaşlıq, institutlar və qarşılıqlı asılılıq kimi dəyərlərini zəiflətdi. Aİ isə, əksinə, institusionalizm və normativ güc üzərində qurulmuşdu. Tramp dövrü bu iki nəzəri yanaşmanın praktik toqquşması kimi tarixə düşdü.

NATO-nun hüquqi dayağı olan Maddə 5 – yəni bir üzvə edilən hücumun hamıya qarşı hücum sayılması – Tramp dövründə sözlə təsdiqlənsə də, siyasi səviyyədə zəifləməyə məruz qaldı. Ağ ev Administrasiyası bu öhdəliyi bir növ “maliyyə müqabilində verilən xidmət” kimi təqdim etdi. Hüquqi baxımdan bu, NATO-nun kollektiv müdafiə prinsipinə zidd olmasa da, onun mənəvi-siyasi əsaslarını sarsıtdı. Müqavilənin hüquqi mətnində boşluq yox idi. Amma siyasi iradə zəiflədiyi üçün ittifaqın mənası kölgələndi.

2024-cü ildə Donald Trampın yenidən Prezident seçilməsi Transatlantik münasibətlərdə yeni, lakin daha qeyri-müəyyən bir mərhələnin başlanğıcı oldu. Avropa liderləri üçün bu nəticə bir “oyanış zəngi” oldu. Çünki bu dəfə ABŞ-ın dünya nizamına liderlik etmək istəyi azalmış görünürdü.

Trampın qayıdışı, xüsusilə Rusiya–Ukrayna müharibəsi fonunda baş verərkən Aİ ölkələrini daha sürətli qərarlar verməyə və öz təhlükəsizlik məsuliyyətlərini bölüşməyə vadar etdi. Lakin Aİ daxilində bu məsələyə yanaşmalar fərqlidir: Şərqi Avropa ölkələri ABŞ ilə sıx əlaqələri qorumaq tərəfdarıdır, Qərbi Avropa isə daha müstəqil mövqe axtarır. Almaniya və Fransa strateji avtonomiya ideyasını müdafiə edir, amma Polşa və Baltik ölkələri bu ideyanı real və effektiv saymırlar.

D.Trampın ikinci prezidentliyi ilə bərabər, bəzi analitiklər artıq “post-Atlantikçilik” dövründən danışmağa başlayıblar. Bu dövr ABŞ və Avropa arasında strateji məsafənin artdığı, əməkdaşlığın seçici və situativ xarakter daşıdığı bir mərhələdir. ABŞ-ın əsas diqqəti Çin və Sakit okean regionuna yönəlmişkən, Avropa öz regionunda təhlükəsizliyi təmin etməyə çalışır.

***Şəbnəm ZEYNALOVA,***
***XQ-nin siyasi analitiki,***
***siyasi elmlər üzrə fəlsəfə doktoru***

*Tarixi həqiqət işığında*

# Qayıdış: Zəngəzurun gerçək hekayəsi

**Zəngəzur – tarix boyu Azərbaycan torpağı olmuş, dövlətçilik ənənəmizin ayrılmaz parçası kimi formalaşmış ərazi – ötən əsrin əvvəllərindən siyasi gərginliklərin, coğrafi dəyişikliklərin və strateji oyunların mərkəzinə çevrilib. Vətən müharibəsində əldə etdiyimiz qələbə ilə bu torpağın – Zəngəzur dəhlizinin – bərpası üçün tarixi fürsət yaranmışdır. Lakin dəhlizin açılması müxtəlif bəhanələrlə gecikdirilir. Bu ləngimənin kökündə isə Zəngəzurla bağlı tarixi ədalətsizliklər və geosiyasi manipulyasiyalar dayanır.**

### Zəngəzur Azərbaycanın ayrılmaz hissəsi idi

Tarixi sənədlər sübut edir ki, Zəngəzur ötən əsrin əvvəllərində Azərbaycanın tərkib hissəsi olaraq beynəlxalq səviyyədə də qəbul edilirdi. 1919-cu il noyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyətinin Baş naziri Nəsib bəy Yusifbəyli Antanta qüvvələrinin nümayəndəsinə cavab olaraq bəyan edirdi: “Zəngəzur Azərbaycanın ayrılmaz hissəsidir. Bu, Antanta komandanlığı və ABŞ nümayəndəsi Haskel tərəfindən də təsdiqlənib.”

O, həmçinin Ermənistanın öhdəliklərinə əməl etmədiyini, əksinə, Zəngəzura qoşun yeridərək bölgədə qarşıdurmanı alovlandırdığını qeyd edirdi. Baş nazirin sözlərinə görə, Azərbaycan hökuməti 60 minə yaxın müsəlman qaçqının öz yurd-yuvasına qaytarılmasını və bölgədə sabitliyin bərpasını qarşısına məqsəd qoymuşdu.

Azərbaycan Xalq Cümhuriyyəti parlamentinin sədri Əlimərdan bəy Topçubaşov isə 1918-ci ildə İstanbulda Osmanlı rəsmilərinə bildirirdi ki, ermənilərin ortaya atdığı Qarabağ məsələsi yalnız bir neçə kəndlə deyil, bütöv dörd qəza – Şuşa, Cəbrayıl, Cavanşir və Zəngəzurla bağlıdır. O, ermənilərin bu ərazilərdə yerli əhali olmadığını, sonradan köçürülmüş olduqlarını vurğulayırdı.

### Tarixi təxribat və qanlı hadisələr

Azərbaycan hökuməti 1919-cu ildə bölgədə yaranmış gərginliyi nəzərə alaraq, Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını əhatə edən Qarabağ general-qubernatorluğu yaradaraq Xosrov bəy Sultanovu bu vəzifəyə təyin etdi. Ermənilər bu addıma etiraz etsələr də, hökumət onların iddialarını əsassız sayaraq öz hüquqlarını qorudu.

Lakin erməni-daşnak silahlı dəstələri bölgədə sülhə imkan vermədi. 1919–1920-ci illərin qışında Zəngəzurda baş verən qanlı hadisələr – dinc əhalinin qətlə yetirilməsi, kəndlərin dağıdılması Ermənistanın bu torpağı Azərbaycandan qoparmaq üçün atdığı amansız addımlardır.

### Stalin və “erməni pazı” planı

1920-ci il noyabrın 16-da İosif Stalin Vladiqafqazdan Leninə göndərdiyi məxfi teleqramda açıq şəkildə bildirirdi ki, Ermənistanı sovetləşdirməklə “erməni pazı” vasitəsilə Türkiyə ilə Azərbaycanın əlaqəsi kəsilməlidir. Stalin bölgədə üçtərəfli təhlükədən danışırdı: cənubdan İngiltərə, qərbdən Türkiyə, şimaldan Gürcüstan. Bu təhlükələrin qarşısını almaq üçün isə Ermənistanın geosiyasi “bastion”a çevrilməsi planlaşdırılırdı. Nəticə etibarilə, sovet imperiyası Zəngəzurun Ermənistana verilməsinə şərait yaratdı.

Erməni mətbuatı, o cümlədən “Aşxatavor” qəzeti də bu bəyanatın Moskvadan gəldiyini, Azərbaycanın zəif vəziyyətindən istifadə edildiyini və bu qərarın ermənilərin maraqlarına xidmət etdiyini açıq yazırdı.

### Prezident İlham Əliyevin Zəngəzura baxışı

Bu gün Qarabağ və Şərqi Zəngəzur işğaldan azad olunub və bərpa-quruculuq işləri sürətlə gedir. Prezident İlham Əliyev 2025-ci il yanvarın 7-də verdiyi müsahibədə bildirmişdi: “Həm Qarabağ, həm Şərqi Zəngəzur və eyni zamanda Naxçıvan Muxtar Respublikası vahid bir böyük məkana çevrilməlidir.”

Bu konsepsiya tarixi birliyin bərpası ilə yanaşı, iqtisadi və sosial sintezə də yönəlib. Prezident Qərbi Azərbaycana qayıdışın labüdlüyünü vurğulayaraq bu məsələdə dövlət dəstəyinin davam edəcəyini bəyan etmişdi.

### İqtisadi inteqrasiyanın qızıl halqası

2020-ci il 10 noyabr tarixli üçtərəfli Bəyanata əsasən, Ermənistan Azərbaycanla Naxçıvan arasında nəqliyyat əlaqəsini təmin etməyə razılaşıb. Bu, faktiki olaraq Zəngəzur dəhlizinin reallaşmasına yönəlmiş razılaşmadır.

Prezident İlham Əliyev bu dəhlizin yalnız region üçün deyil, beynəlxalq ticarət üçün də qlobal əhəmiyyət daşıdığını xüsusi vurğulamışdır. Onun sözlərinə görə, Zəngəzur dəhlizi artıq “dünyada qəbul edilmiş termindir”.

Bu dəhlizin reallaşması Orta Dəhlizlə birləşərək Çin–Avropa ticarətinin mühüm keçid nöqtəsinə çevriləcək. Süveyş kanalı ilə 20 min kilometr yol gedən yük gəmilərindən fərqli olaraq, Orta Dəhliz vasitəsilə 12 günə və 7 min kilometrə yüklərin çatdırılması mümkün olacaq. Bu da zaman və vəsaitə qənaət deməkdir.




Zəngəzur dəhlizi ildə 35 milyon ton yükün daşınmasına imkan verəcək. Bu, həm Azərbaycanın tranzit gəlirlərini artıracaq, həm də Naxçıvanın iqtisadi inteqrasiyasını təmin edəcək. Yerli istehsal, turizm, investisiya və ortaq layihələr üçün yeni imkanlar açılacaq.

### Sülhə aparan yolun adı – Zəngəzur dəhlizi

Zəngəzur dəhlizi təkcə iqtisadi deyil, həm də siyasi və sosial baxımdan regionun sabitliyi üçün önəmlidir. Dəhlizin açılması bölgədə təhlükəsizliyin möhkəmlənməsi, millətçi düşüncələrin zəifləməsi və yeni münaqişələrin qarşısının alınması deməkdir. Dayanıqlı iqtisadi inkişaf isə dayanıqlı sülhə aparan yoldur.

### Nəticə

Zəngəzur dəhlizi bir vaxtlar xəyanətlə əldən alınan, bu gün isə qətiyyətlə geri qaytarılan strateji bağlantıdır. O, həm Azərbaycanın dövlət iradəsinin simvoludur, həm də bölgədə yeni dövrün – sabitlik, əməkdaşlıq və rifah dövrünün təməlidir.

***Vaqif ƏLİ***

# Balasanyandan Ayvazyanadək

## Yaxud avantürizm naminə yalvarış və divara kəllə atmaq çağırışı

*(əvvəli 1-ci səhifədə)*

Əlbəttə, Balasanyanla Ayvazyanın müqayisəsi, daha doğrusu, eyni müstəviyə gətirilməsi qəribə gələ bilər. O anlamda ki, bu iki şəxs bir-birindən hər mənada fərqlənir. Balasanyan, böyük ölçüdə qatildir. Ayvazyan erməni intellektual kəsimini təmsil edir. Ancaq onları birləşdirən bir cəhət var ki, bu barədə yazımızın sonunda söz açacağıq.

*

Başlayaq ondan ki, V.Balasanyan Putinə Böyük Vətən müharibəsi ilə bağlı müraciətində Qarabağ ermənilərinin savaşdakı rolunu qabartmağa çalışmışdı. Vito ləqəbli bu parazit Rusiya liderinin BVM həssaslığından yararlanaraq Azərbaycanı həm sözügedən müharibənin irsini, həm də Qarabağın erməni mirasını məhv etməkdə günahlandırmağa çalışmışdır. O, Putindən kömək istəmiş, sözün həqiqi mənasında, Kreml rəhbərinə yalvarmışdı.



Balasanyan Rusiyanı yenidən erməni kartına üz tumağa səsləmiş, Kremlə biət etməyə hazır olduqlarını bildirmişdir. Amma Vitonun üzərində dayandığı daha vacib məqam var.

Məlumdur ki, haylar özlərini Cənubi Qafqazın, bütövlükdə Qafqazın ən köklü əhalisi kimi göstərir, bununla bağlı miflər uydururlar. Ən pisi isə odur ki, öz nağıllarına özləri də inanırlar. Əlbəttə, demək istəmirik ki, Balasanyan xəstəlikdən uzaqdır. Əslində, o, psixi xəstəliyi şizofren hala gəlmiş məxluqdur. Vitonun açıqladıqları onun şizofrenliyindən qaynaqlanmış instinktiv durumdur. Yəni, Ayvazyan qədər olmasa da, Balasanyan da təhlükəli xəstədir.

Əlqərəz, Xocalı cəlladı Rusiyanı yenidən Ermənistana sahib çıxmağa yönəlmiş çağırışında 1813-cü ilin Gülüstan və 1828-ci ilin Türkmənçay müqavilələrini yada salır. Xeyr, Vito Rus-İran müharibələrinin nəticələrini təsdiqləyən bu sazişlər barədə geniş söhbət açmır. Yalnız onların adlarını qeyd edir. Balasanyanın demək istədiyi budur ki, Rusiya erməniləri Cənubi Qafqaza gətirib. Gətirib ki, türk-müsəlman dünyası arasında xristian bufer zonası yaratsın və beləliklə Türk dünyasını parçalasın. Qərbin imperialist maraqları baxımından da sərfəli olan bu plan, əslində, erməni qövmünün regiondakı varlıq tarixini vurğulayır. Deməli, varlığın cəmi iki yüz il ömrü var. Belə qənaətə gəlirik ki, hayların özlərini bölgənin aborigeni kimi təqdim etmələri cəfəngiyyatdır. Əlbəttə, biz bu cəfəngiyyatdan xəbərdarıq, ancaq onu Balasanyanın diqqətə çatdırmasında məxsusilik var.

Heç şübhəsiz, həm Vito, həm də digər revanşist və şovinist xislətli faşistlər mənsub olduqları qövmün mahiyyətcə Rusiyaya xəyanət yolunda olduğunu yaxşı anlayırlar. 2018-ci ildə Nikol Paşinyanın Qərbpərəst komandasının hakimiyyətə gəlməsi İrəvanın Moskva ilə yollarını ayrıması demək idi və ötən müddətdə bu xəttin ən müxtəlif təzahürlərinə şahidlik etdik. Balasanyan isə Putindən belə bir nankorluğa görə, bir növ, üzr istəyir. Rusiyanın imperializm damarını tutduğunu zənn edib, müxtəlif fikirləri ilə sarı simlərə toxunur ki, Kreml Ermənistanla bağlı hərəkətə keçsin.

Bir məqamı da vurğulayaq ki, Rusiya rəhbərliyi 44 günlük müharibədən sonra Ermənistanı öz orbitinə qaytarmaq üçün çox çalışıb. Hər vəchlə göstərmək istəyib ki, Moskva olmasa, erməni avantürizmi üçün perspektiv yoxdur. Lakin Paşinyan administrasiyası mövcud məqamı vurğulayan subliminal çağırışlara məhəl qoymayıb. Nəticədə ard-arda diplomatik məğlubiyyətlər yaşanıb, hayların Qarabağ avantürasına son qoyulub. Yəni, bir daha sübut olunub ki, Rusiyasız Ermənistan heçdir. Amma məqsədimiz bu aydın həqiqəti vurğulamaq deyil. Məramımız Balasanyanın mənsub olduğu toplumu yolunu azmış kütlə kimi qələmə verdiyini diqqətə çatdırmaqdır.

Qeyd edək ki, ötən müddətdə rəsmi Moskva dəfələrlə həm 44 günlük müharibənin, həm də ondan sonrakı proseslərin Paşinyanın qeyri-adekvat yanaşmasının nəticəsi olduğunu bildirib. Hər halda, Rusiya rəhbərliyi diplomatik etikanı aşıb bütün məsələləri öz adı ilə açıqlaya bilməzdi. Həm Putin, həm də ölkənin digər aparıcı şəxsləri, sadəcə olaraq, Ermənistan rəhbərliyinin səhvi kimi dəyərləndirdikləri məqamlar barədə söz açıblar və fikirlərini təkrarlayırlar. Məsələn, onlar yenə də bildirirlər ki, Paşinyan Praqada Azərbaycanın Qarabağ da daxil olmaqla ərazi bütövlüyünü və suverenliyini tanımaqla bölgəyə qarşı heç bir iddia irəli sürmədiyini təsdiqlədi və bundan sonra Rusiya Ermənistana bütün kömək mexanizmlərindən məhrum duruma düşdü. Balasanyanın dediyi isə odur ki, özünün də nümayəndəsi olduğu hay toplumu anlaqsızdır, nə iş tutduğundan xəbərsizdir, Moskva bu topluma iki yüz il əvvəlkitək sahib çıxsın və yol göstərsin.

Qeyd edək ki, iki yüz əvvəl hər şeyi həll edən imperiya təfəkkürü, başqa sözlə desək, açıq hərbə-zorbalıq idi. Amma o zamandan xeyli müddət keçib. Ermənistan iki dəfə müstəqilliyini əldə edib. Yəni, müstəqil dövlət adlanıb. Əslində, Rusiya da ətrafa münasibət formalarına, klassik imperialist yanaşma tərzinə korrektələr edib, siyasi oyun qaydalarını müasir dünyanın şərtlərinə uyğunlaşdırıb. Balasanyanın rəzil və miskin yalvarışı isə o deməkdir ki, erməni varlığı üçün ən yaxşısı iki yüz əvvəl başlamış və xeyli davam etmiş mütilik və köləlik yoludur. Vito köləliyi və mütiliyi o qədər arzulayır ki, ermənilərin qədim yerli xalq nağıllarını kənara qoyur. Deməli, Balasanyanın Rusiyasız Ermənistanın heç olmasına dair izhar etdiyi məntiq onun xəstəliyindəki pozitiv dəyişikliyin nəticəsi sayıla bilməz. Əksinə, bu məxluq, belə demək mümkünsə, düşüncə kataklizmi, hətta deqredasiyası yaşayır. Çünki normal düzən tapa bilmir, indiki halda Azərbaycanla sülh şəraitində keçinməyi düşünmür. Vitonun "arzularını çin edəcək qüvvə" isə Rusiyadır.

*

Əlbəttə, Ermənistanın keçmiş XİN rəhbəri A.Ayvazyan məqaləsində Rusiyanın adını çəkmir. Yəni, bu mənada Balasanyanı ondan daha realist adlandırmaq mümkündür. Ancaq Ayvazyanı Vitodan təhlükəli edən bir cəhət var. O bildirir ki, insanlıq tarixi boyunca müharibə həmişə dünyada nizamın yaranmasında, beynəlxalq münasibətlərin inkişafında, dövlətlərin meydana gəlməsi, möhkəmlənməsi və ya süqutunda, eləcə də xalqların taleyinin dəyişməsində əsas hərəkətverici qüvvə olub. Bu səbəbdən müxtəlif dövrlərin böyük düşüncə sahiblərinin dövlətlər tərəfindən təşkil olunan zorakılığın təbiətini və qanunauyğunluqlarını anlamağa və bu vacib fenomenin mahiyyətini gələcək nəsillərə çatdırmağa çalışması tamamilə təbiidir.

Ayvazyan fikrini əsaslandırmaq üçün Makiavellidən tutmuş, Kissincerədək bir çox görkəmli şəxsiyyətlərin savaşın dəyişməz və eyni zamanda, daim dəyişən təbiətinə işıq salan dəyərli irs qoyub getdiklərini vurğulayıb, nəhayət, qədim yunan filosofu Fukiditin baxışlarının üzərində dayanıb, onun "Peloponnes müharibəsinin tarixi" əsərinə dair verdiyi xarakteristikadan söz açıb. Erməni keçmiş XİN rəhbərinin gəldiyi qənaət budur ki, Peloponnes müharibəsi dövrü və Afinanın varlığına son qoyulması təkcə spartalıların gücü yox, eyni zamanda, afinalıların onların tələblərini yerinə yetirməsinin nəticəsi idi: "Bəs 2500 il əvvəl baş vermiş Peloponnes müharibəsi ilə bu günün reallığı arasında hansı ortaq cəhət var? Müharibədən əvvəlki, yəni e.ə. 432-ci ildə keçirilən danışıqlarda spartalılar afinalılara ultimatum verərək bildirmişdilər ki, münaqişəni həll etməyin yeganə yolu Afinanı əhatə edən divarların sökülməsidir: "Bu müdafiə mexanizmlərini aradan qaldırın və beləliklə, hər ikimiz özümüzü daha təhlükəsiz hiss edəcəyik". Nəticədə 30 illik müharibənin sonunda Afina barışıq istəməyə və onu hücumlardan qoruyan uca divarları sökməyə məcbur oldu. Bu isə onun gücünün tam məhvi ilə nəticələndi".

Qeyd edək ki, A.Ayvazyanın məqaləsinin bu sitatdan sonrakı yarımbaşlığı "Ermənistanın dağılan divarları" adlanır. Deməli, keçmiş XİN rəhbərinin nə demək istədiyi aydındır. "Rəqiblərimiz daim bizə ultimatumlar verərək, "divarlarımızın" – yəni təminatçılarımızın – sökülməsini tələb edirlər. Necə ki, e.ə. 404-cü ildə Afina öz müdafiəsini zəiflətmişdi, eləcə də 2020-ci ildən sonra barışıq üçün yalvaran İrəvan müdafiə sədlərini bir-bir sökür. "Bir az geri çəkilmə" tezisləri əvvəlcə Artsaxdan başladı və son nəticədə soyqırımı və yeni təcavüz nəticəsində vətənimizin boşaldılması ilə sonlandı. Artsaxın – Ermənistanın qalxanının – itirilməsindən sonra növbəti mərhələ sərhəd "divarlarımızın" sökülməsi olacaq və bunun ardınca Silahlı Qüvvələrimizin də "bir az geri çəkilmə" məntiqi ilə funksional transformasiyası baş verəcək", - deyən keçmiş XİN rəhbərinin təsvir etdiyi nəticədə məntiq var. Çünki Ermənistan 2020-ci ildən indiyədək mövqelərini itirir. Elə isə əvvəldə anons etdiyimiz məqama keçid alaq.

Bəli, Ayvazyan da Balasanyan kimi reallıq kazusunu gündəmə gətirir. Hətta reallığa müqavimət yüklü tədbirlər nöqteyi-nəzərindən baxış bucaqları fərqli olsa da, onları birləşdirən ümumi cəhət var. Həm cəllad Balasanyan, həm də diplomat Ayvazyan, mahiyyətcə, erməni avantürizmi üçün direnişin tərəfdarıdırlar. İkinci daha qəddar görünür, çünki müharibəni ilahi hadisə kimi təqdim edib insan tələfatlarını xalqların yenilənməsi üçün vasitə sayır.

Ayvazyanın yazdıqlarından belə rəyə gəlmək olar ki, o, 2020-ci ilin 44 günlük müharibəsinin sonuncu erməni qırılanadək davam etməsinin tərəfdarı olub. Tülkü xislətli Balasanyanın yanaşmasına görə isə azərbaycanlılara qarşı müharibəni ruslar aparmalıdırlar. Yəni, Vito daha praktikdir. Çünki Birinci Qarabağ müharibəsini görüb. Pskov desantlarının Azərbaycanın təcrübəsiz və zəif təmin və təşkil olunmuş könüllü özünümüdafiə taborlarını necə əzdiklərinə və erməni hərbi birləşmələrini irəli apardıqlarına şahidlik edib. Balasanyanın Putinə yalvarış və biət dolu məktubunda yer almış "keçmiş vaxtlardakı kimi" ifadəsində bu məxluqun yarımçıq tarixi bilikləri ilə yanaşı, daha çox sözügedən şahidliyinin payı var. Yəni, it yenidən arabanın kölgəsindən yatmaq eşqinə düşüb.

Əlbəttə, demək olmaz ki, Ayvazyan erməni xalqı üçün kamikadzelik uydurur. Hazırda keçmiş XİN rəhbəri dava meydanında ağzı-burnu dağılmış, düşdüyü çətin durumdan çıxandan sonra onu əzişdirmiş həmyaşıdını söyən uşağa bənzəyir. Ayvazyan, heç narahat olmasın, çünki Paşinyan hakimiyyətinin Ermənistani gətirdiyi vəziyyət elə həmin uşağın durumu ilə eynidir.

Digər yandan nəzərə alaq ki, keçmiş XİN rəhbəri urapatriot təbiətli deyil. Heç şübhəsiz, ağlında Ermənistanın, özünün təbirincə desək, divarlarını qoruyacaq qüvvəyə dair variantı var. Hər bir halda, başını yormasın. Çünki Nikol 2020-ci ildən bəri variantları bir-biri istifadə etməkdədir və bütün cəhdləri uğursuz olub. Ona görə, obrazlı desək, ağzı-burnu əzilsə də, Azərbaycanın mövqeyi ilə razılaşır. Hardan baxsan, erməni primitiv çapında azm-maz real düşünən yenə Balasanyandır. Dahi Çörçill də deyirdi ki əlləri təmiz saxlamağın ən yaxşı yolu, başqa əllərlə iş görməkdir. Hərçənd, Vitonun əli təmiz deyil, qana batıb.

Sonda gəldiyimiz nəticə budur ki, balasanyanlar, paşinyanlar, ayvazyanlar, eləcə də başqa iri yanlar, Ermənistanın qonşusu Azərbaycanla normal keçinməsinin, sivil münasibətlər saxlamasının tərəfdarı deyillər. Onların hər biri erməni avantürizminin davamını istəyir. O avantürizm ki, bir vaxtlar xeyir gətirmişdisə, hazırda, daha doğrusu, 2020-ci ildən sonra ancaq ziyan verməkdədir. İrəvanın Bakı ilə sülhə gəlmədiyi hər ötən gün ziyanın miqyası bir qədər də böyüyür. Miqyasın böyüməsi isə Ermənistanın kiçilməsi deməkdir. Bir toplum ki, dövlətinə malik xalq olmağı deyil, ambisiyalar güdür, qlobal maraqlar naminə alətə çevrilməyi seçib hansısa dividend götürmək barədə fikirləşir, deməli, qövm və tayfa olmağa üstünlük verir.

***Ə.CAHANGİROĞLU***
***XQ***

Köşə

## Nifrətin fəlakəti və lənət qazanan aqibəti



**İmran BƏDİRXANLI,**
**imranbedirxanli01@gmail.com**

**...Böyük və kiçik cinayətlərin, fərdi və bəşəri günahların yaranmasının, törədilməsinin səbəb-motiv anatomiyasının kökündə nifrətin dayandığını söyləyə bilərik. Düşüncədəkinin əmələ çevrilməsinin, niyyətdən konkret hərəkətə keçilməsinin yönəldici katalizatoru rolunda nifrətin çıxış etməsi mütləq şəkildə ağır fəsadlara, faciələrə gətirib çıxarır. Belə cinayətlərin cəzası da ağır olur.**

Sülh və bəşəriyyət əleyhinə cinayətlər, terrorizm və çoxsaylı digər əməllərdə təqsirləndirilən Ermənistan vətəndaşlarının məhkəmə prosesində deyilənlərə, göstərilənlərə baxanda, istər-istəməz, vaxtilə baş verənlərin nüvəsində məhz hayların türklərə olan nifrətinin gizləndiyi qənaətinə gəlirik. Bu, Ermənistan hakimiyyətinin son 30 ildə keçdiyi "nifrət yolunu müşayiət edən" əyani sübutlara söykənir. Məhkəmədə 1992-ci ildə Şuşanın işğalının əsl mahiyyətinə işıq salan videogörüntülər nümayiş etdirilib. Videomaterialdakı bir məqamı ayrıca qeyd etmək istərdik.

...Hayların danışıqlarından anlaşılır ki, Şuşanı ələ keçirməkdə məqsəd, sadəcə olaraq, onu nəzarətə götürmək yox, bu şəhəri "həşəratlardan" təmizləməkdir. Erməni yaraqlısı fikrini məhz belə ifadə edir. Bu dəhşətli sözlər təcavüzkarın nifrətə köklənən qeyri-insani təbiətini, niyyətini ortaya qoymaqla, kütləvi qətlin hüquqi baxımdan soyqırımı kimi qiymətləndirilməsini təsdiqləyir. Bu fakt bizə heç də təəccüblü gəlmədi. Ərazilərimizin işğalı Ermənistan dövləti tərəfindən həyata keçirilib və bu akt onun nifrəti qızışdırması, etnik təmizləmə siyasəti ilə müşayiət olunub. Yəni, nifrət təbliğatı nəinki rəsmi səviyyədə aparılıb, rəsmi İrəvan tərəfindən tanınıb. Ermənistanın rəsmi təbliğatı hayların gözündə azərbaycanlıların düşmən obrazını yaratdı ki, bununla "düşmənin" fiziki məhv edilməsi planlarına haqq qazandırıldı. Hay şovinizminin daşıyıcıları olan dövlət xadimləri, ideoloqlar "azərbaycanlılarla ermənilərin birgə yaşayışının mümkünsüzlüyünü" bəyan etməklə, bundan qorxduqlarını açıq şəkildə bildirdilər.

...1993-cü il iyulun 23-də Ermənistanın birinci prezidenti Levon Ter-Petrosyan Ağdam şəhərinin işğalı ilə bağlı "Yerkrapa" terror təşkilatının üzvləri qarşısında çıxışında azərbaycanlıların Ermənistandan qovulmasına sevindiyini bildirib. Bu etiraf, keçmiş Yuqoslaviyada müharibə canilərinin məhkəməsində olduğu kimi, beynəlxalq hüquqda vacib sübut kimi qəbul edilməlidir. Daha sonra ikinci prezident Robert Köçəryanın təqdim etdiyi "etnik uyğunsuzluq" tezisi azərbaycanlılara qarşı hay təfəkküründəki nifrətin dərinliyini göstərmiş oldu. Onun sözləri Ermənistanın dövlət səviyyəsində millətlərarası nifrəti qızışdırmasının açıq etirafı idi. Üçüncü prezident Serj Sarkisyanın britaniyalı jurnalist Tomas de Vaala müsahibəsində Xocalı soyqırımı ilə bağlı dedikləri, ermənilərin hədə-qorxu ilə dinc azərbaycanlılara qarşı kütləvi qırğın törətdiyini etiraf etməsi də bu mənada əhəmiyyətli deyil. Bu, müstəqil Ermənistanın ilk üç prezidentinin – Ter-Petrosyan, Köçəryan və Sarkisyanın nifrətə bələnmiş etnik düşmənçilik siyasətinin təbliği və təşkilində fəal iştirak etdiklərini bir daha sübuta yetirir.

...Əgər nifrət İrəvanın siyasətinin əsas hərəkətverici qüvvəsinə çevrilməsəydi, Ermənistan ordusu Azərbaycanın şəhər və kəndlərini işğal edərkən qeyri-insani rəftara, vandallığa yol verməzdi. XX əsr soyqırımlarının tarixi – Ruandada, Srebrenitsada – kütləvi qətllərin katalizatoru kimi dövlətin nifrət təbliğatını göstərir. Torpaqlarımızın işğalı və azərbaycanlılara qarşı törədilən soyqırımı aktları eyni zəncirin halqalarıdır. Bu gün Bakı Hərbi Məhkəməsində nümayiş etdirilənlər Azərbaycan xalqına qarşı törədilmiş ən ağır cinayətlərin motivini və həqiqətləri gün işığına çıxarır. Bu əyani sübutlar cinayət işinin cildlərində qalmamalı, Ermənistanın Azərbaycana qarşı təcavüzü, etnik təmizləmə və soyqırımı aktlarına layiqli qiymət verməyə borclu olan beynəlxalq hüquq və ictimaiyyət tərəfindən baxılmalı, eşidilməlidir. Onda dünya baş verənlərin həqiqi üzünü görəcək, mahiyyətini anlayacaq.

...Təəssüflər olsun ki, erməni gəncliyinin beyni ailədən, bağcadan türkə nifrət "tiryəki" ilə dumanlandırılır. Bu infeksion duman yayılaraq "milli epidemiyaya" səbəb olanda isə hayların həyatlarının bütün sahələrində, o cümlədən diplomatiyada da özünü əcaib formalarda göstərməyə başlayır. İllər uzunu deyil, əsrlərlə aparılan bu zərərli ideoloji təbliğat, "nifrət himni"nin sədaları erməni cəmiyyətinin sümüyünə, iliyinə işləyib. İliyə daxil olan virusdan xilas olmaq isə çox çətin, özünün dördüncü mərhələsinə çatmış xərçəng xəstəliyi kimi, mümkünsüz olur. Əslində, belə görünür ki, ermənilərin bu mərəzdən sağalmaq şansı və niyyəti yoxdur.

# Postmünaqişə mərhələsində uğurlu liderlik



## V məqalə

### *Yeni tarixi mərhələdə siyasi varislik*

Siyasi transformasiya siyasi təcrübənin – Azərbaycan siyasi mədəniyyəti kontekstində öncəki nəsillərin təcrübəsinin davamı, yeni siyasi nəsil üçün həmin təcrübənin hazır fəaliyyət şərtləri və qaydaları nümunəsi və Prezident İlham Əliyevin siyasi təcrübəsinin yeni siyasi dəyərlər və normalar yaradan uğurlu fəaliyyət kimi prinsiplərinin, sintezində nəinki politoloji, həm də fəlsəfi səviyyədə vacib yenilik kimi görünür. Onun üç əlamətini vurğulaya bilərik.

Birincisi, yeni tarixi mərhələyə Azərbaycan siyasəti yeni siyasi mədəniyyətin formalaşması prosesi çərçivəsində başlayır. Bu, keyfiyyətcə öncəki mərhələlərdən fərqli siyasi münasibətlər mədəniyyətinin artıq yarandığının təsbitidir. Belə bir transformasiyanı öncəki nəsillərin siyasi təcrübəsinin davamı olaraq qəbul etmək gərəkdir. Xüsusilə, ulu öndər Heydər Əliyevin keçən əsrin 69-cu ilindən başlayaraq 2003-cü ilə qədər olan müddətdə siyasi təcrübəsinin Prezident İlham Əliyev tərəfindən yaradıcı inkişaf etdirilməsinin gözəl nümunəsidir.

İkincisi, ölkədə olan bütün siyasi qüvvələr həmin transformasiyanı qəbul etmişdir ki, bu faktor da Azərbaycan siyasi mühitinin mədəniyyət aspektində yeni mərhələyə qədəm qoyduğunun göstəricisidir. Həmin prosesin konkret təzahürü də vardır. O, üçüncü əlaməti təşkil edir.

Üçüncüsü, yeni tarixi mərhələdə Azərbaycan siyasi mühiti növbəti dönəmdə başlıca perspektivli siyasi təcrübə xəttinin Prezident İlham Əliyev təcrübəsini inkişaf etdirməkdən ibarət olduğunu tam qəbul etmiş durumdadır.

### Siyasi normaların proyeksiyaları

Vurğuladığımız son üç əlamət faktiki olaraq yeni tarixi mərhələdə Azərbaycanda siyasi normaların əsas məğzini ifadə edir. Politoloji aspektdə onun başlıca xüsusiyyətləri nələrdən ibarətdir?

Yeni siyasi normaların mərkəzində bütün siyasi qüvvələrin Azərbaycan dövlətçiliyi ideyası ətrafında birləşməsi zərurəti dayanır. Həmin normaya müasir müstəqil Azərbaycan dövləti ilk dəfə nail olur. Keçən əsrin 90-cı illərindən onun təməlini ulu öndər Heydər Əliyev qoymuşdur. Ümummilli lider üçün bu məsələ ilk növbədə azərbaycanlıların həmrəyliyinin və xalq – iqtidar birliyinin milli ideyanın həyata keçməsi istiqamətində inkişaf etdirilməsi xəttini seçməsi ilə əlaqəli idi. Onun ideoloji bazasını azərbaycançılıqla multikulturalizm təşkil etməli idi. Artıq 2003-cü ildə siyasi normaların Ulu öndərin hazırladığı xətt üzrə formalaşması prosesi özünün dayanıqlı və davamlı formasına çatmışdı.

Bu barədə Prezident İlham Əliyev Azərbaycanın dövlət quruculuğunda 2003-cü ildə nail olduğu iki əlaməti xarakterizə edərkən bəhs etmişdir. Prezident İlham Əliyev 2003-cü ildə artıq Azərbaycanda dövlətçilik prinsiplərinin tam oturuşduğunu, yəni əsas inkişaf istiqamətlərinin dəqiqləşdiyini və ölkədə vətəndaş cəmiyyətinin formalaşdığını ayrıca vurğulamasında əksini tapmışdır. Müasir fəlsəfi və politoloji araşdırmalarla tanışlığı olan hər kəs bilir ki, bu prosesdə əsas faktorlar sırasında siyasi normaların özünütəsdiqi ayrıca yer tutur. Azərbaycan Prezidentinin siyasi həqiqətləri yığcam ifadə etmək məharəti bu məqamda da özünü aydın göstərməkdədir.

Azərbaycanda 2003-cü ildən başlayaraq 2020-ci ilə qədər siyasi mədəniyyət kontekstində siyasi normaların təkamülünün digər aspekti dövlət başçısı və xalqın liderinin daxili mühitdə formalaşan yeni siyasi münasibətlər normalarını uğurla öncə regional, sonra isə regionlararası miqyasa proyeksiya etməsi ilə bağlıdır. Məsələnin bu tərəfinin fəlsəfi və politoloji dərki, əlbəttə, daha mürəkkəbdir, bir qəzet məqaləsinin təqdimat və ideya məqsədlərini aşır. Lakin bir başlıca xüsusiyyəti vurğulamağa ehtiyac görürük.

Daxili siyasi normaların regional və regionlararası miqyaslara proyeksiyasında başlıca rolu liderin siyasi-diplomatik məharəti oynayır. Burada əsas məqam ondan ibarətdir ki, ölkənin daxili mühitinin birbaşa "məhsulu" olan siyasi norma kimi vacib faktorun bir dövlətin eqoist məqsədi kimi qəbul edilməməsinə nail olmaqla bağlıdır. Bu isə özlüyündə siyasi normaların proyeksiyasını dövlət identikliyi kontekstində təqdim etmək qüdrətini daha da aktuallaşdırır.

Prezident İlham Əliyev XXI əsrin sürətlə dəyişən geosiyasi dinamikasında yaradıcı fəaliyyəti ilə regional və regionlararası miqyaslarda siyasi normaların yeniləşməsinə nail olmuşdur. Onun başlıca təzahürü 2020-ci ildə Azərbaycanın Vətən müharibəsinə heç bir regional dövlətin ciddi qarşı çıxmamasında, faktiki olaraq regionlararası miqyasda isə Bakını daha çox dövlətlərin dəstəkləməsində özünü göstərmişdir. Ayrıca, Türk Dövlətləri Təşkilatı (TDT), MDB, Qoşulmama Hərəkatı və bir sıra digər təşkilatlar Azərbaycanı tam dəstəkləmişlər. Yalnız Avropa İttifaqının məhdud sayda dövləti ermənipərəstlikləri sayəsində əngəl olmağa çalışmışdır.

2020-ci ildə əldə edilən bu nəticə adi siyasi hadisə deyildir. Həm də ona görə ki, indi analitiklər, ekspertlər və diplomatlar Azərbaycanın II Dünya müharibəsindən sonra ərazi bütövlüyünü təkbaşına həll edən və əldə etdiyi nailiyyəti qalıcı faktora çevirən yeganə dövlət olduğunu vurğulayırlar. Şübhə yoxdur ki, bu səviyyədə dəstək əldə etmək dövlət identikliyinin beynəlxalq aləmdə qəbul edilməsi ilə bağlıdır. Onun tərkibində Azərbaycanın beynəlxalq miqyasda özünə münasibətdə yeni siyasi normaları uğurla qəbul etdirməsi xüsusi yer tutur.

### Siyasi təcrübə geosiyasi kontekstdə

Nəzəri olaraq, problemin bu tərəfi də olduqca əhəmiyyətlidir. Faktiki olaraq, söhbət postmünaqişə mərhələsində regional, regionlararası missiyalarla yanaşı, qlobal səviyyədə cərəyan edən geosiyasi proseslərin təlatümləri şəraitində uğurlu siyasi təcrübənin formalaşmasını davam etdirməkdən gedir. Təhlil göstərir ki, Prezident İlham Əliyev vurğulanan aspektdə sistemli və dərin məntiqi düşünülmüş fəaliyyət kursu yaratmışdır. Onun fəlsəfi və politoloji mənası geniş və dərindir. Görünür, hələ uzun müddət bu istiqamətdə araşdırmalar aparılacaqdır. Bu gün üçün isə bir sıra mühüm özəllikləri vurğulamaq olar.

Postmünaqişə mərhələsində Azərbaycan dövlət başçısının siyasi təcrübəsinin ümumi xüsusiyyəti regionda yeni müharibənin meydana çıxması ehtimalının minimuma endirilməsi ilə bağlıdır. Bu, əlbəttə, asan məsələ deyil. Onun təməlində isə əksər tanınmış analitikin də vurğuladığı kimi, Azərbaycan Prezidentinin Ermənistanla münaqişəni elə həll etməsidir ki, bir daha müharibənin yaranması ehtimalı olmasın.

II Dünya müharibəsindən sonra Avrasiya məkanında dövlətlərarası münaqişələrin bir daha müharibənin alovlanmaması şərti ilə sona çatmasının başqa nümunəsi mövcud deyildir. Bunu mütəxəssislər əhəmiyyətli siyasi təcrübə hesab edirlər. Həm də ona görə ki, Azərbaycan Prezidentinin bu uğurunun Cənubi Qafqazda ümumilikdə dövlətlərarası münasibətlərin sülhə yönəlməsini stimullaşdıran başlıca faktor olduğu bütövlükdə qəbul edilir.

İlham Əliyevin postmünaqişə mərhələsində siyasi təcrübəsinin digər vacib əlaməti Azərbaycanı dövlət kimi regional miqyasda aparıcılıq statusundan regionlararası geosiyasi məkanda mühüm güc səviyyəsinə yüksəltməsi ilə əlaqəlidir. Bu təcrübə hamımızın gözləri önündə uzaq Çindən tutmuş Suriya və İsrailə, eyni zamanda, Pakistandan tutmuş Avropaya qədər geniş bir geosiyasi məkanda konkret məzmun almaqdadır. Bəli, biz həmin təcrübənin canlı şahidləriyik. Yalnız bir neçə faktı vurğulayaq.

### Türk birliyinin daşıyıcısı

Azərbaycan türk birliyinin reallaşmasının əsas daşıyıcı qüvvəsidir. Prezident İlham Əliyev yeni tarixi mərhələdə dövlətin xarici siyasətinin 12-ci istiqamətini TDT-nin gücləndirilməsi ilə bağlamışdır. Bu prioritet istiqamətə tam sadiqlik və praktiki fəaliyyət sahəsində təşəbbüskarlıq Azərbaycan liderinin hər addımında əksini tapmışdır. Son zamanlar, Kipr türkləri ilə bağlı meydana gəlmiş müəyyən suallar zamanı da Azərbaycanın dövlət başçısı türk birliyi istiqamətində siyasi təcrübənin yeni nümunəsini formalaşdırdığını fəaliyyəti ilə sübut etdi.

Regionlararası miqyasda barış və əməkdaşlığı təmin edən güc kimi Azərbaycan Prezidentinin fəaliyyəti yeni siyasi təcrübənin parametrlərindən biridir.

### Regionlararası sülh və təhlükəsizlik aspekti

Əhəmiyyətlidir ki, bu aspekt bir neçə regionu əhatə edən və multivektoral xarakter daşıyan təcrübəni ortaya qoyur. Azərbaycan indi Uzaq Şərq, Mərkəzi Asiya, Yaxın Şərq və Şərqi Avropa istiqamətlərində aktiv siyasi-diplomatik dinamikanın "qovuşma sahəsi"nə çevrilmişdir. Çinə olan səfərdə rəsmi Pekin Avropaya qədər məkanda Azərbaycanla sıx əməkdaşlıqda marağını açıq ifadə etmişdir. Rəsmi bəyanatda bu məqam öz əksini tapmışdır. Bundan az əvvəl Almaniya Prezidentinin Azərbaycan səfəri yadda qalmışdır. Onunla təqribən, eyni zamanda, Aİ-nin yüksək səviyyəli rəsmilərinin Mərkəzi Asiyada keçirilən sammitdə iştirakları və ona Azərbaycanın reaksiyası diqqətlərdən yayınmır.

Həmin hadisələrin fonunda Gürcüstan və İran prezidentlərinin Azərbaycana səfərləri vacib hadisələrdir. May ayında İsrailin Baş naziri və Türkiyə Prezidentinin Azərbaycan səfərlərinin təşkil ediləcəyi gözlənilir.

Bunların fonunda Azərbaycanın Suriya məsələsinin tam həll olunmasında və Rusiya–Ukrayna münaqişəsinin həllinə yaxından dəstək verməsi çox ciddi siyasi təcrübənin əlamətləridir. Hətta Bakının ABŞ – Rusiya müzakirələrinə ev sahibliyi edə bilməsi ehtimalından bəhs edilir.

Bütün bunlar Azərbaycan rəhbərinin regionlararası miqyasda siyasi təcrübəni yaratdığını və bu istiqamətdə ciddi uğurlar əldə etdiyini sübut edir. Bu təcrübənin bütövlükdə Avrasiya məkanı üçün bir yenilik olduğuna şübhəmiz yoxdur. Çox qısa zamanda bu barədə dünyanın aparıcı filosof, politoloq və siyasi xadimlərinin danışacağına əminliyimiz vardır. Bizim üçün isə o mərhələnin Prezident İlham Əliyevin yeni siyasi təcrübə yaratmaq prosesinin növbəti mərhələsi kimi əhəmiyyətli və vacib tədqiqat predmeti keyfiyyətində araşdırılması zərurətinin meydana çıxması anlamı daşıyacaqdır. Prezidentin uğurları bol, yolu isə uzundur!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Revanşistlərin "impiçment" azarı

**Ermənistanda İkinci Qarabağ müharibəsinin nəticələri ilə barışmaq istəməyən revanşist qüvvələr Nikol Paşinyanın devrilməsinə kütləvi aksiyalar vasitəsilə nail ola bilmədiklərini başa düşdükləri üçün yeni üsula əl atmaq qərarına gəliblər.**

Bu dəfə onlar digər ölkələrdə çoxdan sınanmış üsulla – parlamentdə impiçment yolu ilə məqsədlərinə nail olmaq istəyirlər. Bu məqsədlə ictimai fəallar Narek Malyan və Edqar Kazaryan önə çıxıblar. Onlar parlamentin hər bir deputatına Paşinyanın istefası prosesini başlatmaq çağırışı ilə məktub göndəriblər.

Ermənistanda İkinci Qarabağ müharibəsinin nəticələri ilə barışmaq istəməyən revanşist qüvvələr Nikol Paşinyanın devrilməsinə kütləvi aksiyalar vasitəsilə nail ola bilmədiklərini başa düşdükləri üçün yeni üsula əl atmaq qərarına gəliblər. Bu dəfə onlar digər ölkələrdə çoxdan sınanmış üsulla – parlamentdə impiçment yolu ilə məqsədlərinə nail olmaq istəyirlər. Bu məqsədlə ictimai fəallar Narek Malyan və Edqar Kazaryan önə çıxıblar. Onlar parlamentin hər bir deputatına Paşinyanın istefası prosesini başlatmaq çağırışı ilə məktub göndəriblər.

Qeyd edək ki, N.Malyan yazıçı, ictimai fəal və piar üzrə ixtisaslaşmış mütəxəssisdir. O, 2019-cu ildə "Veto" adlı vətəndaş hərəkatını təsis edib. Hərəkat, Corc Sorosun "Açıq Cəmiyyət Fondu"nun Ermənistandakı təsirinə qarşı mübarizə aparmağa yönəlmişdi. Malyan 2023-cü ilin sentyabrında "Artsaxı xilas etmək" çağırışı ilə keçirilən aksiyada iştirak etdikdən sonra saxlanılıb və "zorakılığa çağırış" ittihamı ilə bir il müddətinə həbs olunub. 2024-cü ilin sentyabrında azadlığa çıxıb.



E.Kazaryan isə ictimai-siyasi xadim, sabiq diplomat və müxalifət funksioneridir. O, 2018-ci ildən etibarən Paşinyan hökumətinin siyasətini sərt şəkildə tənqid edir və "Müstəqillik hərəkatı"nın rəhbəri kimi tanınır. Kazaryan vaxtilə Polşada fövqəladə və səlahiyyətli səfir vəzifəsində çalışıb. Həmçinin, Dərələyəz (Vayoçdzor) vilayətinin qubernatoru işləyib. Kazaryan N.Paşinyan hökumətinin daxili və xarici siyasətini sərt şəkildə tənqid edir. 2022-ci ilin avqustunda İrəvanda keçirilən mitinqdə Paşinyanın istefasını tələb edib. O, hökumətə qarşı mübarizəni davam etdirəcəyini dəfələrlə vurğulayıb. Kazaryan baş nazir Paşinyanı "xalqın iradəsini pozmaqda" ittiham edir və ölkənin müstəqilliyini qorumaq üçün mübarizənin vacibliyini bildirir.

Qeyd etdiyimiz kimi, ictimai fəallar deputatlara impiçment proseduruna başlanması barədə məktubla müraciət ediblər. Çağırışa ilk olaraq radikal revanşist kəsimin əsas qüvvəsinin cəmləşdiyi parlamentdəki "Ermənistan" fraksiyası səs verib. Onlar sanki himə bənd imişlər. Fraksiya impiçment prosesinin başlanması üçün 28 deputatın imzasını təqdim etməyə hazır olduğunu təsdiqləyib. Qurumun bununla bağlı yaydığı bəyanatda deyilir: "Ermənistan" fraksiyası Nikol Paşinyanın hakimiyyətdən kənarlaşdırılması üçün istənilən mümkün mexanizmdən istifadə edilməsinin hər zaman tərəfdarı olub. Onun hakimiyyətdən uzaqlaşdırılmasının dövlət və xalq üçün həyati vacib əhəmiyyət daşıdığını nəzərə alaraq, impiçment hüquqi alətindən istifadənin mümkünlüyünü ilk dəfə bəyan edən məhz "Ermənistan" fraksiyası olub. Nikol Paşinyana impiçment yolu ilə etimadsızlıq bildirməyin həm siyasi, həm də hüquqi əsasları var. Eyni zamanda, hazırkı baş nazirə etimadsızlıq göstərilməsi məsələsinə Milli Assambleyada yalnız o halda baxıla bilər ki, prosesə başlamaq üçün azı 36 deputat təşəbbüsü imzalasın. Təşəbbüsün uğur qazanması üçün ən azı 54 səs lazımdır ki, bu da parlamentdə sadə səs çoxluğudur. O da məlumdur ki, küçələrdə güclü ümumxalq təzyiqi olmadan impiçment prosesinin uğur qazanması üçün lazım olan çatışmayan 20 səsi təmin etmək mümkün deyil. Üstəlik, bu təzyiqlərlə belə, lazımi sayda səsin təmin olunacağına tam təminat yoxdur".

Qeyd edilib ki, bu təşəbbüsün müəllifləri hansısa siyasi partiya və ya hərəkatı təmsil etmirlər və əslində, impiçmentin mümkün uğursuzluğuna və onun nəticələrinə görə heç bir siyasi məsuliyyət daşımırlar: "Onların uğur əldə etmək üçün lazım olan kütləvi etiraz hərəkatını səfərbər etmək qabiliyyətindən də bu günə kimi əsər-əlamət yoxdur. Bütün bunlar fraksiyada məlum təşəbbüsün əsl məqsədləri ilə bağlı şübhələr yaradır. Buna baxmayaraq, "Ermənistan" fraksiyası yekdilliklə təsdiq edir ki, əgər prosesin təşəbbüskarları daha 8 deputatın imzasını təmin edə bilsələr, impiçment prosedurunun başlanması üçün özünün bütün 28 deputatının imzasını təqdim etməyə hazırdır. Təşəbbüskarlar, həmçinin impiçmentin uğur qazanması üçün zəruri olan xalq dəstəyini təmin etmək və müvafiq məsuliyyəti öz üzərlərinə götürmək qabiliyyətlərini və buna hazır olduqlarını da açıq şəkildə bəyan etməlidirlər".

İllər uzunu müxtəlif siyasi oyunlardan çıxan "Hayastan" fraksiyası bəyanatın sonunda bu təşəbbüsün onlara qarşı qurulan tələ ola biləcəyinə də açıq eyham vurub: "Biz fraksiyamızın deputatlarını hədəfə almaq və bizimlə şantaj dili ilə danışmaq cəhdlərini də yolverilməz hesab edirik. Belə hərəkətlər cavabsız qalmayacaq. Bu hərəkət tərzi şübhələrə yol açır: təşəbbüsün məqsədi doğrudanmı Nikol Paşinyanı vəzifədən kənarlaşdırmaqdır, yoxsa "Ermənistan" fraksiyasına gizli zərbə endirmək istəyidir?"

Görünən odur ki, xain xoflu olduğu kimi, "Ermənistan" fraksiyası da iki ictimai fəalın təşəbbüsündən xoflanıb. Bu təşəbbüsü özünə qarşı yönəlmiş hərəkət kimi qəbul edir. Çünki onların özlərinin hər bir təşəbbüsünün arxasında gizli məqsədlər, məkrli niyyətlər dayanıb.

Ancaq "Ermənistan" blokunun bu mövqeyi impiçment təşəbbüsünü irəli sürən ictimai fəalları qane etməyib. Narek Malyan bununla bağlı fikirlərini "Facebook" səhifəsində bildirib: "Seçicilərdən "Biz qalib gələcəyik" şüarı ilə səs toplayan, lakin heç vaxt "qalib gəlməyən" "Ermənistan" bloku bəyanat yayıb. Blok dörd il ərzində Nikolun vəzifədən uzaqlaşdırılmasının yeganə yoluna – impiçmentə hazırlaşmayıb. Bu müddət ərzində blokun Paşinyanın yerinə namizədi peyda olmayıb. Müxalifətçi deputatlar hansısa şərtlər irəli sürərək öz imzalarını baha qiymətə "satmağa" çalışırlar. "Əvvəlcə küçə etirazları yaradın, sonra bizi vacib işlərdən yayındırın" tezisi sadəcə, gülüncdür. Çünki ən azı üç dəfə impiçment vədləri altında kütləvi etiraz aksiyaları təşkil etmək mümkün olsa da, impiçment heç vaxt başlamayıb".

N.Malyan qeyd edib ki, bu bəyanat seçicilərin, hələ də müxalifətə inanan nümayişçilərin, mitinqlərdə döyülən, həbs olunan sadəlövhlərin ələ salınmasından başqa bir şey deyil: "Parlamentin bütöv bir fraksiyası onlara inanıb ümid bağlayanları, bax bu cür ələ salır. Bu, proqnozlaşdırıla bilən idi, deməli, bizim cavabımız da əvvəlcədən düşünülmüşdür".

Ermənistanda daxili siyasi həyatın son günlərinin ən mühüm hadisələrindən birini şərh edən "Hayatsk" analitik mərkəzi idarə heyətinin sədri, analitik Karen Bekaryan deyib ki, impiçment prosesi tətbiq edilməli olan alətdir, əks-təqdirdə çox şey cəmiyyət üçün anlaşılmaz olacaq. Bekaryan jurnalistlərə açıqlamasında bildirib ki, impiçment prosesinin həm hüquqi, həm də siyasi komponentləri var. Onlar hökmən nəzərə alınmalıdır: "Yəni prosesin özü çox yaxşı, diqqətlə və dəqiqliklə hesablanmalıdır. Bu, həm onun başlanması üçün lazımi səslərin təmin edilməsinə, həm müəyyən ictimai-siyasi təzyiqin yaradılmasına, həm də prosesin son mərhələyə çatdırılmasına aiddir".

Analitik bu addımın uğurunun əsas şərtini də qeyd edib: "Ən vacib və önəmli olan təkcə parlament müxalifətini deyil, bütün müxalifət qüvvələrini vahid gündəm ətrafında birləşdirmək imkanıdır. Əgər, bu, baş verərsə, hakimiyyətin vəziyyəti indikindən qat-qat çətinləşəcək".

Qeyd edək ki, Ermənistan konstitusiyasına görə, baş nazirin impiçmenti üçün bu vəzifəyə alternativ namizədi təqdim olunmalı, 107 yerlik parlamentdə 36 deputatın dəstəyi lazımdır. İmpiçment səsverməsinin baş tutması üçün minimum 54 səs tələb olunur. Hazırda müxalifət, bütövlükdə, 35 səsə malikdir və əlavə dəstək üçün ya müstəqil deputatların, ya da Paşinyanın partiyasından bir nəfərin dəstəyi lazımdır. Müxalifət bundan əvvəl də bir neçə dəfə impiçment üçün təşəbbüs göstərmişdi. Məlumdur ki, onlar uğur qazana bilməmişdilər. İndiki təşəbbüsün də uğurlu olacağını söyləmək çətindir. Ancaq istənilən halda bu təşəbbüslər Ermənistanın daxili siyasi gərginliyini və xarici siyasətindəki dəyişiklikləri əks etdirir.

N.Paşinyanın impiçmenti ilə bağlı təşəbbüslər ölkəmizdə də diqqətlə izlənilir. Bu da prosesin yalnız Ermənistanın daxili siyasəti ilə məhdudlaşmadığı, regional sülh və sabitliyə, təhlükəsizliyə və ölkəmizlə münasibətlərə təsir göstərə biləcəyi ilə bağlıdır. Paşinyanın impiçmenti prosesi uzunmüddətli və qeyri-sabit keçid dövrünə səbəb olarsa, ölkəmiz üçün ciddi strateji risklər yarada bilər. Bizim üçün ən sərfəli ssenari Ermənistanın konstruktiv və öhdəliklərinə sadiq bir rəhbərliklə sabit şəkildə sülh prosesinə davam etməsidir.

***Səxavət HƏMİD***
***XQ***

# Su – hər damlası həyat cövhəri olan misilsiz nemət

## *Onun hər yerə və hamıya çatmasının etibarlı yolu səmərəli istifadə və qənaətdir*

**Hazırda dünya ölkələri iqlim dəyişikliklərinin kəskinləşməsi, su ehtiyatlarının azalması və onun ekoloji sistemə mənfi təsirlərinin getdikcə artması kimi ciddi problemlərlə üzləşib. Son 50 ildə davamlı qlobal iqlim dəyişikliyi, əhalinin sürətli artması, urbanizasiya və sənayeləşmə kimi amillər su ehtiyatlarının səviyyəsinə və keyfiyyətinə güclü təsir göstərib.**

**BMT-nin və digər aparıcı beynəlxalq təşkilatların su ehtiyatlarının vəziyyətinə dair 2024-cü ildə dərc etdiyi hesabata əsasən, dünyada su çatışmazlığı davamlı artır. Qurumun məlumatında bildirilir ki, hazırda dünyada, təxminən, 2,2 milyard nəfərin təmiz içməli suya, 3,5 milyard nəfərin isə təhlükəsiz idarə olunan sanitariya xidmətlərinə çıxışı yoxdur. 2050-ci ilədək suya tələbatın, təxminən, 40 faizdən çox artacağı gözlənilir ki, bu da su qıtlığı probleminin daha da kəskinləşməsi deməkdir.**

**Cənubi Asiya, Yaxın Şərq və Böyük Səhradan cənubdakı Afrika da daxil olmaqla, əhalinin sürətli artımı və iqtisadi inkişaf nəzərə çarpan regionlarda su sahəsində problem daha kəskindir. Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının dosenti Elşən Əhmədovla söhbətimiz də ölkəmizdə bu sahədə yaranmış vəziyyət barədədir:**

– Prezident İlham Əliyevin sosial-iqtisadi inkişaf prioritetlərində Azərbaycan xalqının rifahının yüksəldilməsi qarşıya mühüm hədəflərdən biri kimi qoyulur. Bu hədəflər sırasında, ilk növbədə, ölkəmizin hərtərəfli inkişafını şərtləndirən davamlı inkişafın siyasi, sosial-iqtisadi və ekoloji komponentləri dayanır. Bu sıralamada su resurslarının davamlı idarə edilməsi isə xüsusi yer tutur. Dövlətimizin başçısı çıxışlarının birində bütün dövrlərdə daim su qıtlığı yaşandığını və insanların bir növ buna alışdıqlarını bildirib. Belə bir şəraiti qeyri-normal vəziyyət kimi dəyərləndirən ölkə rəhbəri içməli suyun daim olmasının zəruriliyini vurğulayaraq dövlətimizin bu problemi köklü şəkildə həll etmək əzmində olduğunu diqqətə çatdırıb.

Su resurslarının davamlı idarə edilməsi vacib amillər sırasında yer almaqdadır. Dövlətimizin siyasi, sosial-iqtisadi və ekoloji davamlılığının gerçəkləşdirilməsi məqsədilə su resurslarının davamlı idarə edilməsi əsas hədəflərdən biri kimi diqqətdə saxlanılır. Burada əsas istiqamət su resurslarının inkluziv idarə edilməsi, təkmilləşdirilməsi, su idarəetmə sistemlərinin rəqəmsallaşdırılmasıdır. Bunun bariz nümunəsi "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın təsdiq edil-



məsi haqqında Azərbaycan Prezidentinin 10 oktyabr 2024-cü il tarixli sərəncamıdır.

**– Qeyd edilən strategiyanın əhəmiyyəti barədə nə deyə bilərsiniz?**

– Prezident İlham Əliyevin göstərişi ilə bu gün Azərbaycan Respublikasının illik su təsərrüfatı balansının elektronlaşdırılması, ölkənin əsas su və su təsərrüfatı obyektlərində su ehtiyatlarının qiymətləndirilməsi, subartezian və artezian quyularının istismarına elektron qaydada, o cümlədən real vaxt rejimində nəzarətin həyata keçirilməsi kimi məsələlər xüsusi önəm daşıyır. Bununla yanaşı, su ehtiyatlarının istifadədə səmərəliliyin artırılması, uçotun və idarəetmənin təkmilləşdirilməsi, habelə bu sahədə operativ əlaqələndirmənin reallaşdırılması məqsədilə məlumatların toplanılması, işlənilməsi, saxlanılması və axtarışı işlərinin avtomatlaşdırılmasını təmin edəcək "Elektron su təsərrüfatı" informasiya sisteminin yaradılması, adı çəkilən sistemin əsasnaməsinin tədbiq edilməsi də qarşıda mühüm vəzifələr kimi durur.

Yeri gəlmişkən, Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin tabeliyindəki "Elektron Hökumətin İnkişafı Mərkəzi" publik hüquqi şəxs "Elektron su təsərrüfatı" informasiya sisteminin operatoru müəyyənləşdirilib. Bundan əsas məqsəd isə adı çəkilən qurumun "Dövlət informasiya ehtiyatları və sistemlərinin formalaşdırılması, aparılması, inteqrasiyası və arxivləşdirilməsi Qaydaları"nın təsdiq edilməsi və elektron hökumətlə bağlı bəzi tədbirlər haqqında Azərbaycan Prezidentinin müvafiq fərmanına uyğun olaraq "Elektron su təsərrüfatı" informasiya sisteminin dövlət informasiya ehtiyatları və sistemləri ilə əlaqələndirilməsini reallaşdırmaqdır.

**– Ölkəmizin mövcud su ehtiyatlarının indiki vəziyyəti necədir?**

– Sualla bağlı əvvəlcə onu qeyd edim ki, Azərbaycanın bərpaolunan şirin su ehtiyatları 26,2 milyard kubmetr təşkil edir. Bunun 8,4 milyard kubmetri yeraltı sulardan, 4,6 milyard kubmetri yerli çay axınlarından, 13,2 milyard kubmetri isə transsərhəd yerüstü sulardan yaranır. Bərpaolunan şirin su ehtiyatının 17,8 milyard kubmetri (67,9 faizi) yerüstü şirin su ehtiyatlarından formalaşır. Azərbaycanın su ehtiyatları Cənubi Qafqazın digər ölkələri ilə müqayisədə məhduddur və bütün regiondakı su ehtiyatının, təxminən, 15 faizini təşkil edir. Azərbaycanda adambaşına düşən su ehtiyatı da qonşu ölkələrlə müqayisədə ən



aşağı səviyyədədir. Yerüstü su ehtiyatları, əsasən, çaylarda cəmlənmişdir. Ölkəmizdə, ümumilikdə, 8 min 359 çay var. Bunların isə əksəriyyəti kiçik (uzunluğu 5 kilometrdən az) və azsuludur.

Yeri gəlmişkən, Azərbaycan ərazisinin, təxminən, 75 faizi Kür çayı hövzəsinə daxildir. Çay suları ehtiyatlarının, təqribən, 70 faizi qonşu ölkələrin ərazisindən, qalanı isə (yerli axım) daxili çaylardan formalaşır. Quraqlıq illərində transsərhəd su ehtiyatlarının həcmində kəskin azalma müşahidə edilir. Eyni zamanda, Kür və Araz çaylarının su ehtiyatları qonşu ölkələrin ərazisində sugötürücü qurğularla mənimsənilmə nəticəsində xeyli səviyyədə azalır. Bu isə ölkədə suya tələbatın ödənilməsində ciddi çətinliklər yaradır.

Hazırda ölkəmizin ərazisində 140-dan çox su anbarı var. Bunların ən böyükləri Kür çayı üzərindəki Mingəçevir (həcmi 15,7 milyard kubmetr), Şəmkir (həcmi 2,7 milyard kubmetr), Araz çayı üzərindəki Xudafərin (həcmi 1,6 milyard kubmetr) və Araz (həcmi 1,3 milyard kubmetr), habelə Tərtər çayı üzərindəki Sərsəng (həcmi 0,56 milyard kubmetr) su anbarlarıdır. Su anbarlarının ümumi həcmi isə 24 milyard kubmetrə yaxındır.

Ölkə ərazisindəki mövcud 700-ə yaxın gölün əksəriyyəti yay aylarında quruyur. Qurumayan təbii göllərin sayı, təxminən, 250-dir. Sahəsi 1 kvadratkilometrdən çox olan və böyük təsərrüfat əhəmiyyəti kəsb edən göllərin sayı 25-dir. Göllərin ümumi su ehtiyatı 0,9 milyard kubmetrə, şirinsulu göllərin ehtiyatı isə 0,03–0,05 milyard kubmetrə yaxındır.

**– Bəs su ehtiyatlarından istifadəni necə qiymətləndirirsiniz?**

– Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2010-2023-cü illərdə təbii mənbələrdən götürülən suyun həcmi 10,7 faiz, su istehlakı isə 26,7 faiz artıb. İllik su təsərrüfatı balansının göstəricilərinə görə, ölkə üzrə su mənbələrindən əkin sahələrini suvarma məqsədilə götürülən suyun 50 faizi, əhalinin içməli su təchizatı məqsədilə götürülən suyun isə 37 faizi son istehlakçıya çatmır. Su itkilərinin orta illik həcmi, təxminən, ölkə ərazisində formalaşan yerüstü su ehtiyatları (4,6 milyard kubmetr) qədərdir.

Qiymətləndirmələrə görə, su itkilərinin yaranmasının səbəblərinə əksər suvarma kanallarının torpaq məcralı olması (75 faiz), müasir suvarma sistemlərinin məhdud tətbiqi (5 faiz), içməli su infrastrukturunun köhnəlməsi, fiziki itkiləri və suların dövlət uçotunun mükəmməl olmaması (sayğaclaşmanın başa çatmaması), suların dövlət uçotundan yayınma, nəzarətdənkənar qoşulmalar nəticəsində yaranan kommersiya itkiləri daxildir.

**– Sonda "Su ehtiyatlarından səmərəli istifadəyə dair Milli Strategiya"nın məqsədi və prioritet istiqamətləri barədə qısa məlumat verməyinizi istərdik.**

– Əvvəlcə qeyd edim ki, Milli Strategiyanın hazırlanmasında əsas məqsəd ölkədə su təhlükəsizliyinin qorunması, onun dayanıqlığının artırılması və bu sahədə müasir idarəetmə sisteminin qurulmasıdır. Bununla əlaqədar bir sıra layihələrin gerçəkləşdirilməsi nəzərdə tutulur. Məsələn, ilk növbədə, su ehtiyatlarının qiymətləndirilməsi və proqnozlaşdırılması sisteminin təkmilləşdirilməsi, su ehtiyatlarının hidroloji və hidrogeoloji tədqiqatlarla yenidən qiymətləndirilməsi, monitorinq stansiyalarının rəqəmsallaşdırılması, məlumatların real vaxt rejimində emalı, habelə risklərin simulyasiyası və rəqəmsallaşmasının təmin ediləcəyi planlaşdırılır.

Bununla da ölkənin su ehtiyatları barədə real təsəvvür formalaşacaq, iqlim dəyişmələrinin təsirləri nəzərə alınaraq dayanıqlı su mənbələrindən istifadəyə zəmin yaradılacaq. Eyni zamanda, su təhlükəsizliyi sahəsində risklər müəyyənləşdiriləcək və onların aradan qaldırılması ilə bağlı qabaqlayıcı tədbirlər görüləcək, sərhədlərarası razılaşdırılmış fəaliyyətlər vasitəsilə su hövzələri boyunca su ehtiyatlarının inteqrasiyalı idarə olunması təşviq ediləcək. Su ehtiyatlarının çirklənməsinin qarşısının alınması, sudan səmərəli istifadə, tullantı sularının idarə olunması sahəsində mövcud problemlərin həll məqsədilə qarşılıqlı əməkdaşlıq gücləndiriləcək, formalaşan tullantı sularının effektiv idarə olunması sayəsində ekoloji tarazlıq qorunacaq, iqlim dəyişikliyinə mitiqasiya və adaptasiya yolu ilə cavab verməklə hidroekoloji böhranlar nəzarətdə saxlanılacaq.

# Adambaşına gəlir 4 ildə 678 manat artıb

**Media Təhlil Mərkəzinin (MTM) Dövlət Statistika Komitəsi və Mərkəzi Bankın rəsmi məlumatları əsasında apardığı təhlilə görə, son 4 il ərzində Azərbaycanda əhalinin nominal gəlirləri üzrə artım dinamikası davam edib.**

MTM-in məlumatına əsasən, 2021-ci ilin I rübündə əhalinin nominal gəlirlərinin həcmi 13,5 milyard manat idisə, son 4 ildə bu göstərici 53,8 faiz və ya 7,2 milyard manat artıb. 2025-ci ilin yanvar – mart aylarında isə ölkə əhalisinin nominal gəlirləri 20,7 milyard manata (2024-cü ilin eyni dövrünə nisbətən 6,6 faiz və ya 1,3 milyard manat çox) çatıb.

Bildirilir ki, son 4 ildə əhalinin adambaşına düşən nominal gəlirlər üzrə də artım dinamikası davam edib. Cari ilin yanvar – mart aylarında adambaşına düşən nominal gəlir 2024-cü ilin I rübü ilə müqayisədə 6,2 faiz və ya 117,2 manat artaraq 2 min 22,6 manata yüksəlib. Ötən il isə artım dinamikası 4,5 faiz olub. Ümumilikdə, sözügedən dövrdə əhalinin hər bir nəfərinə düşən nominal gəlir həcmi 50,4 faiz və ya 677,7 manat çoxalıb.

MTM-in hesabat təhlilinə görə, 2024-



cü ilin yanvar-mart ayları ilə müqayisədə 2025-ci ilin eyni dövründə orta illik inflyasiya göstəricisi 5,6 faiz təşkil edib. Həmin dövrdə əhalinin adambaşına düşən nominal gəliri isə daha çox – 6,2 faiz artıb. Qeyd olunan tendensiya əvvəlki illərdə də bənzər şəkildə nəzərə çarpıb.

Hesabat təhlilində, eyni zamanda, qeyd edilir ki, 2022-ci və 2023-cü illərin birinci rübləri arasındakı müddətdə orta illik inflyasiya ən yüksək həddə (13,8 faiz) çatdığı halda, adambaşına düşən nominal gəlir daha yüksək (14,5 faiz) olub. Ümumilikdə isə 2021-ci ilin birinci rübündən 2025-ci ilin birinci rübünədək olan dövrdə inflyasiya 36,2 faiz olduğu halda, əhalinin adambaşına düşən nominal gəlirləri 50,4 faiz çoxalıb.

Rəsmi rəqəmlərə əsasən, cari ilin yanvar-fevral aylarında ölkədə orta aylıq əməkhaqqı ötən ilin eyni dövrü ilə müqayisədə 10,2 faiz və ya 96,8 manat yüksələrək 1043,6 manata çatıb. Son 4 ildə bu göstərici üzrə artım tempi 10 faiz təşkil edib. 2021-ci ilin yanvar-fevral aylarında orta aylıq nominal əməkhaqqı 692,3 manat idisə, son 4 ildə orta aylıq əməkhaqqı 50,7 faiz və ya 351,3 manat artıb.

Xatırladaq ki, əhalinin nominal gəlirləri dedikdə, əhalinin müəyyən dövr ərzində əldə etdiyi bütün pul gəlirlərinin (əməkhaqqı, pensiya, müavinət, sahibkarlıq gəlirləri və s.) ümumi məbləği nəzərdə tutulur. Bu göstərici gəlirlərin faktiki miqdarını əks etdirir və inflyasiya nəzərə alınmadan hesablanır.

# Ölkəmizin enerji imkanları İstanbul Zirvəsində



**Türkiyənin İstanbul şəhərində Təbii Sərvətlər Zirvəsi çərçivəsində "Təchizatın təminatında dəyişən dinamikalar: çətinliklər və imkanlar" mövzusunda keçirilən nazirlər sessiyası keçirilib.**

Sessiyada çıxış edən Azərbaycanın energetika naziri Pərviz Şahbazov ölkəmizin neft və təbii qaz təchizatçısı kimi strateji rolunun müasir reallıqlarda davam etdirilməsindən bəhs edib. Nazir Türkiyə ilə birgə reallaşdırılmış layihələrin töhfələrinin artırılması və cari ildə bu ölkəyə, təxminən, 10 milyard kubmetr qaz tədarükünün planlaşdırılması kimi məqamları diqqətə çatdırıb.

Qeyd olunub ki, Türkiyə bizim üçün yalnız istehlakçı deyil, həm də tranzit ölkəsi kimi böyük əhəmiyyətə malikdir. Bu marşrut vasitəsilə Azərbaycanın enerji resurslarını Avropa ölkələrinə nəql edildiyini bildirən P.Şahbazov, həmçinin vurğulayıb ki, karbohidrogenlərə qarşı siyasət qlobal enerji sistemində qaz sektoruna investisiyaların azalmasına, enerji resurslarının bazarlara çatdırılmasını təmin edəcək infrastrukturların çatışmazlığına yol açmaqla qaz təchizatı planlarının reallaşdırılmasına mane olur. O deyib: "Enerji mənbələrinə siyasi və ideoloji prizmadan yanaşmaq əvəzinə, real enerji strategiyalarının necə inkişaf etdiriləcəyi məsələsinə fokuslanmaq vacibdir. Çünki dünyada əhali, enerji tələbatı artır və gələcəkdə enerjini israf etmək lüksümüz olmayacaq. Məhz buna görə də biz hazırda mövcud olan bütün enerji növlərinin inkişaf etdirilməsini prioritet kimi müəyyən etmişik. Bir sıra regional layihələrə start vermişik və bu layihələr reallaşarsa, enerji təhlükəsizliyi və ətraf mühitə müsbət töhfə verəcək."

O da vuğulanıb ki, əgər Avropa böyük qaz tədarükü istəyirsə, bu istiqamətdə uzunmüddətli müqavilə mexanizmləri dəstəklənməlidir. Əks halda qaz hasilatına böyük sərmayə yatırmaq onu son təyinat nöqtəsinə çatdırmaq və bazarda satmaq üçün zəmanət olmadıqda riskli ola bilər.

"Yaşıl enerji" interkonnektorlarına gəlincə isə Azərbaycanın bu istiqamətdə Türkiyə, Gürcüstan, Rumıniya, Bolqarıstan və Mərkəzi Asiya ölkələri ilə əməkdaşlıq etdiyini diqqətə çatdıran nazirin sözlərinə görə, gələcəyin enerji layihələri təkcə regionları əlaqələndirməyəcək, həm enerji, həm də iqlim təhlükəsizliyinə xidmət edəcək.

Qeyd edək ki, Türkiyənin energetika və təbii sərvətlər naziri Alparslan Bayraktarın moderatorluğu ilə keçirilən müzakirələrdə İraq, Misir, Liviya, Bolqarıstan, Rumıniya və Moldova nazirləri də iştirak ediblər.

# Xankəndidə 1300 ünvana qaz verilib

**Azərbaycan Dövlət Neft Şirkətinin "Azəriqaz" İstehsalat Birliyi Xankəndi şəhərindəki təbii qaz təchizatı infrastrukturunda bərpa və quruculuq işləri həyata keçirir.**



Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Bərpa, Tikinti və İdarəetmə Xidmətinin ictimaiyyətlə əlaqələr şöbəsinin məlumatına görə, şəhərin təbii qaza olan tələbatını ödəmək üçün lazımi yenidənqurma və bərpa işləri aparılır. Hazırda infrastrukturun yenidən qurulması istiqamətində işlər davam etdirilir. Artıq Xankəndi şəhərində 1300 abonent "mavi yanacaq"la təmin edilib, Bununla yanaşı, 15 sənaye obyektinə də təbii qaz verilib.

Böyük Qaydışla əlaqədar olaraq əhalinin köçürülməsi üçün nəzərdə tutulan Xocalının Xan yurdu və Təzəbinə kəndlərində isə qaz xətlərinin çəkilişləri davam edir.

# "OPEC plyus" hasilatı artıracaq



**"OPEC plyus" təşkilatına daxil olan 8 ölkə gələn ay gündəlik neft hasilatını 411 min barel artırmaq barədə razılığa gəlib.**

Xatırladaq ki, əvvəlki plana əsasən, hasilatın may ayına qədər 244 min barel artırılması nəzərdə tutulurdu. Beləliklə, iyunda "OPEC plyus" ölkələrinin ümumi hasilat kvotası 36,19 milyon bareldən bir qədər çox olacaq.

*Səhifəni hazırladılar:*
***Vaqif BAYRAMOV,***
***Mirbağır YAQUBZADƏ***
***XQ***

# Dünyanın böyük yolları “Odlar yurdu”ndan keçir

*(əvvəli 1-ci səhifədə)*

Hesabat ilində Şimal – Qərb Nəqliyyat dəhlizi (bu marşrutun yaradılması Bakı–Tbilisi–Qars dəmir yolunun 2017-ci ildə istifadəyə verilməsi ilə gerçəkləşib) ilə yükdaşıma 5 milyon 984,9 min ton (əvvəlki illə müqayisədə 86,3 min ton və ya 1,5faiz çox) olub. Xatırladaq ki, 2023-cü ildə Şimal-Qərb marşrutu ilə



daşınmış yüklərin həcmi 5 milyon 898,6 min tona yüksəlib.

Ötən il Şimal-Cənub Nəqliyyat Dəhlizi (Əsasən Hindistan və Fars körfəzi regionundan yüklərin Rusiya, Qərbi Avropa, Baltikyanı və Skandinaviya ölkələrinə çatdırılmasını təmin edir) ilə daşınmış yüklərin həcmi isə 9 milyon 896,5 min ton (əvvəlki illə müqayisədə 625,4 min ton və ya 6,7 faiz çox) olub.

Beləliklə, 2024-cü ildə nəqliyyat dəhlizlərində daşınan yüklərin həcmi 33 milyon 258 min ton olub. Yüklərin 15 milyon 277,6 min tonu və ya 46 faizi dəmir yolu, 10 milyon 90 min tonu və ya 30,3 faizi avtomobil, 7 milyon 890,4 min tonu və ya 23,7 faizi dəniz nəqliyyatı ilə daşınıb. Dəhlizlər vasitəsilə daşınan yüklərin 56,6 faizini və ya 18 milyon 840 min tonunu tranzit yüklər təşkil edib.

Bütün bu müsbət göstəricilərin əldə edilməsində respublikamızın fəaliyyəti də xüsusi diqqət çəkib. Belə ki, tarixi İpək yolu üzərində geniş iqtisadi zolağın yaradılmasının fəal dəstəkçisi olan Azərbaycan, həm də ötən dövrdə digər dəhlizlərlə müqayisədə yüklərin ölkəmizin ərazisindən keçməklə müxtəlif istiqamətlərə tranzit daşımalarının səmərəli təşkilinə etibarlı şərait yaradıb, yüklərin daha əlverişli şərtlərlə qısa müddətdə, təhlükəsiz və vaxtında çatdırılmasına, tranzit daşımaların həcminin dəfələrlə artmasını şərtləndirib.

Ölkəmizin tranzit potensialının güclənməsi və Avrasiyanın nəqliyyat qovşağına çevrilməsi istiqamətində son illər müəyyən addımlar atılıb, genişmiqyaslı layihələr gerçəkləşdirilib. Bunun nəticəsində iqtisadiyyatda nəqliyyat sahəsinin rolu yüksək dərəcədə artaraq sektorun ÜDM-dəki payı 6,5 faizə yüksəlib.

Dəmiryolu sistemində həyata keçirilən layihələrin icrası da diqqət mərkəzində saxlanılıb. Ələt–Astara dəmiryolu xəttinin 2027-ci ilədək tamamlanacağı planlaşdırılıb, Orta Dəhlizin müəyyən hissəsinin dəyişən cərəyanla fəaliyyət göstərdiyi gerçəkləşdirilib, yaxın vaxtlarda isə dəhlizin Hacıqabul – Ucar hissəsinin dəyişən cərəyana keçəcəyi nəzərdə tutulub. Horadiz – Ağbənd dəmiryolu layihəsi üzrə indiyədək 80 kilometrə yaxın yol çəkilib, Ağdam – Xankəndi dəmiryolunun layihələndirilməsinə başlanılıb.

“Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin (QSC) ölkəmizin tranzit potensialının güclənməsinə mühüm töhfə vermək qarşıda mühüm vəzifə kimi durur. QSC-nin hava gəmisi parkının orta yaşının 14 il olduğu, belə vəziyyətin müştəri məmnuniyyətinin azalmasına, təyyarələrin istismar xərclərinin artmasına gətirib çıxardığı nəzərə alınsa, nəticədə bu yöndə ciddi addımlar atıldığı zəruridir. “Airbus” və “Boeing” şirkətləri ilə 2023-cü ildə 20-dən çox təyyarənin alışı ilə bağlı müqavilələrin imzalanması, yeni təyyarələrin isə 2032-ci ilədək AZAL-ın gəmi parkına daxil edilməsinin planlaşdırıldığı da bunun bariz ifadəsidir.

Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla yanaşı, beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar çoxalıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub. Yazının əvvəlində vurğulandığı kimi, nəqliyyat sektorunun ÜDM-dəki payının 6,5 faizə çatması kimi müsbət göstərici əldə edilib.

Xatırladılan bu göstəriciləri isə bir sıra amillər şərtləndirib. Xüsusilə respublikamızın tranzit potensialının reallaşdırılması üçün icra olunan layihələr bu məsələdə son dərəcə əhəmiyyətli rol oynayıb. Belə ki, ölkəmizin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı gerçəkləşdirilən layihələr, habelə qlobal miqyaslı təşəbbüslər Azərbaycanı sosial-iqtisadi inkişafı sürətləndirməklə ölkəmizi mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirib.

Yuxarıda qeyd edilənlərdən belə nəticəyə gəlinir ki, Prezident İlham Əliyevin iqtisadi şaxələndirmə siyasətində əlverişli coğrafi mövqeyi olan ölkəmizin tranzit potensialının reallaşdırılması mühüm önəm daşıyır. Bununla bərabər beynəlxalq və regional nəqliyyat dəhlizlərinin inkişafı da iqtisadiyyatımızın səmərəliliyinin artırılmasına müsbət təsir göstərir. Eyni zamanda, nəqliyyat, infrastruktur və logistika sahələrində birgə layihələr dövlətimizin iqtisadi imkanlarını genişləndirir, əhəmiyyətini artırır.

Bu istiqamətdə həyata keçirilən tədbirlərin nəticəsidir ki, son 10 il ərzində nəqliyyat sektorunda orta illik artım tempi 3,5 faiz təşkil edib, yeni infrastruktur qurulub, özəl investisiyalar artıb. Ölkə regional əhəmiyyətli nəqliyyat-logistika və ticarət qovşağına çevrilib və əsas ticarət marşrutlarından bəhrələnməyin əsası qoyulub.

# Azərbaycan–BƏƏ: investisiya əməkdaşlığı genişlənir



**Azərbaycan və Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) arasında qarşılıqlı investisiyaların artırılması imkanları nəzərdən keçirilib. Bu barədə İqtisadiyyat Nazirliyi məlumat yayıb.**

Bildirilib ki, Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarovun BƏƏ-nin investisiya naziri, Əbu-Dabi İnkişaf Holdinq Şirkətinin idarəedici və baş icraçı direktoru Məhəmməd Həsən Əl Suveydi ilə görüşündə bu barədə müzakirələr aparılıb. Görüşdə Azərbaycanla BƏƏ arasında dostluq və qardaşlıq əlaqələri vurğulanıb, iqtisadi-ticarət tərəfdaşlığının genişləndiyi qeyd olunub. BƏƏ-nin Azərbaycanın bərpa olunan enerji sahəsinə qoyduğu investisiyaların əhəmiyyəti diqqətə çatdırılıb.

Söhbət zamanı nazir M.Cabbarov ölkəmizin əlverişli biznes mühiti, strateji coğrafi mövqeyi, zəngin resursları, həmçinin qeyri-neft sənayesinin sürətlə inkişafı investorlar üçün cəlbedici imkanlar yaratdığını diqqətə çatdırıb. Qeyd olunub ki, bu imkanlardan səmərəli istifadə etməklə investisiya əlaqələrinin təşviqi, biznes subyektləri arasında tərəfdaşlığın genişləndirilməsi vacib əhəmiyyət kəsb edir.

Tərəflər iki ölkə arasında iqtisadi inteqrasiyanın daha da gücləndirilməsi, yeni əməkdaşlıq əlaqələrinin qurulması, qarşılıqlı investisiyaların artırılması imkanlarını nəzərdən keçiriblər.

# Son 3 ildə aqrar sahəyə 107 milyon manat vəsait ayrılıb



**2022-2024-cü illərdə Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi (AKİA) Azərbaycanda 42 min hektar ərazidə quraşdırılan müasir (pivot) suvarma sistemlərinin maliyyələşdirilməsinə 13,6 milyon manat kredit-lizinq vəsaiti, 93,3 milyon manat güzəşt vəsaiti ayırıb. Bu fikri AKİA-nın nümayəndəsi Emil Xasməmmədov Bakıda keçirilən IV Aqrobiznesin İnkişafı Forumundakı çıxışı zamanı səsləndirib.**

Onun sözlərinə görə, ölkə Prezidentinin ərzaqlıq buğda istehsalı ilə məşğul olan sahibkarlıq subyektlərinin quraşdırdığı müasir suvarma sistemlərinin maliyyələşdirilməsi ilə bağlı fərmanına uyğun olaraq agentliyə dövlət büdcəsindən əlavə vəsait ayrılıb. E.Xasməmmədov onu deyib ki, 2022-ci ildən buğda əkilmiş 12 min hektar ərazidə müasir suvarma sistemlərinin quraşdırılması ilə bağlı layihələrin maliyyələşdirilməsi üçün 24,6 milyon manat güzəşt vəsaiti yönəldilib.

# Azərbaycan regionun ən az dövlət borcu olan ölkəsidir

**Digər Mərkəzi Asiya və Qafqaz (CCA) ölkələri ilə müqayisədə Azərbaycanın dövlət borcu aşağı səviyyədədir. Bunu Beynəlxalq Valyuta Fondunun (BVF) Yaxın Şərq və Mərkəzi Asiya Departamentinin direktor müavini Tanos Arvanitis deyib.**



Hazırda CCA ölkələrinin fiskal konsolidasiya yoluna qədəm qoyduqlarını xatırladan qurum rəsmisi bunu borc yükünün orta səviyyədə saxlanması baxımından əhəmiyyətli olduğunu vurğulayıb: “Doğrudan da, biz görürük ki, Qazaxıstan və Azərbaycanda borc yükü nisbətən aşağı səviyyədədir. Region ölkələrinin əksəriyyətində bu göstərici ÜDM-in 30-40 faizi civarındadır. Ermənistanda bu göstərici bir qədər yüksəkdir. Ümumilikdə isə, regionun fiskal mövqeyi idarəolunandır”.

Xarici sektora gəldikdə isə, BVF rəsmisi bildirib ki, son illərdə bu sahənin iqtisadi artımda çox güclü rol oynadığı müşahidə edilib. O deyib ki, əksər ölkələrdə artım tempinin əvvəlki illə müqayisədə bir qədər zəifləməsinə baxmayaraq, ixracın artması ötən il də davam edib. “Ümumilikdə, ixrac, pul köçürmələri və maliyyə axınları güclü olaraq qalır və iqtisadiyyatı dəstəkləməkdə davam edir. Bu tendensiyanı CCA ölkələrində də müşahidə edirik”, – deyə o əlavə edib.

# Yevlaxda damazlıq toyuqçuluq



**Azərbaycan İnvestisiya Şirkətinin dəstəyi ilə Yevlax Aqroparkında müasir texnologiyalarla təchiz edilən damazlıq yumurta istehsalı zavodunun inşası davam edir.**

Şirkətdən verilən məlumatına görə, layihə Azərbaycanda və beynəlxalq miqyasda fəaliyyət göstərən “Moonwake” investisiya şirkəti, ölkədə kənd təsərrüfatı və qida istehsalı sahələrində fəaliyyət göstərən “LUMUN” investisiya şirkəti və aqro-sənaye layihələri üzrə qlobal inteqrator olan İsrailin “Agri-Go” şirkətinin tərəfdaşlığı çərçivəsində həyata keçirilir.

İllik 22 milyon ədəd istehsal gücünə malik olan müəssisə, ölkənin yerli istehsal imkanlarını genişləndirməklə idxaldan asılılığı azaltmağı və qida təhlükəsizliyini gücləndirməyi hədəfləyir. Müəssisə üç əsas istehsalat sahəsindən ibarət olacaq. Cücələrin saxlanıldığı ərazi artıq istifadəyə verilib və burada ilkin mərhələdə gətirilmiş cücələr saxlanılır. 2025-ci ilin fevral ayında zavoda gətirilmiş 62 min cücənin sağlam inkişafını təmin etmək üçün nəzərdə tutulan beş peyvəndləmə mərhələsindən üçü artıq həyata keçirilib. Digər iki mərhələnin yaxın aylarda icra olunması planlaşdırılır. Zavodun digər iki əsas sahəsinin tikintisi isə davam edir. Bu sahələrin də cari ilin iyul və dekabr aylarında istifadəyə verilməsi nəzərdə tutulur.

Hazırda zavodda 56 nəfər işçi çalışır. Gələcəkdə müəssisənin tam istismara verilməsi ilə bu sayın artırılması və bölgədə əlavə iş yerlərinin yaradılması gözlənilir. Yevlax və ətraf rayonlar üçün mühüm sosial-iqtisadi əhəmiyyət daşıyan bu layihə, həm də kənd təsərrüfatı sahəsində texnoloji yeniliklərin tətbiqi və davamlı inkişafı baxımından mühüm addımdır. Belə ki, layihə həm regionun iqtisadi inkişafına, həm də kənd təsərrüfatı məhsullarının keyfiyyətli və davamlı istehsalına töhfə verəcək. Eyni zamanda, yerli resurslara əsaslanan bu təşəbbüs kənd təsərrüfatı sektorunun dayanıqlığını və rəqabətqabiliyyətini artırmağa xidmət edir.

# Təmizlik fabrikinin saf məhsulları




**“Azərsun” Kağız Karton İstehsalat Korporasiyasının nəzdində fəaliyyət göstərən təmizlik vasitələri fabriki istehsal prosesini getdikcə genişləndirir. 2022-ci ildən fəaliyyətə başlayan müəssisə qısa müddət ərzində ölkəmizdə təmizlik vasitələri sahəsində aparıcı mövqeyə yüksəlib.**

İllik istehsal gücü 22 min ton təşkil edən fabrikdə “Crystalex”, “Wipelex”, “Pure Sense”, “OxyWhite”, “Praxi” və “Biodax” kimi geniş çeşiddə məhsul istehsal olunur. Həmin məhsullardan qabyuyucu şampunlar, maye sabunlar, şüşə təmizləyicilər, ağardıcılar, dezinfektantlar və səth təmizləyiciləri gündəlik həyatımızda geniş istifadə olunur.

Yüksək keyfiyyət standartları əsasında istehsal olunan məhsullar istehlakçılar tərəfindən razılıqla qarşılanır. Hazırda fabrikin müasir texnologiyalarla təchiz olunmuş istehsal xəttində İtaliya və Türkiyədən gətirilmiş ən qabaqcıl avadanlıqlardan istifadə edilir. Müəssisənin laboratoriyasında isə bütün məhsullar keyfiyyət nəzarətindən keçir. Bu, istehsal olunan məhsulların yüksək standartlara cavab verməsinə və müştəri məmnuniyyətini təmin etməsinə zəmin yaradır.

Müəssisədə təmizlik məhsullarının seçilməsində dayanıqlılıq və ətraf mühitə təsir amillərinə xüsusi diqqət edilir. Dayanıqlı məhsullar yenidən emal oluna bilən materiallardan hazırlanır və tərkibində ətraf mühitə zərər verə biləcək kimyəvi maddələr minimuma endirilir. Ekoloji cəhətdən təmiz məhsullar təbiətə zərər vermədən parçalanır və su hövzələrini çirkləndirmir. Eyni zamanda, bu növ məhsullar ev təsərrüfatlarında təhlükəsiz istifadə olunmaqla yanaşı, ekosistemin qorunmasına da töhfə verir.

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# Leyla Əliyeva və Arzu Əliyeva Naxçıvanda







**Mayın 2-də Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva və Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva ailə üzvləri ilə birlikdə Naxçıvan Muxtar Respublikasına səfər ediblər. Səfər çərçivəsində Naxçıvanın zəngin tarixi-mədəni irsi, unikal memarlıq abidələri, sosial-tibbi reabilitasiya müəssisələri və təbii gözəllikləri ilə yaxından tanışlıq olub.**







Səfər Azərbaycan xalqının Ümummilli lideri Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsinin önünə gül dəstəsinin qoyulması ilə başlayıb. Ardınca onlar Heydər Əliyev Muzeyini ziyarət edərək dahi şəxsiyyətin həyat yolunu, siyasi irsini və dövlətçilik fəaliyyətini əks etdirən zəngin eksponatlarla tanış olublar.

Daha sonra Naxçıvanın memarlıq incilərindən olan Möminə Xatun türbəsi və Naxçıvan Xan Sarayı ziyarət edilib, "Əcəmi" seyrəngahında yerləşən açıq səma altındakı muzeyin eksponatlarına baxış keçirilib, xanlıqlar dövrünə aid zəngin maddi-mədəni irs nümunələri ilə tanışlıq olub.

Proqram çərçivəsində Leyla Əliyeva, Arzu Əliyeva və ailə üzvləri Naxçıvan şəhərində sağlamlıq imkanları məhdud uşaqlar üçün fəaliyyət göstərən Naxçıvan Uşaq Bərpa Mərkəzinə baş çəkiblər. Onlar burada mərkəzin müxtəlif bölmələri ilə tanış olaraq tibbi reabilitasiya və uşaqlara göstərilən xidmətlərlə yerində maraqlanıblar. Leyla Əliyeva tərəfindən Uşaq Bərpa Mərkəzinə ayaq və əl reabilitasiyası üçün müxtəlif avadanlıqlar, o cümlədən "Robotic" reabilitasiya əlcəkləri, həmçinin miostimulyasiya və infraqırmızı terapiya cihazları hədiyyə olunub.

Günün sonunda Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında "Tağıyev: Neft" bədii filminin təqdimat mərasimi olub.

Qeyd edək ki, Bakı Media Mərkəzinin istehsalı olan "Tağıyev: Neft" filmi dahi xeyriyyəçi Hacı Zeynalabdin Tağıyevin həyat hekayəsinə həsr olunan "Tağıyev" filminin birinci hissəsidir.

***XQ***

# Milli elmimizin 100 yaşlı kitabxanası

**Qarşıdan Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Mərkəzi Elmi Kitabxanasının bir əsrlik yubileyi gəlir. Bu böyük bilik məbədinin direktoru, texnika elmləri doktoru Hüseyn Hüseynovla söhbətimiz də elə bu barədədir.**



***– Hüseyn müəllim, Mərkəzi Elmi Kitabxana Azərbaycanın sayılıb-seçilən kitabxanalarından biridir. Burada milli və dünya əhəmiyyətli zəngin fond toplanıb. İstərdim ki, Mərkəzi Elmi Kitabxananın dünəni, bugünü və perspektivləri barədə məlumat verəsiniz.***

– Əvvəla xatırladım ki, bu il Mərkəzi Elmi Kitabxananın 100 yaşı, həm də akademiyamızın 80 illiyi qeyd olunur. Məlumdur ki, Mərkəzi Elmi Kitabxana ilk olaraq biblioqrafiya bürosu kimi 1923-cü ildə "Tətbiq və Tədqiqat" cəmiyyətinin tərkibində yaradılmışdır. Lakin 1925-ci ildən etibarən artıq bu büro "Kitabxana" statusunu almış və o vaxtdan etibarən kitabxana kimi fəaliyyət göstərməyə başlamışdır. O zaman kitab fondumuz cəmi 450-yə yaxın idi. Hazırda isə 1,5 milyon nüsxəyə yaxındır.

Kitabxanamız ən böyük elmi ədəbiyyat məbədidir. Nəşrlər Azərbaycan dilində ədəbiyyat, xarici dillərdə ədəbiyyat, Qarabağ müharibəsi qəhrəmanları, nadir kitablar və digər fondlarda saxlanılır. Bundan əlavə, dövlətçiliklə bağlı materiallar Heydər Əliyev və Azərbaycan dövlətçiliyi şöbəsində toplanır. Müxtəlif sahələri əhatə edən bu ədəbiyyatlar oxucuların istifadəsinə açıqdır.

Ötən illər ərzində kitabxanamız böyük inkişaf yolu keçib. Bilirsiniz ki, hazırda əyləşdiyimiz bu bina möhtərəm Prezidentimizin iştirakı ilə 2014-cü ildə istifadəyə verilib. Burada oxucular üçün müasir şərait yaradılıb və hazırda kitabxanamızda elektronlaşma istiqamətində çox sürətli işlər həyata keçirilir. Düşünürəm ki, bu sahədə yaxın gələcəkdə oxucularımız üçün sevindirici yeniliklər olacaq.

Fəaliyyətimiz yalnız oxuculara xidmətlə məhdudlaşmır. Digər önəmli fəaliyyət sahələrimiz də var. Belə ki, AMEA Rəyasət Heyətinin qərarı ilə görkəmli alimlərimizin biblioqrafiyalarının hazırlanması və nəşri Mərkəzi Elmi Kitabxanaya tapşırılıb. Təkcə 2024-cü ildə 25 adda belə biblioqrafiya hazırlanıb. Bundan başqa, əməkdaşlarımızın bir neçə şəxsi kitabı da çap olunub.

***– Buranın gözəl interyeri, rahatlığı var. Mənə elə gəlir ki, bir oxucu üçün vacib şərtlərdən biri də kitabxanada özünü rahat hiss etmək və burada oxumağa həvəsli olmaqdır. Bəs, oxucu axını ilə bağlı vəziyyət necədir? Bilirik ki, bu gün ölkəmizdə mütaliə səviyyəsi, xüsusilə, gənclər arasında, əvvəlki dövrlərlə müqayisədə o qədər də yüksək deyil...***

– Düzü, mən də bu göstəriciləri müsbət qiymətləndirmirəm. Kitabxanaya marağın artırılması, xüsusən, gənclər arasında mütaliə mədəniyyətinin təşviqi üçün hələ görüləsi çox iş var. Biz də müxtəlif tədbirlərlə oxucu cəlbinə nail olmağa çalışırıq. Onu da qeyd etmək lazımdır ki, son vaxtlar müsbət bir inkişaf tendensiyası yaranıb. Kitabxanamızda oxucu sayı tam qənaətbəxş olmasa da, bu sahədə müəyyən artım müşahidə edilir.

Siz düzgün vurğuladınız ki, ümumilikdə, cəmiyyətimizdə kitab oxumağa maraq azalıb. Bunun obyektiv və subyektiv səbəbləri var. Sosial şəbəkələrin təsiri, elektronikanın inkişafı və texnologiyaya meyil bu marağın azalmasında mühüm rol oynayır. Amma biz də bu dəyişikliklərə uyğunlaşmağa çalışırıq. Əgər oxucular artıq ənənəvi formada kitab oxumaq istəmirlərsə, o zaman biz də elektron kitabxana formatını inkişaf etdirməliyik. Mən deyərdim ki, bu sahədə müəyyən irəliləyiş var. Elektron resurs bazamız daim yenilənir və tədqiqatçılar üçün onlayn rejimdə əlçatandır. Yəni burada həm humanitar, həm də təbiət və dəqiq elmlərin hər birindən ixtisas fondlarımız mövcuddur. 2024-cü ilin sentyabrın 25-i Mərkəzi Elmi Kitabxana tərəfindən ictimaiyyət üçün "Elektron Kitabxana" platforması təqdim olundu. Bu, çox ciddi bir layihədir və biz artıq bu ildən öhdəlik götürmüşük ki, AMEA-nın tabeliyində olan bütün kitabxanaları mərhələli şəkildə elektronlaşdıracağıq. Bu istiqamətdə artıq praktik fəaliyyətə başlamışıq. İlkin mərhələdə Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, Fəlsəfə və Sosiologiya İnstitutu seçilib və həmin institutların kitabxanalarının elektronlaşdırılması prosesi start götürüb. Bu, çox vacib bir mərhələdir, çünki elmi biliklərin sürətli ötürülməsi və informasiya mübadiləsi günün əsas tələblərindəndir.

Oxucular üçün daha əlçatan və rahat kitabxana mühiti yaratmaqla yanaşı, elmi tədqiqatlara da yeni nəfəs gətiriləcək. Bir yenilik də budur ki, bizdə artıq kitab sifarişləri saat 16:30-a qədər deyil, saat 20:00-a qədər qəbul olunur. Bu da oxucular üçün daha əlverişli şərait yaradır və onların kitabxanaya gəlmək istəyini artırır. Bundan əlavə, bildiyimiz kimi, bizim kitabxana ödənişli əsaslarla fəaliyyət göstərir. Lakin AMEA əməkdaşları, təqaüdçülər, qazilər və şəhid ailələri üçün bu xidmətlər tamamilə ödənişsizdir. Bununla yanaşı, artıq 1 ildir ki, hər ayın ilk iki iş günü "Açıq qapı" günləri keçiririk. Həmin günlərdə kitabxanadan istifadə hamı üçün tam ödənişsizdir. Bu cür təşəbbüslər də oxucu sayının artmasına müsbət təsir göstərir. Məqsədimiz kitabxana xidmətlərini maksimum əlçatan etməkdir.

***– Ümumiyyətlə, Mərkəzi Elmi Kitabxana elmi resurslar fondunu hansı prinsiplə genişləndirir?***

– Qeyd etdiyim kimi, Mərkəzi Elmi Kitabxanada elmin bütün sahələri üzrə nəşrlər var. Buraya təbiət elmləri, texniki elmlər, humanitar və ictimai elmlər, tibb, kənd təsərrüfatı və digər istiqamətlər daxildir. Artıq biz kitab alışını planlaşdırarkən tələbələrin üstünlük verdiyi sahələri nəzərə alırıq. Yəni hansı sahəyə tələbat çoxdursa, həmin istiqamətdə kitabların daha çox alınmasına üstünlük verilir. Bunun üçün xidmət şöbəmizdə xüsusi anketlər var. Əgər hansısa nəşr kitabxanamızda yoxdursa, şöbə həmin sorğunu qeydiyyata alır. Bu məlumatlar sistemli şəkildə toplanır və kitab alışı zamanı oxucuların arzularına uyğun seçimlər edilir.

Bu yaxınlarda bizim metodik şöbənin təşəbbüsü ilə AMEA-nın tabeliyində olan kitabxanaların əməkdaşları üçün təlimlər təşkil olundu. Hətta Fövqəladə Hallar Nazirliyinin Akademiyasının kitabxanasından da müraciət oldu və onlar da təlimlərdə iştirak etdilər. Bu da onu göstərir ki, kitabxanalararası əməkdaşlıq getdikcə genişlənir.

***– Mərkəzi Elmi Kitabxananın beynəlxalq elmi bazalara çıxış imkanları hansı səviyyədədir?***

– Kitabxanamızın xarici elmi bazalara çıxışı əvvəllər, demək olar ki, yox səviyyəsində idi. Amma bu sahədə də ciddi dönüş baş verib. Xüsusilə qeyd etdiyim kimi, 2024-cü ilin sentyabr ayında "Elektron Kitabxana" layihəsinin təqdimatı zamanı artıq dünyanın 84 kitabxanasına birbaşa keçid imkanı yaradılmışdı. Oxucularımız kitabxananın elektron zallarında oturaraq həmin xarici elmi resurslardan istifadə edə bilirlər. Daha bir sevindirici hal odur ki, bu gün həmin rəqəm 300-ə yaxınlaşıb. Yəni dünyanın 300-dən çox elmi kitabxanasına, universitet və akademik resurslara birbaşa giriş imkanı mövcuddur. Bu sırada yalnız xarici resurslar deyil, ölkəmizdəki aparıcı ali təhsil müəssisələrinin, məsələn, ADA Universiteti, Bakı Dövlət Universiteti və digərlərinin kitabxanaları da bu sistemə inteqrasiya olunub.

***– Süni intellekt bu gün elmin bir çox sahələrində tətbiq olunur və artıq geniş yayılıb. Kitabxanaçılıq və biblioqrafiya sahəsində necə, bu imkanlardan istifadə olunurmu?***

– Hələlik, bizdə bu texnologiyalar birbaşa tətbiq olunmur. Elektronlaşma prosesi hələ yenicə başlayıb və bu sahədə bir sıra texniki yenilənmələr, o cümlədən server sisteminin yenilənməsi həyata keçirilir. Lakin bu o demək deyil ki, süni intellekt imkanları nəzərə alınmır. Əksinə, bu sahədə konkret planlarımız var və düşünürəm ki, yaxın gələcəkdə süni intellekt əsaslı texnologiyaların tətbiqinə də başlanacaq. Bu, həm axtarış sistemlərinin təkmilləşməsi, həm oxucu davranışlarının analizi, həm də biblioqrafik məlumatların avtomatlaşdırılması baxımından çox faydalı olacaq.

***– Digər yeniliklər nədən ibarətdir?***

– Məsələn, biz Mərkəzi Elmi Kitabxana olaraq yeni bir layihəyə start vermişik – "İnklüziv Kitabxana" layihəsinə. Bu çərçivədə artıq səsləndirilmiş kitablar hazırlanır. Könüllülərin iştirakı ilə "Səsli kitablar" adlı layihə də həyata keçirilir. Diksiya uyğunluğu baxımından seçilmiş könüllülər müəyyən kitabları səsləndirir və bu kitablar sayta yerləşdiriləcək. Yaxın vaxtlarda görmə imkanları məhdud olan oxucularımız sayt üzərindən həmin kitabları rahatlıqla dinləyə biləcəklər. Əslində, bu təkcə onlar üçün deyil. Elə insanlar da var ki, işə gedərkən, uzun yol gedərkən oxumağa vaxtı olmur – bu halda kitabları audioversiyada dinləmək böyük rahatlıq gətirəcək. Nəticə olaraq, biz kitabı oxucuya yaxınlaşdırmalıyıq. Həm fiziki, həm də virtual şəkildə. Oxucunu gözləmək yox, ona doğru getmək dövrüdür artıq.

Eyni zamanda, biz Mərkəzi Elmi Kitabxana olaraq, fəaliyyətimizi zamanın çağırışlarına sürətlə uyğunlaşdırmaq üçün dünyanın müxtəlif ölkələrindən qonaqları qəbul edir, təcrübə mübadilələri aparırıq. Baxın, əyləşdiyimiz bu zalda "Diplomatik guşə" adlandırdığımız xüsusi bölmə mövcuddur. Burada 40-a yaxın ölkə əhatə olunub. Ən sonuncu guşəmizi Şimali Kipr Türk Cümhuriyyətinə həsr etmişik. Həmin guşənin açılışı AMEA-nın prezidenti, akademik İsa Həbibbəylinin rəhbərliyi ilə Şimali Kipr Türk Cümhuriyyətinin səfiri və təhsil nazirinin iştirakı ilə həyata keçirilib.

***– Bu yaxınlarda Nobel mükafatı laureatı Əziz Sancar da kitabxananın qonağı olub...***

– Bəli, Əziz Sancar akademiyamızın rəhbəri İsa müəllimin dəvətilə Azərbaycana bir həftəlik səfərə gəlmişdi. AMEA-da bununla bağlı xüsusi tədbir keçirildi, eyni zamanda, dünya şöhrətli alim fəxri üzv seçildi. Çox sevindirici haldır ki, Əziz Sancar kitabxanamızı da ziyarət edərək yaxından tanış oldu. Ən çox Qarabağ müharibəsi qəhrəmanları fondundan təsirləndi. Öz istəyilə həmin fondun qarşısında şəkil də çəkdirdi.

***– Sizə 100 illik yubiley ilində və sonrakı dövrdə daha böyük uğurlar diləyirik!***

– Çox sağ olun!

***Müsahibəni qələmə aldı:***
***Anar TURAN***
***XQ***

# Rəqəmsal savadlılıq və texnoloji cəmiyyət

## *Bu mövzuda maarifləndirmə həyatın bütün sahələrini əhatə edir*

**Müsahibimiz Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin İnformasiya Texnologiyaları İnstitutunun Tədris-İnnovasiya Mərkəzinin rəhbəri, texnika üzrə fəlsəfə doktoru Rəsmiyyə Mahmudovadır.**



**– Rəqəmsal savadlılıq nəyə görə hazırda cəmiyyət üçün bu qədər önəmli hesab olunur? Bu qabiliyyət insanların gündəlik həyatına necə təsir göstərir?**

– Biz hazırda informasiyanın sürətlə yayıldığı, xidmətlərin getdikcə rəqəmsallaşdığı bir dövrdə yaşayırıq. Belə bir şəraitdə insanların texnologiyanı düzgün, təhlükəsiz və məqsədyönlü şəkildə istifadə edə bilməsi yalnız şəxsi inkişaf üçün deyil, eyni zamanda, milli təhlükəsizlik və ictimai rifah üçün də həyati əhəmiyyət daşıyır.

Rəqəmsal savadlılıq, insanların yalnız kompüter və İnternetdən istifadə bacarıqları deyil, həm də lazımi informasiyanı axtarıb tapmaq, informasiya resurslarını təhlil etmək, saxta xəbərləri ayırd etmək, kibertəhlükələrdən qorunmaq və onlayn etik davranış qaydalarına əməl etmək bacarığıdır. Mütəxəsislər bunları XXI əsrin yeni "oxuma-yazma" bacarıqları da adlandırırlar.

Məsələn, COVID-19 pandemiyası dövründə dünyanın bir çox ölkəsində təhsil və iş prosesləri onlayn mühitə keçdi. Azərbaycanda da tələbələr, müəllimlər və bir sıra dövlət orqanlarının əməkdaşları "Microsoft Teams", "Zoom", "e-təhsil" kimi platformalardan istifadə etməyə başladılar. Bu, onların rəqəmsal savadlılıq səviyyəsini aktuallaşdırdı. Bəzi insanlar bu prosesə tez uyğunlaşdılar, lakin yaşlı nəslin nümayəndələri və regionlarda yaşayanlar çətinliklərlə üzləşdilər. Bu, əhalinin rəqəmsal savadlılığının nə qədər vacib olduğunu göstərdi.

Digər tərəfdən, bu gün bank xidmətlərindən tutmuş, vergilərin ödənilməsinə, hətta həkim qəbuluna yazılmağa qədər bir çox proseslər onlayn müstəviyə keçib. ASAN Xidmət, Elektron Hökumət kimi platformalar vətəndaşlara rahatlıq təqdim etsə də, bu imkanlardan faydalana bilməyən insanlar cəmiyyətdə geri qalırlar. Bunun əsas səbəbi onların rəqəmsal bacarıqlarının yetərli olmamasıdır.

Dünya miqyasında aparılmış araşdırmalara əsasən, UNESCO və OECD qeyd edir ki, 2030-cu ilə qədər peşələrin 90 faizi rəqəmsal bacarıqlar tələb edəcək. Bu o deməkdir ki, əmək bazarında rəqabətədavamlı olmaq üçün hər bir fərd bu bacarıqlara yiyələnməlidir.

Eyni zamanda, rəqəmsal savadlılıq informasiya təhlükəsizliyini təmin etmək baxımından da əhəmiyyətlidir. Kibercinayətlərin, fırıldaqçılıq hallarının artması göstərir ki, texnologiyadan düzgün istifadə qaydaları ilə bağlı maarifləndirmə əvvəlki dövrlərlə müqayisədə daha vacibdir. Məsələn, Azərbaycanda son zamanlar bir sıra vətəndaşlar aldadıcı telefon zəngləri, SMS-lər və fişinq məktubları vasitəsilə aldadılaraq bank hesablarından pul itiriblər. Əgər bu şəxslər rəqəmsal təhlükəsizlik qaydalarını bilsəydilər, bu cür hadisələrin qarşısı alına bilərdi.

Digər tərəfdən, rəqəmsal savadlılıq sosial şəbəkələrdə yayılan dezinformasiyaya qarşı immunitet kimi də çıxış edir. İnsanlar hər hansı bir məlumatı qəbul etməzdən əvvəl onu təhlil etməyi, mənbəsini yoxlamağı və tənqidi düşünməyi bacarmalıdırlar. Bu, gənc nəslin formalaşdırılmasında xüsusilə vacib rol oynayır.

Bir sözlə, rəqəmsal savadlılıq hər bir fərd üçün vacibdir – istər tələbə, istər müəllim, istər həkim, istərsə də sahibkar olsun. Bu, yalnız texnoloji yeniliklərə uyğunlaşmaq baxımından deyil, həm də müasir cəmiyyətdə fəal iştirak etmək üçün zəruridir. Nəzərə almaq lazımdır ki, rəqəmsal savadlılıq texnoloji cəmiyyətin inkişafının və təhlükəsizliyinin əsasını təşkil edir

**– Mütəxəssislər hesab edirlər ki, rəqəmsal savadlılıq kiçik yaşlardan başlayaraq formalaşdırılmalıdır. Necə düşünürsünüz, bunun üçün uşaqlara və gənclərə hansı əsas bacarıqları öyrətmək lazımdır?**

– Müasir dövrdə uşaqlar və gənclər, demək olar ki, texnologiya ilə sıx ünsiyyət şəraitində böyüyürlər. Onlar informasiyanı qəbul edir, sosial şəbəkələrdə əlaqələr qurur, onlayn təhsil platformalarında biliklər əldə edir və gündəlik həyatlarında rəqəmsal alətlərdən geniş yararlanırlar. Bu səbəbdən, onlara rəqəmsal savadlılıq bacarıqlarının öyrədilməsi təkcə təhsilin deyil, həm də təhlükəsizliyin təmin olunması baxımından son dərəcə vacibdir.

İlk növbədə, uşaqlara İnternetdəki faydalı və ziyanlı məzmunları müəyyən etməyi, tanımadıqları insanlarla şəxsi məlumatları paylaşmamağı və onlayn davranış qaydalarına əməl etməyi öyrətmək lazımdır. Məsələn, kiberzorakılıq halları ilə bağlı yeniyetmələr tez-tez psixoloji gərginlik hallarını yaşaya bilərlər. Belə halların qarşısının alınması üçün onların daxili güvəni artırılmalıdır və müdafiə mexanizmləri gücləndirilməlidir.

Gənclər bilməlidirlər ki, ad, soyad, yaş, məktəb, şəkillər və s. kimi şəxsi məlumatların kimə və necə təqdim edilməsi təhlükəli ola bilər. Onlara “Paylaşdığın hər bir şey iz qoyur” prinsipi, informasiya təhlükəsizliyi öyrədilməlidir. Bu, onların şəxsi həyatlarını və gələcək karyeralarını da qoruyacaq.

İnternetdə yayılan hər bir məlumat doğru olmaya bilər. Ona görə də gənclərə dezinformasiyanı ayırd etməyi, məlumatları yoxlamağı və tənqidi yanaşmanı öyrətmək vacibdir. Sosial şəbəkələrdə tez-tez yayılan saxta xəbərlər onların dünyagörüşünə təsir göstərə bilər. Bu məqsədlə “məlumatı qəbul etməzdən əvvəl araşdır” prinsipi formalaşdırılmalıdır.

Uşaqlara təkcə “istehlakçı” deyil, həm də yaradıcı olmaq öyrədilməlidir. Bu, rəqəmsal təqdimatlar hazırlamaqla, həmçinin blog və video-kontent yaratmaqla mümkündür. Rəqəmsal dizayn, montaj və təqdimat bacarıqları onların indiki və gələcək peşə fəaliyyətlərində mühüm rol oynaya bilər.

Eyni zamanda, proqramlaşdırmanın əsaslarının tədrisi də mühüm yer tutur. Scratch, Python və ya HTML kimi sadə kodlaşdırma bilikləri uşaqlarda analitik düşüncəni və problem həlletmə bacarığını inkişaf etdirir. Texnologiyanın necə işlədiyini anlamaq onlara müasir dünyaya daha asan uyğunlaşmaq imkanı verir.

Son olaraq, uşaqlara və gənclərə kiberhücumlara qarşı müdafiə üsulları öyrədilməlidir. Onlara etibarlı parollar yaratmaq, şübhəli mənbələrə keçid etməmək, proqramları vaxtında yeniləmək və antivirus proqramlarından istifadə qaydaları praktiki şəkildə izah olunmalıdır. Bu, onların rəqəmsal mühitdə özlərini daha güvənli hiss etmələrinə şərait yaradacaq.

Nəticə olaraq, bu bacarıqlar yalnız məktəb təhsili üçün deyil, həm də gündəlik həyat üçün faydalıdır. Gənclər artıq rəqəmsal dünyada böyüyürlər və bu biliklər onların həm təhlükəsizliyini təmin edəcək, həm də rəqəmsal dünyada özlərini daha inamlı hiss etmələrinə kömək edəcək.

**– Azərbaycanın rəqəmsal savadlılıq səviyyəsi haqqında nə deyə bilərsiniz? Əhalinin rəqəmsal savadlılığının artırılması istiqamətində dövlət tərəfindən hansı işlər görülür?**

– Azərbaycanda texnologiya ilə ayaqlaşan, yeni cihazları və proqramları sürətlə mənimsəyən, internetdə aktiv olan, əsasən, orta və gənc nəsildən ibarət olan böyük bir əhali təbəqəsi mövcuddur. Onlar üçün rəqəmsal dünya artıq həyat tərzinin ayrılmaz bir parçasıdır. Sosial şəbəkələrdə ünsiyyət qurmaq, onlayn alış-veriş etmək, müxtəlif rəqəmsal xidmətlərdən istifadə etmək onlar üçün adi bir haldır. Əhalinin texnoloji cəhətdən fəal təbəqəsi smartfonlardan təkcə ünsiyyət üçün yox, həm də sənəd göndərmək, ödəniş etmək, xidmət sifariş vermək üçün istifadə edirlər. Bu, böyük irəliləyişdir.

Amma gəlin etiraf edək ki, bu inkişaf ölkə və sosial qruplar üzrə bərabər səviyyədə getmir – şəhərlə kənd arasında, gənc və yaşlı nəsil arasında müəyyən fərqliliklər hələ də qalır. Cəmiyyətin bir hissəsi bu dəyişikliyə çevik şəkildə uyğunlaşır, amma bəzi təbəqələr – xüsusilə də yaşlı nəsil, kənd yerlərində yaşayanlar və sosial baxımdan həssas qruplar bu prosesdə bir qədər geridə qalır.

Dövlət bu sahədəki gerilikləri və qeyri-bərabərlikləri aradan qaldırmaq üçün mühüm, səmərəli addımlar atır. Son illərdə bu istiqamətdə xeyli iş görülüb. Dövlət tərəfindən, "rəqəmsal inkişaf" prioritet istiqamət kimi müəyyən edilib və bu sahəyə əhəmiyyətli investisiyalar yatırılıb. İnternet infrastrukturu gücləndirilib, ölkə əhalisinin 80 faizindən çoxu genişzolaqlı İnternet xidmətlərindən istifadə edir. Mobil İnternet istifadəçilərinin sayı isə maksimum həddədir. Yəni əhali 100 faiz mobil İnternetlə təmin olunub.

ASAN Xidmət və DOST mərkəzləri rəqəmsallaşmada, vətəndaşların rəqəmsal bacarıqlarının artırılmasında böyük rol oynayır. İnsanlara elektron hökumət xidmətlərindən istifadə qaydaları öyrədilir. İstəyirsən şəxsiyyət vəsiqəsini yenilə, istəyirsən pensiya üçün müraciət et – artıq bunların əksəriyyətini kompüter arxasından etmək mümkündür və vətəndaşa bunları necə etmək lazım olduğu da izah edilir.

Azərbaycan Respublikası Prezidentinin 16 yanvar 2025-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasında Rəqəmsal İnkişaf Konsepsiyası” da əhalinin rəqəmsal savadlılığının artırılması baxımından mühüm əhəmiyyətə malikdir. Bu sənəd, əslində gələcəyin rəqəmsal cəmiyyətini formalaşdırmaq üçün yol xəritəsidir və burada əhalinin rəqəmsal savadlılığı məsələsi mərkəzi yer tutur.

Bu konsepsiya rəqəmsal savadlılığı, sadəcə, bir hədəf kimi yox, davamlı inkişafın əsas şərti kimi qəbul edir. Yəni rəqəmsal texnologiyaların inkişaf etdirilməsi nə qədər vacibdirsə, cəmiyyətin bu texnologiyalardan təhlükəsiz, şüurlu və bacarıqlı istifadə etməsi bir o qədər zəruridir. Burada dövlətin əsas məqsədi yalnız internet və avadanlıqları əhaliyə təqdim etmək yox, o texnologiyanı dərk edən və ona uyğunlaşa bilən vətəndaş modeli yaratmaqdır.

Konsepsiyada açıq şəkildə göstərilir ki, rəqəmsal bacarıqların inkişafı əmək bazarının gələcəyi üçün həyati əhəmiyyət daşıyır. Süni intellekt, avtomatlaşdırma, rəqəmsal xidmətlər – bunların hamısı yeni peşələr, yeni bacarıqlar tələb edir. Konsepsiya bu dəyişikliklərə uyğun olaraq əhalinin təlim proqramları ilə əhatə olunmasını, xüsusilə də gənclər, müəllimlər, dövlət qulluqçuları və digər hədəf qruplarını rəqəmsal təlimlərə cəlb edilməsini nəzərdə tutur.

Digər mühüm məsələ regional bərabərlikdir. Konsepsiyanın əsas istiqamətlərindən biri odur ki, şəhərdə yaşayan vətəndaşla kənddə yaşayan vətəndaş arasında texnoloji imkanlar baxımından fərq minimuma endirilsin. Bu həm internet infrastrukturu ilə, həm də yerli əhali üçün rəqəmsal təlimlərin təşkili ilə həyata keçirilir. Məsələn, ASAN könüllüləri və DOST mərkəzləri bu sahədə əhəmiyyətli rola malikdir.

Konsepsiyada həm də kibertəhlükəsizlik və fərdi məlumatların qorunması məsələsinə yer ayrılır. Yəni vətəndaş yalnız texnologiyadan istifadə etməyi yox, özünü bu mühitdə necə qorumalı olduğunu da öyrənməlidir.

Rəqəmsal transformasiyanın uğurla həyata keçirilməsi birbaşa əhalinin və mütəxəssislərin rəqəmsal hazırlığından asılıdır. Konsepsiyada əhalinin rəqəmsal savadlılığının, kibermәlumatlılığının artırılması, müasir İKT mütəxəssislərinin hazırlanması və kadr potensialının gücləndirilməsi kimi tədbirlərin nəzərdə tutulması strateji uzaqgörənliyin göstəricisidir. Bu sənəddə Azərbaycanda rəqəmsal inkişafın əsas prioritetlərindən biri kimi kadr hazırlığı və rəqəmsal bacarıqların artırılması vurğulanır.

**– Rəqəmsal savadlılıqla bağlı cəmiyyətin maarifləndirilməsi üçün hansı uğurlu nümunələri və ya layihələri qeyd edə bilərsiniz?**

– Rəqəmsal savadlılıq elə bir məsələdir ki, bu sahədə maarifləndirmə işləri təkcə sinif otaqlarında yox, parklarda, metroda, sosial şəbəkələrdə, televiziyada, kənd kitabxanalarında da aparılmalıdır. Yəni məqsəd odur ki, bütün cəmiyyət – gəncdən yaşlıya, kəndlidən şəhərliyə kimi hər kəs bu prosesin içində olsun. Sevindirici haldır ki, son illərdə Azərbaycanda bu sahədə uğurlu və yaradıcı təşəbbüslərin sayı artıb.

Bu sahədə uğurlu dövlət təşəbbüslərindən biri “Rəqəmsal bacarıqlar” layihəsidir. Bu layihə Elm və Təhsil Nazirliyi ilə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin əməkdaşlığı ilə həyata keçirilir və artıq 300-dən çox məktəbdə tətbiq olunur. Məqsəd məktəblərdə uşaqlara təkcə kompüterdə işləməyi yox, həm də rəqəmsal düşüncəni, alqoritmik bacarıqları və texnologiyanın etik istifadəsini öyrətməkdir.

Daha bir uğurlu nümunə “ASAN İnnovasiyalar Mərkəzinin” və “İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin birgə keçirdiyi “Rəqəmsal gələcək” kampaniyasıdır. Bu kampaniya çərçivəsində regionlarda maarifləndirici seminarlar, uşaqlar və valideynlər üçün interaktiv təlimlər keçirilmişdir. Bu layihənin də məqsədi o idi ki, təkcə gənclər yox, bütün ailə rəqəmsal mühitə uyğunlaşsın.

Bundan əlavə, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Elektron Təhlükəsizlik Xidməti tərəfindən həyata keçirilən və Koreya Beynəlxalq Əməkdaşlıq Agentliyi tərəfindən dəstəklənən “Cyber Smart Ol” adlı təşəbbüs də təqdirəlayiqdir. Bu, məktəblilər və valideynlər üçün kibertəhlükəsizlik və rəqəmsal gigiyena mövzusunda keçirilən təlimlər silsiləsidir. Bu layihə ilə uşaqlar başa düşürlər ki, “İnternetdə hər paylaşım təhlükəsiz deyil”, “fərdi məlumatlar nədir” və ya “fişinq linkləri necə tanımaq olar”.

Cəmiyyətin daha geniş seqmentlərini əhatə edən təşəbbüslərdən biri də DOST Agentliyi və ASAN könüllülərinin təşkil etdiyi “Rəqəmsal Könüllü” proqramıdır. Bu proqram çərçivəsində gənclər yaşlı insanlara müasir rəqəmsal xidmətlərdən – məsələn, e-gov, ASAN ödəniş, onlayn müraciətlər – necə istifadə etməyi öyrədir. Bu, sadəcə texnoloji deyil, həm də cəmiyyətlərarası körpü qurmaq baxımından möhtəşəm təşəbbüsdür.

Sevindirici haldır ki, artıq media vasitələri də bu işə qoşulub. Hazırda bir çox telekanalda və İnternet resurslarındasa “rəqəmsal təhlükəsizlik”, “fake news”, “internetdə davranış etikası” kimi maarifləndirici rubrikalar və videolar yayımlanır. Bunlar cəmiyyətin geniş təbəqəsini əhatə edir və informasiyanı quru dil yox, əyləncəli və başa düşülən formada çatdırır.

Yeri gəlmişkən, “Xalq qəzeti”nin bu cür mövzulara xüsusi diqqət yetirməsi və tez-tez səhifələrində geniş yer ayırması da çox təqdirəlayiqdir.

Ümumiyyətlə, rəqəmsal savadlılıq məsələsi Azərbaycanda, sadəcə, “tədris proqramı” səviyyəsində deyil – artıq bir ictimai hərəkat səviyyəsinə qalxıb. Dövlət qurumları, gənclər təşkilatları, könüllülər və media əl-ələ verərək bu işə öz töhfələrini verirlər. Bu da onu göstərir ki, biz təhlükəsiz və rəqabətədavamlı texnoloji cəmiyyət quruculuğu yolundayıq.

***Müsahibəni aldı:***
***Səbuhi MƏMMƏDOV***
***XQ***

# Yenilikçi alim, təcrübəli pedaqoq

**Ölkənin elm və təhsil ictimaiyyəti tanınmış fizik, yenilikçi alim, təcrübəli pedaqoq Sadiq Xəlilovun 75 illik yubileyini qədirbilənliklə qeyd edir. Sadiq Xəlilov 1950-ci il aprelin 20-də Ağdam şəhərində müəllim ailəsində anadan olub. Valideynlərinin hər ikisi uzun illər Ağdam şəhəri 2 saylı beynəlmiləl orta məktəbində çalışıb. Atası Xosrov Xəlilov İkinci Dünya müharibəsindən qayıtdıqdan sonra həmin məktəbdə hərbi hazırlıq və idman dəslərini tədris edib. Anası Tərlan Xəlilova isə fizika riyaziyyat müəllimi olub.**

S.Xəlilov 1966-cı ildə Ağdam şəhəri 2 saylı beynəlmiləl orta məktəbi bitirib. Anasının fizika-riyaziyyat müəllimi olması onda dəqiq elmlərə maraq oyadıb. Bu səbəbdən də o, ali təhsilini də məhz elmin bu sahəsində almaq qərarına gəlib. 1966-cı ilin yayında sənədlərini o zamankı Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) fizika fakültəsinə verib. Qəbul imtahanlarından yüksək qiymətlər alan gənc Sadiq arzusuna qovuşub.

Universitet həyatı, sevdiyi ixtisas üzrə təhsil alması onu fakültənin ən fəal tələbələrindən birinə çevirib. Dərslərinə səylə hazırlaşan gələcəyin alimi universitetin ictimai işlərində də yaxından iştirak edib, fakültə komsomol təşkilatının rəhbəri olub. Çalışqanlığı, ictimai fəallığı, eləcə də yüksək ünsiyyət bacarığı və səmimiliyi onu müəllim və tələbə yoldaşlarının sevimlisinə çevirib. Respublikamızın tanınmış alimləri Eldar Məsimov, Niftalı Qocayev, Kəriş Köçərli və başqalarının sayəsində fizika elminin ayrı-ayrı sahələrinə dərindən bələd olub.

1971-ci ildə ali məktəbi müvəffəqiyyətlə bitirən Sadiq Xəlilov təyinatla Ağcabədi rayonunun Boyad kənd məktəbinə göndərilib. Burada çalışdığı müddətdə fizika və riyaziyyat dərslərini tədris etməklə yanaşı, öz üzərində çalışır, elmi-nəzəri biliklərini artırmağa daim səy göstərir. Sevimli müəllimi Kəriş Köçərlinin onu gələcəyin fizika alimi kimi görmək arzusunu, bir an da olsa, unutmur.

Bu istəklə də 1972-ci ildə qiyabi yolla BDU-nun fizika fakültəsinin aspiranturasına daxil olub və 4 illik aspirantura təhsili dövründə fizika sahəsində nəzəri və praktiki biliklərini artırmaq üçün gecə-gündüz, yorulmaq bilmədən çalışır. Elmi rəhbəri K.Köçərlinin tövsiyəsi ilə yarımkeçirici polimerlərin elektrik və dielektrik xassələrinin tədqiqi ilə məşğul olur. Apardığı elmi araşdırmalar və tədqiqat işləri öz müsbət nəticələrini verir.

Gənc tədqiqatçı 1979-cu ilin iyun ayında “Bərk polimer yarımkeçiricilərin elektrik və dielektrik xassələrinin tədqiqi” mövzusunda namizədlik dissertasiyasını uğurla müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsinə yiyələnir. Yeri gəlmişkən, aspirantura təhsili dövründə apardığı elmi araşdırmaların və tədqiqat işlərinin nəticələrinə dair bir sıra aktual mövzularda çoxsaylı elmi məqalələri Almaniya, Hollandiya, Fransa və Rusiyanın tanınmış jurnallarında dərc olunur.

Həmin illərdə elmi-tədqiqat işləri ilə yanaşı, pedaqoji fəaliyyətlə də məşğul olan S.Xəlilov fakültədə ixtisası üzrə saat hesabı dərs deyib. Tədqiaqatçı alim və təcrübəli pedaqoq kimi kafedra əməkdaşları, fakültə müəllimləri, eləcə də tələbələr arasında ad-san, nüfuz qazanıb.

O, 1972-ci ilin sentyabrından 1981-ci ilin sentyabrınadək Bakı Dövlət Universitetində ümumi fizika kafedrasında laborant, baş laborant və baş elmi işçi vəzifələrində çalışıb. 1981-ci ildən 2001-ci ilədək isə indiki Azərbaycan Texniki Universitetinin fizika kafedrasında assistent və dosent vəzifələrində işləyib.

2001-ci ildə yenicə yaradılmış Sumqayıt Dövlət Universitetinə tədris hissə müdiri kimi işə dəvət olunan Sadiq müəllim 2013-cü ilədək burada səmərəli elmi-peaqoji fəaliyyət göstərib. Yeri gəlmişkən, yenicə təşkil olunmuş bu ali təhsil müəssisəndə fizikanın tədrisi metodikası ilə məşğul olan ayrıca kafedra olmadığından həmin işin təşkili də məhz ona həvalə edilib. Universitet rəhbərliyinin bu etimadını yüksək səviyyədə doğruldan alim belə bir kafedranı yaradaraq uzun illər ona rəhbərlik edib. Kafedra müdiri kimi tədrisin yüksək səviyyədə təşkil məqsədilə bura savadlı, bacarıqlı kadrları dəvət edib.



2013-2014-cü tədris ilinin əvvəlində yenidən Azərbaycan Texniki Univeritetinə qayıdan Sadiq Xəlilov hazırda bu ali tədris ocağında mühəndis fizikası və elektronika kafedrasının dosenti kimi elmi-pedaqoji fəaliyyətini uğurla davam etdirir. Elm və təhsil sahəsində 45 illik uzun bir yol keçən Sadiq müəllim bu gün də təşəbbüskarlığı, yüksək təşkilatçılıq qabiliyyəti ilə seçilir, bu sahədə səmərəli fəaliyyət göstərir. Məhz onun təşəbbüsü və bacarığı sayəsində universitetdə yeni, orijinal işlərdən ibarət daha bir tədris laboratoriyası yaradılıb. Hazırda burada fizika və tətbiqi fizikanın bir sıra vacib məsləələri tədqiq olunur. Yeni laboratoriya, həm də tələbələrin ixtiraçılıq keyfiyyətlərinin formalaşdırılmasında, onlarda nəzəri biliklərin uğurla praktikada tətbiqində mühüm rol oynayır.

Tanınmış pedaqoq və yorulmaz tədqiqatçı alim Sadiq Xəlilov fizika elminin ayr-ayrı sahələrinə və onun tədrisinə dair 150-yə yaxın elmi əsərin müəllifidir. Bunların 101 elmi məqalə, 32-si elmi-metodik məqalə, 10-u patent, 7-si isə dərs vəsaitidir.

S.Xəlilovun fizika elmi sahəsində gənc kadrların yetişdirilməsinə verdiyi önəmli töhfələri, səmərəli elmi-pedaqoji fəaliyyəti dövlətimiz tərəfindən layiqincə qiymətləndirilib. O, 2010-cu ildə Azərbaycan Respublikası Təhsil Nazirliyinin “Qabaqcıl təhsil işçisi” döş nişanı ilə təltif edilib. 2012-ci ilin noyabr ayında isə Prezident İlham Əliyevin sərəncamı ilə “Əməkdar müəllim” fəxri adına layiq görülüb.

***Mirbağır YAQUBZADƏ***
***XQ***


## “Suraxanı Bazar” ASC-nin səhmdarlarının nəzərinə!

30 iyun 2025-ci il saat 11.00-da Bakı şəhəri, Suraxanı rayonu, Əmircan qəsəbəsi, M. Musatafayev küçəsi 7 nömrəli ünvanda “Suraxanı Bazar” ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

***Gündəlikdəki məsələlər:***

1. Cəmiyyətin 2024-cü il üzrə maliyyə-təsərrüfat fəaliyyəti haqqında hesabat.
2. Dividentin bölünməsi.
3. Digər məsələlər.

Yığıncağın gündəliyinə aid sənədlərlə cəmiyyətin yerləşdiyi Bakı şəhəri, Suraxanı rayonu, Əmircan qəsəbəsi, M.Musatafayev küçəsi 7 nömrəli ünvanda tanış olmaq mümkündür.

Yığıncaqda şəxsən və ya nümayəndə vasitəsilə iştirak etmək olar. Şəxsiyyət vəsiqəsi və etibarnamənin əslinin (nümayəndələr üçün) təqdim edilməsi zəruridir.

**Əlaqə nömrəsi – (055) 491-78-87.**

5 May Xalçaçı Günüdür

# Bakıda ilk Beynəlxalq Xalça Festivalı



**İçərişəhər, Qoşa Qala meydanında Beynəlxalq Xalça Festivalının açılışı olub. Festival "Azərxalça" ASC və "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı, Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi və Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun dəstəyi ilə keçirilir.**

Festivalda Azərbaycanla yanaşı, Türkiyə, İran, Qazaxıstan, Pakistan, Tatarıstan, Özbəkistan və bir çox digər ölkələrdən xalçaçılar, istehlakçılar, sənət adamları iştirak edirlər.

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarə Heyətinin sədri Rüfət Mahmud diqqətə çatdırıb ki, bu gün ilk Beynəlxalq Xalça Festivalının açılışı qeyd olunur.

"Bu, bir çox mədəniyyətləri qovuşduran, ənənəni və incəsənəti birləşdirən tədbirdir. Min illərlə tarixə şahidlik etmiş bu daş divarların olduğu məkanda xalça festivalının keçirilməsi xüsusi önəm daşıyır. Çünki İçərişəhərdə küçələrin özü, daşları, keçidləri, binaları xalça naxışları kimi bir-biri ilə bağlı, harmonik və mənalıdır. Buranın ruhunda xalça var, bura xalçaçılığın yaddaşıdır. Xalça bizim üçün, sadəcə, bir sənət nümunəsi deyil. O bizim yaddaşımız, kimliyimiz və tariximizdir. Onun içində nənələrimizin duaları, analarımızın arzuları, ustadlarımızın sənətə olan sevgisi yaşayır. İçərişəhər xalçaçılıq sənətinə dərin kökləri ilə bağlıdır. Tarixən bu şəhər xalçaların ticarət mərkəzlərindən biri olub, yerli ustalar öz sənətlərini nəsildən-nəslə ötürərək nadir kompozisiyalar yaradıblar. Festivalımız dünyanın müxtəlif ölkələrindən gələn sənətkarları bir araya gətirərək xalçaçılıq irsini qorumaq və gələcək nəsillərə ötürmək üçün mühüm bir platforma yaradır. İnanıram ki, bu festival yalnız sənəti deyil, dostluq və əməkdaşlıq ruhunu da toxuyacaq", – deyə o əlavə edib.

"Azərxalça" ASC-nin İdarə Heyətinin sədri, Əməkdar incəsənət xadimi Emin Məmmədov bildirib ki, bu il festivalın coğrafiyası genişlənib: "Biz artıq ənənəvi olaraq mayın əvvəlində görüşürük. Çünki Prezident İlham Əliyev tərəfindən 2016-cı ildə imzalanan Sərəncama əsasən Azərbaycanda mayın 5-i Xalçaçı Günü kimi qeyd olunur. Çox şadıq ki, belə bir bayram ərəfəsində biz ənənəvi festival keçiririk. Ötən il Milli Xalça Festivalı təşkil etdik. O gözəl uğurun davamı olaraq bu il Beynəlxalq Xalça Festivalına start verdik. Festivala müxtəlif ölkələrdən qonaqlar dəvət olunub. Hər birinizi İçərişəhərdə maraqlı və zəngin proqramlı festival gözləyir".



"Azərxalça"nın çox böyük təşkilat olduğunu deyən E.Məmmədov diqqətə çatdırıb ki, ölkə üzrə qurumun 14 emalatxanasında 500-dən çox toxucu fəaliyyət göstərir: "Azərxalça"nın unikallığı ondadır ki, burada çalışanların 85 faizi kənd qadınlarıdır və tədbir iştirakçıları festival günlərində o toxucuların özləri və toxuduqları xalçalarla tanış ola biləcəklər".

Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin (AZPROMO) icraçı direktoru Yusif Abdullayev bildirib ki, Azərbaycan xalçaçılıq sənəti əsrlər boyu dünya mədəniyyətinə öz töhfəsini verib: "Bu gün də həmin ənənələr davam etməkdədir. Festivalın təşkilində əməyi olanlara təşəkkür edirik".

Sonra festivalın bədii proqramı təqdim olunub.

Festivalın əyləncə proqramının əsas hissəsini canlı tamaşa təşkil edib. Görkəmli yazıçımız Mir Cəlal Paşayevin "Bir gəncin manifesti" romanından götürülən hekayə xalçanın əhəmiyyətini ailə şərəfi və mədəni irsimizin simvolu olaraq bir daha hər kəsə göstərib. Əsər bədii rəhbər Nigar Həsənzadənin quruluşunda və Xalq artisti Pərviz Məmmədrzayevin pantomimasında səhnəyə gətirilib və böyük maraqla qarşılanıb.

Qeyd edək ki, mayın 4-dək davam edəcək festivalın əsas məqsədi Azərbaycan xalçaçılıq sənətini dünya müstəvisində tanıtmaq, onun zəngin irsini və gələcək inkişaf perspektivlərini nümayiş etdirmək, dünya xalçaçılarının təcrübə və bacarıqlarından bəhrələnməkdir. Buna görə də festivalın proqramı zəngin və rəngarəngliyi ilə bütün yaş qruplarından olan qonaqların maraqlarına xitab edir. Festival çərçivəsində ziyarətçiləri sehrli əyləncə proqramı, rəngarəng konsertlər silsiləsi, açıq hava kinoteatrı və yerli brendlərlə sənətkarların iştirak etdiyi müxtəlif yarmarkalar gözləyir.

Festivala baş çəkən hər bir kəsi "Azərxalça" ASC-nin ölkənin müxtəlif istiqamətlərində fəaliyyət göstərən emalatxanalardan dəvət olunmuş 28 toxucu qadın xalçaçılıq sirlərini bölüşüb, ustad dərslərinə qonaq ediblər.

Festival İçərişəhərin UNESCO Ümumdünya İrs Siyahısına daxil edilməsinin 25, Azərbaycanın ənənəvi xalçaçılıq sənətinin UNESCO-nun Qeyri-Maddi Mədəni İrs Siyahısına daxil edilməsinin isə 15 illiyi ilə üst-üstə düşür.

# Danışan xalçalar aləmi

**Elə ki Yeni Yasamala gedirəm, gözüm rəssam dostum Taryeri axtarır, evdə olmayanda onun necəliyini soruşuram. O da biləndə ki, mən gəlmişəm, mütləq əmioğlugilə baş çəkir. Sonra da yaxınlıqdakı bağa çıxıb söhbətləşirik. Respublikanın Əməkdar rəssamı, Milli Xalça Muzeyinin şöbə müdiri Taryer Bəşirov Azərbaycan Dövlət İncəsənət İnstitutunda təhsil alıb. Bir müddət görkəmli xalçaçı-rəssam Lətif Kərimovun rəhbərliyi altında sənətin sirlərinə yiyələnib.**




Taryerin əsərləri dəfələrlə xarici ölkələrdə sərgi salonlarının bəzəyi olub və hazırda bir çox müzeylərdə göstərilir. Elə öz xalça muzeyimizə gedib onun əsərlərinə baxsanız, necə istedadlı sənətkar olduğunu yaxşı duyarsınız. Taryer həm də bu sənətin tarixini dərindən bilir və daim araşdırmalar aparır. Onun söhbətləri hər zaman tərəf-müqabilini bilgilərlə zənginləşdirir, duyğulandırır...

Əməkdar rəssam T.Bəşirov illərdir ki, yurdumuzun əsrarəngiz gözəlliyini, tarixini, abidələrini, görkəmli insanlarının portretlərini əlvan boyalarla xalçalara köçürür. Onun "Qarabağ Azərbaycandır – Zəfər" xalçası son illərdə işlədiyi çoxsaylı əsərləri arasında xüsusi yer tutur. Nadir xalça sənətkarın ordumuzun 44 günlük müharibədə möhtəşəm qələbəsinə hədiyyəsidir. Bu "xəritə"də Qarabağın hər bölgəsinin məşhur xalça fraqmengləri al-əlvan rənglərdə əksini tapıb. Əsərə baxdıqca ana-bacılarımızın ilmə diliylə sanki Vətən haqqında ürəklərində böyütdükləri arzularını görür və dinləyirsən.



"Tarixin salnaməsi" xalçası Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin 100 illiyinə həsr edilib və dərin mənalıdır. Xalçanın baş hissəsində H.Əliyevin məşhur "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam" sözləri verilib və bu fikir əsərin əsas qayəsini təşkil edir. Sənətkarın Heydər Əliyev Fondunun 20 illiyinə həsr etdiyi xalça da gözəl kompozisiyaya malikdir və zəngin milli ornamentlərlərlə bəzədilib.

Taryer Bəşirovun ən gözəl əsərlərindən biri "Türkün inancı, tarixin qazancı" xalçasıdır. Xalçada süjet baxımından bir qanunauyğunluq var. Ara sahəni təşkil edən zolaqlarda 6 müstəqil Türk respulikasının ərazisində aşkarlanan qayaüstü rəsmlər, bu rəsmlərin üstündə həmin xalqın ənənəvi xalçalarından bir nümunə və ən üst hissədə Pazırıx gülü elementi təsvir olunub. Xalçanın sol tərəfdən birinci zolağının aşağı hissəsində Azərbaycanın qədim Qobustan və Gəmiqaya qayaüstü rəsmləri təsvir olunub.

Xalçaçı-rəssamın "Müqəddəs üçlük" əsəri türklüyün qədim dövrünə həsr olunub. Üçlüyün məğzi "insan ruhunun Tanrıya – göyə, əməlinin yer üzərindəki həyata, cisminin isə torpağa aid olması" kimi qiymətləndirilib.

Taryer Bəşirov Xalq rəssamı Tahir Salahovun bir sıra əsərlərini uğurla xalçaya köçürüb. Bu əsərlər həm Tahir Salahov, həm də sənətsevərlər tərəfindən rəğbətlə qarşılanıb. Dahi bəstəkar Üzeyir Hacıbəyova həsr olunmuş xalça dəyərli sənət əsəridir. "Mstislav Rostropoviç" xalçası da bu qəbildəndir.



T. Bəşirov xalq sənəti növlərindən olan çətənin yaşadılması və inkişaf etdirilməsi yönündə də böyük əmək sərf edir. O, uzun illərin axtarışları nəticəsində çətənçilikdə özünəməxsus cığır açıb və "Bakısilsiləsi"ndən dəyərli əsərlər yaradıb. Onlardan biri də "İçərişəhər" adlanır. Onun işlədiyi ornamental və süjetli çətənlər bu fikri təsdiq edir.

Rəssam dostumla Xalçaçı Günü ərəfəsində söhbətimiz zamanı öyrəndim ki, yenə də daim axtarışda, yeni mövzularda eskizlər yaratmaqdadır. Onun dedikləri:

– Bu, elə bir sənət sahəsidir ki, bir gün də ayrı durmaq olmur. Son işlərimi də Vətənin ayrı-ayrı guşələrinin gözəlliklərinə həsr etmişəm. İki gün sonra Xalça muzeyində mənim eskizlərim əsasında işlənmiş "Naxçıvan" xalçasının kəsimi olacaq. Bu əsərdə təsvirlər "Mömünə xatun" türbəsinin fonunda işlənib. Düşünürəm ki, sənətsevərlər bəyənərlər.

Xalçaçıların peşə bayramı günündə rəssam dostuma bundan sonra da ürəyinin odu ilə çəkdiyi eskizlərin əriş-arğac ilmələr işığında yeni gözəl əsərlərə çevrilməsini və yaşarı olmasını arzulayıram!

***Səməd MƏLİKZADƏ***

Yeni kitablar

# "Tərcümə təcrübələri"

**Tanınmış qələm adamı, imzası oxuculara yaxşı tanış olan Seyfəddin Hüseynlinin "Tərcümə təcrübələri" adlı iri həcmli kitabının 1-ci cildi çapdan çıxıb və ədəbi cameənin diqqətini çəkib.**




Azərbaycan Yazıçılar Birliyi və Mətbuat Şurasının nəşrini dəstəklədiyi bu kitabda Amerika, Argentina, Çexiya, Çin, Fransa, İngiltərə, İsrail, İtaliya, Macarstan, Rusiya, Suriya, Türkiyə, Ukrayna, Yaponiya yazıçılarının hekayə, esse və söhbətlərindən seçmə nümunələr ana dilimizdə oxuculara təqdim edilib. Ümumilikdə 18 ölkədən 56 imzanı əhatə edən, 3 bölümdən ibarət kitabda 42 hekayə, 46 esse, 4 ədəbi söhbət var. Hekayələr və esselər sırasında Amerikadan Riçard Brotiqan, Kurt Vonnequt, Corc Feyfer, Argentinadan Xorxe Asis, Avstriyadan Tomas Bernhard, Çexiyadan İvan Kraus, Çindən Li Fu-yan, Xuanfu Şi, Fransadan Anatol Frans, Anna Qavalda, Mişel Turnye, İngiltərədən Cerom Klapka Cerom, Gilbert Kit Çesterton, Artur Konan Doyl, Piter Smit, İsraildən Etqar Keret, İtaliyadan Luici Pirandello, İtalo Kalvino, Canni Rodari, Alessandro Piperno, Renzo Olivanın əsərləri verilib.

Kitabı maraqla oxuyub qurtardıqdan sonra yazı-pozuya az-çox bələd olan bir oxucu kimi, əvvəl belə bir qənaətə gəldim ki, müəllif təvəzökarlıq edib, kitabın adı "Tərcümə təcrübələri" yox, tərcümə kimi ağır bir işə girişmək istəyənlər üçün "Tərcümə dərsləri" olsaydı, daha doğru sayılardı. Topludakı nümunələrdə görkəmli sənətkarların yaradıcılığı ilə bağlı dilimizə çevrilən əsərləri təkcə ədəbi yox, həm də köhnəlməyən, bu gün də öz dəyərini itirməyən bir əbədi sənət dərsləridir. Gənc yazarlar həmin ədəbi mətnləri diqqətlə oxusalar, əlbəttə, xeyli faydalanarlar. Həmin tərcümələrlə tanışlıq peşəkar, təcrübəli qələm ustaları üçün də maraqlı olar.

Ana dilimizə çevirdiyi hekayələrdə tərcüməçi həm də çox maraqlı seçim edib. Əvvəlcə oxucuda xoş ovqat yaradan nümunələr, sonra da oxuduqca mütəəssir edib kövrəldən ciddi mətnlər gəlir. Sanki xəbərdarlıq edirlər: " Güləndə də düşünüb kədərlənməyi bacaraq!"

Kitabın "Hekayələr" bölümündə dünya ədəbiyyatı klassiklərinin, eləcə də çağdaş nəsrin görkəmli nümayəndələrinin irili-xırdalı əsərlərindən nümunələr oxucuya təqdim edilir. Tərcüməçi dilimizə çevirdiyi mətnlərin mövzu rəngarəngliyinə, müəlliflərin fərdi yaradıcılıq xüsusiyyətlərini qoruyub saxlamağa xüsusi diqqət ayırıb. Topludakı bəzi mətnlərdə yeri gələndə oxucuya gərəkli izahların, şərhlərin çatdırılması da tərcüməçinin öz işinə məsuliyyətlə, ciddi yanaşmasından soraq verir. Bu da təsadüfi deyil. Seyfəddin Hüseynli neçə illərdir ki, AYB Tərcümə Mərkəzinin dərgisi olan "Dünya ədəbiyyatını"nın baş redaktorudur və onun redaktəsi ilə indiyədək qalın həcmli bu dərginin bir-birindən maraqlı neçə-neçə sayı oxucular tərəfindən rəğbətlə qarşılanıb.

İdeomatik ifadələr, koloritli atalar sözlərimiz, zərb-məsəllər, yarandığı gündən bəri indiyəcən köhnəlməyən ifadələr... Mətnləri maraqla mütaliə edən oxucu tərcüməçinin peşəkarlığı sayəsində həm də doğma ana dilinin zənginliyinin, dadının-duzunun həzzini duyur, şahidi olur.

Bir oxucu kimi, belə dəyərli kitabın növbəti cildlərini də intizarla gözləyir və bu yolda Seyfəddin Hüseynliyə uğurlar diləyirik!

***Aydın TAĞIYEV,***
***yazıçı-publisist***

*Tamaşa*

# Opera studiyasının "Altıncı mərtəbə"si

**Bakı Musiqi Akademiyasının Opera studiyasında tanınmış teatr xadimi, jurnalist və aktrisa Lalə Əliyeva-Klıçkovanın səhnələşdirdiyi, əsasən rusdilli tamaşıçılar üçün nəzərdə tutulan "Баку: сквозь вселенную" tamaşasının təqdimatı olub.**



Müstəqil "İki stul" teatr studiyasının yaradıcı heyətinin təqdim etdiyi yeni konsepsiyalı səhnə əsəri müəllifin novellaları və tanınmış yazıçı Meyxoş Abdullahın "Altıncı mərtəbə" hekayəsinin motivləri əsasında hazırlanıb. Layihənin prodüserləri Zaur Əliyev və Alyona Xarçenkodur. Rolları İsmayıl Əliyev, Anastasiya Lenkovskaya və İnqa Baxoldina ifa ediblər. Həqiqi sevginin nə olduğundan bəhs edən əsərin ideyası peşəkar quruluş və aktyor oyunu ilə tamaşaçıların marağına səbəb olub.

Qeyd edək ki, "İki stul" teatr studiyası bundan əvvəl "O dünyadan gələn qonaq" və "Meri Poppins" adlı tamaşaları da uğurla səhnəyə qoyub.

***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 90 (30783) 4 may 2025-ci il, bazar

İdman

## Qubada Avropa kubokunda 12 medal




Qubada yeniyetmə cüdoçular arasında Avropa Kuboku yarışı start götürüb.

Turnirin 1-ci günündə komandamız uğurla çıxış edərək medallar qazanıb.

Komandamızın hesabına qızıl medalları Anar Quliyev (50 kq), Zeyd Ələsgərov (60 kq), Nuranə Hacızadə (48 kq) yazdırıblar. Rəsul Əlizadə (55 kq), Fəxri Sahibzadə (66 kq), Leyla Ələkbərova (48 kq) gümüş medala sahib olublar. İbrahim Talıbov, Rza Xəlilli (hər ikisi 50 kq), Royal Qayıbov (60 kq), Hüseyn Hüseynov (66 kq), Xədicə Abdullayeva (44 kq) və Aysun Məmmədova (52 kq) bürünc medal əldə ediblər.

Mayın 4–də başa çatacaq yarışda 10 ölkədən 354 cüdoçu (213 oğlan, 141 qız) 16 çəki dərəcəsində mübarizə aparır.

## Uşaqların qaçış yarışı




**Dünya Uşaq Atletikası Günü münasibətlə Bakıda "KidsRunFest" adlı tədbir keçirilib.**

Yarışda 8-13 yaşlı 200-dən artıq uşaq mübarizə aparıb. Dənizkənarı Bulvar ərazisində keçirilən yarışda iştirakçılar müxtəlif məsafələrə qaçışda öz güclərini sınayıblar. Müxtəlif yaş kateqoriyalarında qızlar və oğlanlar arasında 600, 800, 1000 və 1200 metr məsafələr üzrə qaliblər müəyyənləşib.

***L.QURBANOVA***
***XQ***

## "Çətin məsələ" Qaxda



**Qax Dövlət Kukla Teatrında 2025-ci ilin repertuar planına daxil edilən Rafiq Şəməndərin "Çətin məsələ" əsəri əsasında səhnələşdirilən eyniadlı tamaşa üzərində məşqlər başa çatıb və tamaşaya ictimai baxış keçirilib.**

Teatrın baş rejissoru, Əməkdar artist Yusif Abdurahmanovun quruluş verdiyi tamaşada rolları Aynurə Abbasova, İlmar Abdullayev, Araz Mehrablı, Azər Kərimov, Cəbrayıl Quluşov və Elnarə Razıyeva ifa edirlər. Tamaşanın rəssamı Fidan Səbirli, musiqi tərtibatçısı Nicat Fətəliyevdir.



Yusif Abdurahmanov bildirib ki, kollektiv yeni tamaşa ilə həm teatrda, həm də rayonun kəndlərində uşaqlar qarşısında çıxış etməyi planlaşdırır.

Hazırda teatrda, eyni zamanda, builki repertuar plana daxil edilən digər tamaşa – Voymil Ramadanın "Balaca pəri" əsəri üzərində məşqlərə də başlanılıb.

***İlqar HƏSƏNOV,***
***XQ-nin bölgə müxbiri***

# Tovuzun pəhləvan qızı




**Tovuzun Kohnəqala kəndində anadan olan Elnurə 2015-ci ildə sərbəst güləş idman növü ilə məşğul olmağa başlayanda 13 yaşı var idi. Amma 3 il sonra, tovuzlu qız ilk dəfə olaraq Türkiyənin Qəbzə şəhərində keçirilən beynəlxalq turnirdə iştirak etdi və 3-cü yerə çıxdı.**

Sonralar iştirak etdiyi bütün yarışlarda uğurlu çıxışı ilə fərqlənən güləşçi 2019-cu ildə Türkiyə və Ukraynada keçirilən beynəlxalq yarışlarda ikinci yerə, İtaliyanın Faenza şəhərində yeniyetmə güləşçilər arasında Avropa çempionatında üçüncü yerə, Bakı şəhərində təşkil olunan XV Avropa Gənclər Yay Olimpiya Festivalında isə ikinci yerə layiq görülür. O, 2022-ci ilin martında Bolqarıstanda keçirilmiş güləş üzrə VII Avropa çempionatında uğurla iştirak edərək gümüş medal qazanır. Elnurə deyir: "O yarış xatirimdə daha böyük iz buraxıb. Çünki həmin yarışlardan sonra Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevlə idmançıların görüşündə mən də iştirak etdim. Cənab Prezidentimizin bizi təbrik etməsi, maraqlı və yaddaqalan söhbəti, tövsiyələri məni daha da ruhlandırdı.Təsadüfi deyil ki, 2024-cü ildə Avropa çempionatında 2-ci yeri, Bakıda hərbiçilər arasında isə birinci yeri tutaraq dünya çempionu oldum..."

Cari ilin mart ayında Elnurə Məmmədovanın həyatında daha bir unudulmaz hadisə baş verib. O, Albaniyanın paytaxtı Tirana şəhərində keçirilən sərbəst güləşçilərin yarışında bütün rəqiblərinə qalib gələrək qızıl medal qazanıb.

Bugünlərdə Tovuz Rayon İcra Hakimiyyətinin başçısı Məmməd Məmmədov güləşçi Elnurə Məmmədova ilə görüşüb. RİH başçısı görüş zamanı E.Məmmədovanı qələbə münasibəti ilə təbrik edib, ölkəmizdə idmana və idmançılara göstərilən diqqət və qayğıdan danışıb. Rayon rəhbəri qeyd edib ki, "tovuzlu idmançının Avropa çempionatında qələbə qazanması çox qürurverici bir haldır. Bu, həm də cənab Prezidentimizin ölkəmizdə idmana və idmanın inkişafına göstərdiyi hədsiz diqqət və qayğının nəticəsidir". O, bundan sonra da güləşçimizə işlərində və idman sahəsindəki fəaliyyətində uğurlar arzulayıb.

E.Məmmədova dövlət başçımızın idmana və gənclərə ayırdığı diqqət və qayğıya görə öz minnətdarlığını bildirib, bundan sonra da ölkəmizin və Tovuzun adını daim zirvələrə qaldıracağına söz verib.

Görüşün sonunda Elnurə Məmmədovaya Tovuz Rayon İcra Hakimiyyətinin Fəxri fərmanı və qiymətli hədiyyə təqdim olunub.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

# Lənkəranda "Peşə sərgisi"




**Lənkəranda cənub bölgəsi rayonlarının təhsil müəssisələrinin peşə təmayüllü təhsil alan şagirdlərin əl işlərindən ibarət "Peşə sərgisi" keçirilib.**

Sərgi Lənkəran-Astara Regional Gənclər və İdman İdarəsi, Lənkəran-Astara Regional Təhsil və Mədəniyyət idarələrinin təşkilatçılığı ilə ərsəyə gəlib.

Sərgidə dülgərlik, dərzilik, mebel ustası, aşpaz, kompüter operatoru, qənnadçı və digər peşələr üzrə şagirdlərin əl işlərini nümayiş etdirilib.

Sonda peşə təmayüllü siniflərin təşkilində və sərgidə fərqlənən qrup rəhbərləri, müəllim və şagirdlər təşəkkürnamələrlə təltif olunublar.

***Leyla HADİ,***
***tələbə***

HAVA

## Yağışlı bir bazar günü...

**Milli Hidrometeorologiya Xidmətindən məlumata bildirilib ki, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi, lakin 3-dən 4-nə keçən gecə və axşam bəzi yerlərdə yağış yağacağı gözlənilir. Axşam yarımadanın bəzi yerlərində qısamüddətli leysan xarakterli olacağı, şimşək çaxacağı ehtimalı var. Arabir güclənən şimal-qərb küləyi gündüz zəifləyəcək.**

Havanın temperaturu gecə 12-15 dərəcə isti, gündüz 17-22 dərəcə isti olacaq. Atmosfer təzyiqi 761 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-80 faiz, gündüz 55-65 faiz olacaq.

Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə sulu qara keçəcəyi ehtimalı var. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.



Havanın temperaturu gecə 10-15 dərəcə isti, gündüz 19-24 dərəcə isti, dağlarda gecə 3-7 dərəcə isti, gündüz 7-12 dərəcə isti olacaq.

***Q.QASIMOV***
***XQ***

Futbol tariximizdən

**Köhnə azarkeşlər diqqətinizə çatdırdığımız fotodakı oyun epizoduna 1982-ci il mayın 8-də şahidlik etmişlər. Həmin gün Respublika stadionunda 45-ci SSRİ çempionatı görüşündə "Neftçi" Moskvanın "Spartak" komandasını qəbul etmiş və qollarla zəngin oyunda futboldan çox xokkeydə təsadüf olunan hesabla qələbə qazanmışdır – 4:3.**

## Kapitanların top "davası"



Fotoda komandaların kapitanları bakılı hücumçu İsgəndər Cavadovla moskvalı müdafiəçi Oleq Romantsevin top uğrunda kəskin mübarizəsini görürük. Onda hər iki kapitan öz komandasının əsl lideri kimi ölkə futbol dairələrində geniş nüfuz sahibi idi. Görəsən, həmin epizodda kapitanların top "davasından" kim qalib ayrılıb?

Qollarımızın müəlliflərini də xatırlayaq. Əvvəldən axıradək qarşılıqlı hücumlar şəraitində davam edən oyunda "Neftçi"dən iki qolun müəllifi görüşün qəhrəmanı Səmədağa Şıxlarov olmuş, daha iki topu isə Şakir Qəribovla Vladimir Mixaylevski vurmuşlar.

***Oqtay BAYRAMOV,***
***Əməkdar jurnalist***

## Dəmir insanı da "dəmir" edir

**Rusiya qastroenteroloqu və hepatoloqu Sergey Vyalov bədəndə dəmir çatışmazlığının əlamətlərini belə sıralayıb:**



– Zəiflik, yuxululuq, artan yorğunluq;
– təbaşir, gil, diş tozu və s. yemək arzusu;
– baş ağrısı, baş gicəllənməsi;
– benzin, aseton, lak, boya qoxularına asılılıq;
– solğunluq, quruluq, ağızın künclərində çatlar, yaraların uzun müddət sağalmaması;
– kövrək dırnaqlar;
– saç tökülməsi və kövrəklik;
– ağız boşluğu və mədə-bağırsaq traktının xəstəlikləri;
– sürətli ürək döyüntüsü, ürək ağrısı, nəfəs darlığı, şişkinlik.

Həkim deyib ki, yüksək dəmir təkcə ətdə, qaraciyərdə deyil. O, belə məhsulların ilk 5-nin siyahısını da tərtib edib. Bildirib ki, çox adam dəmir axtarışındadır, çünki anemiya geniş yayıb. Lakin onun hansı məhsullarda nə qədər olduğunu bilmirlər. S.Vyalovun siyahısına görə, 100 qramında yüksək dəmir olan ilk 5 qida küncüt (16 mq), dəniz yosunu (16 mq), buğda kəpəyi (14 mq), mərcimək (11,8 mq), qarabaşaq yarmasıdır (8,3 mq).

Ş.Vyalov bildirib ki, enerji və yağ kimi, dəmirin də saxlandığı bir maddə olan "ferritin"dən dəmir əldə etmək mümkündür.

***Z.HÜSEYNLİ***
***XQ***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3428
SİFARİŞ 878
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Mirbağır YAQUBZADƏ
Çapa imzalanmışdır 00:00